Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Turizm və Menecment Universiteti
İctimai fənlər kafedrası

“Region tarixi” fənnindən

# DƏRS VƏSAİTİ

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2017

63.3(0)ə73+63.3(5 Ǝ a) ə4 (ə a)
Zəu

**Müəlliflər: Tarix üzrə fəlsəfə doktoru, dos. Məhərrəm Zülfüqarlı,**
**Tarix üzrə elmlər doktoru, dos. Minaxanım Əsədova**

**Redaktor: s.ü.f.d., dos. E.İ.Aslanov**

**Rəyçilər: t.ü.e.d. prof., K.K.Şükürov**
**t.ü.f.d., dos. İ.Z. Əliyev**

Dərs vəsaiti Azərbaycan Turizm və Menecment Universiteti Elmi Şurasının 04 mart 2016 -cı il tarixli iclasının qərarı ilə nəşr olunub ( Protokol № 5)

# I mövzu: "Region tarixi" fənninin predmeti

1. "Region tarixi" fənninin nədən məzmunu
2. Regionşünaslıq ixtisası üçün " Region tarixi" fənnin öyrənilməsinin əhəmiyyəti

Azərbaycanın yerləşdiyi qafqaz regionu strateji cəhətdən əlverişli ərazidə yerləşməsi, təbii sərvətləri, əlverişli iqlim şəraiti və digər cəhətlərinə görə, tarixən dünyanın böyük dövlətlərinin diqqətini cəlb etmişdir. Buna görə də regionun tarixnin dərindən öyrənilməsi əvvəlki illərdə olduğu kimi bu gün də aktualdır.

"Region tarixi" fənni ümimi fənlərdən fərqli olaraq yalnız regionşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə tədris olunur. Buna görə də bu fənnin universitetdə tədris olunan ümumi fənlərdən fərqli spesifik xüsusiyyəti var. "Regionun tarixi" fənninin predmeti Azərbaycan Respublikasının yerləşdiyi regionda təmsil olunan və ya bu regionla tarixən sıx əlaqələri olan dövlətlərin qısa tarixinin öyrənilməsindən ibarətdir. Bura İran,Türkiyə, Rusiya, Gürcüstanın qədim dövrdən müasir dövrə qədər qısa tarixi aiddir. Regionda tarixən dövləti olmamış, yalnız 1918-ci il may ayından başlayaraq Azərbaycanın tarixi ərazisində yaranmış Ermənistanın tarixi həmin dövrdən başlayaraq tədrisə daxil edilib.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Regionşünaslıq (regionlar üzrə) ixtisasına aid "Ali təhsil pilləsinin dövlət standartı bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil proqramı"nda qeyd olunur ki, məzun aşağıdakı peşə kompetensiyalarına (PK) yiyələnməlidir:

- region ölkələrinin tarixini, əsas siyasi prosesləri, milli dövlətçiliyin inkişafını öyrənmək;
- region ölkələrinin etnik simasını yaradan xarakterik, ənənəvi mədəniyyət və məişət xüsusiyyətlərini öyrənmək, xalqların yayılma arealını, qarşılıqlı mədəni əlaqələrini və müasir mərhələdə gedən etnik prosesləri bilmək;
- beynəlxalq münasibətlərin müxtəlif problemlərini nəzəri cəhətdən öyrənmək ;
- beynəlxalq münasibətlərin tarixini, sistemi yaradan konfransları və müqavilələri, beynəlxalq münasibətlərin təzahürləri, böhran və problemləri, müasir dövrdə bu münasibətlərin dünya diplomatiyasında səciyyəsini öyrənmək;
- beynəlxalq təşkilatların yaranmasını, məqsədlərini, prinsiplərini və

strukturlarını öyrənmək ;

- ixtisas ölkəsinin tarixini, siyasi sistemini, mədəniyyətini, ədəbiyyatını, həmçinin region ölkələrinə aid sırf ixtisaslaşma fənlərini bilmək.

Regionşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin "Regionun tarixi" fənnin öyrənilməsinin böyük əhəmiyyəti var. Regonşünaslıq ixtisı üzrə təhsil alan tələbələrin yuxarıda adı çəkilən dövlətlərin tarixini bilməsi zəruridir. Tələbələr tarixən həmin dövlətlərdə baş verən hadisələrdən xəbərdar olmasa, müasir dövrdə həmin dövlətlərin ictimai-siyasi, iqtisadi və mədəni vəziyyəti haqqında məlumatsız olsalar, onlar dövrün tələbinə cavab verən, yüksək ixtisaslı mütəxəsis ola bilməzlər. Bundan başqa həmin dövlətlərin daxili və xarici siyasəti, onların tarixən Azərbaycana münasibəti də dərindən öyrənilməsinə ehtiyac var. Bundan başqa Azərbaycanın Türkiyə ilə milli, mədəni bağlılığı, Azərbaycanın İranla uzun illər müştərək tarixə malik olması, Şimali Azərbaycanın uzun illər Rusiyanın işğalı altında qalması, Qafqaz xalqlarının Azərbaycan xalqına yaxın tale yaşaması və s. bu ölkələrin tarixinin öyrənilməsini aktual edir.

Regionşünaslıq ixtisası üçün "Regionun tarixi" fənnin öyrənilməsinin aşağıdakı sahələr üzrə əhəmiyyəti var:

- Tələbələrin region ölkələrinin tarixi haqqında ətraflı məlumata malik olması;
- Regionda baş verən hadisələr haqqında obyektiv məlumatlar əldə edilməsi;
- Dağlıq Qarabağ, Abxaziya və Cənubi Asetiya problemlərinin kökləri və həlli yolları haqqında dolğun məlumat əldə edilməsi;
- Region tarixnin saxtalaşdırılmasının qarşısnın alınması;
- Xəzərin statusu ilə bağlı problemlərin həlli yolları və danışıqların gedişi barədə məlumatların əldə edilməsi;
- Regionda mövcud problemlərin həlli ilə bağlı görülən işlər barədə məlumatlı olmaq;
- Azərbaycanın hazırkı problemlərin həllinə mane olan xarici amillərin dərindən mənmsənilməsi;



- Azərbaycan Respublikasının gələcək inkişafına dəstək verilməsi və s.

**II mövzu: İranda dövlətin formalaşması və inkişaf mərhələləri (qədim dövrdən – XIX əsrin əvvələrinə qədər)**

İran ərazisində dövlətin təşəkkülü
Midiya dövləti, Parfiya dövləti, Əhəmənillər imperiyası, Sasanilər dövləti haqqında
İran və Azərbaycanın müştərək tarixi ( ərəb xilafətinin hakimiyyətindən-XIX əsrin əvvələrinə qədər)

Bu mövzunun dərindən öyrənilməsi üçün qədim zamanlardan müasir dövrə qədər İranda mövcud olmuş dövlətlərin tarixi haqqında məlumata malik olmaq lazımdır.

İran ərazisində dövlətin formalaşması Midiya dövlətindən başlayır. E. ə. VIII əsrdə Deyok Midiya tayfalarını birləşdirərək vahid dövlət yaratdı. Dövlətin paytaxtı Ekbatan şəhəri oldu.

M.ə. 553-cü ildə Midiya dövləti ilə müharibəyə başlayan II Kir qələbə qazandı. Beləliklə, e.ə 550-ci ildə Midiya dövləti tarıx səhnəsindən silindi. Onun dövlətçilik ənənələri və mədəniyyəti Əhəmənilər dövləti tərəfindən mənimsənildi. Əhəmənilər dövləti m.ə. VI əsrin ortalarından 330-cu ilədək Yaxın və Orta Şərqin bir çox ölkəsini hakimiyyəti altında birləşdirən ikinci qədim İran dövləti idi. Makedoniyalı İsgəndərin işğalı ilə Əhəmənilər dövlətinin varlığına son qoyuldu.

Makedoniyalı İsgəndərin yaratdığı Selevkilər dövlətinin dağılması ilə İran ərazisində sayca üçüncü dövlət olan Parfiya dövləti yarandı (m.ə III əsrin ikinci yarısı – m. III əsrinin sonuncu rübü). Parfiya dövlətinin digər dövlətlərlə yanaşı Azərbaycanın Atropatena və Albaniya dövlətləri ilə də siyasi iqtisadi əlaqələri olmuşdur. Ktesifon şəhəri Parfiyanın paytaxtı idi. Ekbatan, Susa, Mitradatkirt ən iri şəhərlərindən sayılırdı. Dövlətə Arşakilər sülaləsi başçılıq edirdi. Dövlət dili Parf dili, dini Politeizm, Zərdüştilik olmuşdu.

Parfiya dövləti Roma ilə müharibələr və daxili çəkişmələr nəticəsində zəiflədiyindən I Ərdəşir 224-cü il Suzian döyüşündə qələbə qazanaraq Parfiya

dövlətinin varlığına son qoydu. 226-cı ildə İran ərazisində dördüncü dövlət, Sasanilər imperiyası yarandı. (226- 651) Bu imperiya İran, İraq, Əfqanıstan, Pakistan, Türkmənistan və Azərbaycan ərazilərini əhatə etmişdir. 632-ci ildə hakimiyyətə III Yezdəgerd gəldi. 633-cü ildə ərəblər Sasanilərlə müharibəyə başladı. 636-cı il Kadisiyyə 638-ci il Ktesifon, 642-cı il Həmədan və Nəhavənd döyüşlərində ərəblər qələbə qazandı. 651-ci ildə isə Ərəb xilafəti Sasanilər dövlətinin varlığına son qoydu.

900-cü ildə Xorasan və İranın şərq hissəsi Səmanilər dövlətini tərkibinə daxil oldu (999-a qədər). İranın qərbində və İraqda Büveyhilər dövləti (935-1055) mövcud olmuşdur. Azərbaycanda Xürrəmilər hərəkatı nəticəsində Ərəb xilafəti zəiflədikdən sonra IX-XI əsrlərdə Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər dövləti yarandi. XI əsrdə Səlcüq türklərin yürüşü ilə İran Səlcuq imperiyasının tərkibinə, Daha sonra İraq Səlcuq İmperiyasının tərkibinə qatıldı. Mərkəzi əl-Əmud qalası olan İsmaililər dövləti (1090-1256) habelə Eldəgəzlər dövləti (1136-1225) İranın xeyli hissəsini ələ keçirmişdir. Bundan sonra İran Hülakülər (Elxanilər) dövlətlərinin tərkibində olmuşdur. Elxanilər dövlətinin süqutundan sonra İran ərazisi Cəlairilər, Müzəffərilər (XIV əsrin 40-50-ci illərində) və s. feodal dövlətlərinin tərkibinı daxil idi. 1380-ci ildə Teymur Ləngin yürüşü ilə İran onun hakimiyyəti altına düşmüşdür(1380-1393). Onun ölümündən sonra İran Teymurilər və Qaraqoyunlu dövləti arasında bölüşdürüldü. Sonralar Qaraqoyunlar, Ağqoyunlar və Səfəvilər dövlətlərinin tərkibində olmuşdu. Daha sonra Nadir şahın yaratdığı Əfşarlar imperiyasının tərkibinə qatılmışdı. Xanlıqlara parçalanmadan sonra XVIII əsrin sonlarından, konkret olaraq 1796-cı ildən Qacarlar sülaləsi mərkəzi hakimiyyəti bərpa edərək 1925-ci ilə qədər İranı idarə etmişdi. Son şah sülaləsi olan Pəhləvilər sülaləsi 31 oktyabr1925-ci il tarixdə Qacarları devirərək İranı 54 il idarə ediblər. 1979-cu ildə İranda İslam İnqilabının devrilməsi ilə mütləqiyyət rejiminə son qoyulmuş, İran İslam Respublikası yaranmışdır.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Axundova N. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. "Bakı Universiteti", Bakı 2010
2. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Şərq-Qərb. BAKI 2007.
3. Mustafayeva N. Cənubi Azərbaycan xanlıqları. Bakı, Azərnəşr, 1995.-96 s.





4. Seyfəddini M.Ə. Parfiya dövləti: Parfiya dövlətində pul sistemi və sikkə zərbi.Bakı, Adiloğlu, 2004.- 118s.
5. Vilayəti Əli Əkbər. Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi. Bakı, Əlhuda, 1998.- 422 s.
6. Zülfüqarlı M.P. Azərbaycan tarixinə yeni baxış. Bakı 2007
7. Zülfüqarlı M.P. Salyan hakimi Qəvuli xanım. "525- ci qəzet" 14 noyabr 2007
8. Мехтиев Р. «Шах Исмаил Сефеви: портрет правителя и воина». Часть I Баку, Издательский Дом "Şərq-Qərb", 2014, 256 стр.
9. История Иранского государства и культуры. К 2500-летию Ирана. М.: АН СССР. Ин-т востоковедения. Главная редакция восточной литературы, 1971. — 350 с
10. Иванов М. С. Очерки истории Ирана. — М., 1952
11. История Ирана. — М., 1977


**III mövzu:** İran XIX- XX əsrin 70-ci illərinə qədər

I və II Rus İran müharibələri və onların nəticələri
XIX-XX əsrin əvvələrində İranda baş vermiş üsyanlar və inqilablar
Qacarlar sülaləsinin hakimiyyətdən devrilməsi Pəhləvilər sülaləsinin hakimiyyətə gəldiyi dövrdə ölkədəki ictimai-siyasi vəziyyət
İran II Dünya müharibəsi illərində

Bu mövzunu öyrənmək üçün əsasən Rusiyanın XVIII əsrin sonlarından başlayaraq Qafqazda yeritdiyi işğalçı siyasətin məqsədlərinə və bağladığı müqavilələrə diqqət etmək lazımdır. Müharibəyə əsas səbəb Rusiyanın IX əsrdən üzü bəri, xüsusilə də I Pyotrun hakimiyyətə gəlməsi ilə yeridilən işğalşı siyasəti idi. Rusiya imperiyasının XVIII əsrin sonlarından etibarən Azərbaycan torpaqlarını yeni işğal cəhdi İranın ciddi etirazına səbəb olurdu. Çar hökuməti Azərbaycanın xanlıqlara parçalanmasından istifadə edərək, bu prosesi həm silahlı müdaxilə, həm də müqavilələr bağlanmaqla reallaşdırmaq istəyirdi. Rusiyanın işğaıçılıq siyasətini daha yaxşı başa düşmək üçün Rusiya ilə Quba xanlığı arasında 1782-ci il müqaviləsinə, Kartli-Kaxet çarlığı ilə 1783-cü il Georgievsk müqaviləsinə,

I Pavelin 1801-ci il yanvar və I Aleksandrın 12 sentyabr manifestlərinə , Quba xanlığı və digər hakimlərlə bağlanmış 1802-ci il Georgievsk müqaviləsinə, 1803-cü il Çar-Balakənin andlı öhdəliyinə, Gəncə xanı Cavad xana general Sisiyanovun göndərdiyi məktublara və bu məktublara verilən cavablara, Qərbi Gürcüstanın knyazlıq və çarlıqları ilə münasibətlərə dair müqavilələrə xüsusi diqqət vermək lazımdır. Bundan başqa I Rus-İran müharibəsinin başlanmasının səbəbləri aydınlaşdırılmalıdır.

## Qacarlar haqqında qısa məlumat

Nadir şahın ölümündən sonra ölkə xanlıqlara parçalandıqdan sonra mərkəzi hakimiyyət uğrunda müxtəlif qüvvələr arasında mübarizə başladı. Bu mübarizədə türk-qızılbaş olan Qacarlar sülaləsi qalıb gəldi və 1796 - cı ildə bu sülalədən olan Ağa Məhəmməd özünü şah elan etdi. Türk-qızılbaş sülaləsi olan Qacarlar 129 il İranı idarə etmişlər. Qacarlar sülaləsinin şəcərə cədvəli aşağıdakı kimi olmuşdur: Fətəli xan (1721-1750), Məhəmməd Həsən xan (1750-1770), Hüseynqulu xan (1779) – Mazandaranda tayfa başçıları, Ağa Məhəmməd (1779-1797), Fətəli şah (1797-1834), Məhəmməd şah (1834-1848), Nəsrəddin şah (1848-1896), Müzəffərəddin şah (1896- 1907), Məhəmməd Əli şah (1907-1909), Əhməd şah (1909-1925).

Tarixi mənbələrdə qeyd olunur ki, Şah İsmayıl atasının vəfalı dostlarından sayılan Hüseyn bəy lələ, Xadim bəy Xəlifətül-Xüləfa, Rüstəm bəy Qaramanlu, Dədə bəy Talış, İlyas bəy Uyğuroğlu, Qara Piri bəy Qacar adlı 7 nəfərin köməyilə böyük müvəffəqiyyətlər qazanmışdır. Buradan belə nəticə çıxarmaq olar ki, Qacarlar Səfəvi dövlətinin yaranmasında fəal iştirak etmiş ən etibarlı tayfalardan biri olmuşdur.

Qacarların soy kökü haqqında Rəşid bəy İsmayılovun 1993-cü ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabın belə yazılmışdı: "Təqribən yeddi yüz sənə bundan əqdəm İran səltənəti moğolların əlində olan vaxt, qəsb etdikləri taxt və hakimiyyəti saxlamaq qəsdilə Türküstandan iki yüz min ailə Ağ hun tayfasına mənsub olan "Qayi" türklərini İrana köçürmüşdür. "Qayi" türklərinin "Qacar", "Əfşar", "Ustad Callı", "Padar" və "Çobanı" qəbilələri İranın müqəddəratında pek böyük nüfuza malik olaraq, mühüm rollar oynamışlar... Cəlayir türklərinin



nəslinə mənsub Qacar türklərini Əmir Teymur Qarabağ, Gəncə və İrəvan vilayətinə köçürdüb, burada yurdlaşmağa bunlara müsaidə etmişdi. Sonra Qacarlar Azərbaycanın sair nöqtələrinə dəxi dağılıb, "Qacar" və "Qacarlı" adlı köylər abad etmişlər".

Qacarların İran və Azərbaycanın tarixində oynadığı rol haqqında müəllif daha sonra yazır: «Ağa Məhəmməd xan hal-hazırda İranda səltənət edən Qacar silsiləsinin ilk tacidarı və müəssisi idi. Dağıstan ləzgiləri Gəncə, Erivan və Qarabağ əhalisini indiyədək "Qacar" deyə adlandırırlar. Qacarlar ən əvvəl Gəncənin yaxınlığında olan Şimku yurdunda sakin olublar. Burada Qacarların "Mehdibəyli" adlanan yurdlarının xarabası və əkdikləri çinar ağacları indiyədək qalmışdır.

Şah Abbas Qarabağdan bir kaç bin Qacar türklərindən köçürdüb, Mazandaranda və Astarabadda sakin etdi. Ağa Məhəmməd xan Astarabadda sakin olan Qacarlara mənsubdur"(İsmayılov R. "Azərbaycan tarixi" Bakı 1993, s.72-73)

Bütün bunlar sübut edir ki, Qacarlar tayfası və onların nümayəndəsi olan şahlar Azərbaycan üçün yadelli və işğalçı olmamışdır. Onların əsas məqsədləri parçalanmış mərkəzləşmiş dövləti bərpa etməkdən ibarət idi. Bunun üçün onlar Cənubi Qafqaz ərazisini öz əsarəti altına salmaq istəyən Rusiyaya qarşı və mərkəzi hakimiyyətə tabe olmaq istəməyən, bunun üçün də özünə kənardan müttəfiq axtaran xanlara qarşı mübarizə aparmışlar.

Səfəvilər dövründə Qarabağ, Gəncə və Astarabadın Qacarlar tayfasından olan əmirlər tərəfindən idarə olunması, 1579-cu ildə Şirvanı Osmanlıların yeni hücumlarından qorumaq üçün Peykər xan Ziyadoğlu Qacarın bura bəylərbəyi təyin edilməsi və s. faktlar göstərir ki, Ağa Məhəmməd Şah Qacarın Cənubi Qafqaza hücumunu sovet tarixşünaslığında qeyd olunduğu kimi «yadelli qoşunların işğalçı yürüşü» kimi qiymətləndirmək kökündən səhvdir. Çünki hər şeydən əvvəl Qacarlar yadelli deyil, bu torpağın, bu vətənin övladları idilər. Bundan başqa, bu hücumlarda əsas məqsəd hansısa yad, xarici torpaqları işğal etmək yox, əvvəllər mərkəzləşmiş dövlətin hakimiyyəti altında olmuş, lakin sonradan xanlıqlara parçalanmış əraziləri yenidən mərkəzləşmiş hakimiyyətə tabe etməkdən ibarət idi.

Gəncənin işğalından (1804) sonra İranın Rusiyaya Qafqazda tutduğu ərazilərdən dərhal çıxması ilə bağlı xəbərdarlığı, Rusiyanın buna etinasız yaranaşması I Rus-İran müharibəsinin başlaqnmasına səbəb olmuşdur. Qarabağ

xanlığı ilə 1805-ci il mayın 14-də Kürəkçay müqaviləsinin bağlanması, bu müqavilənin şərtləri ilə Şəki və Şamaxı xanlığının da Rusiya ilə müqavilə bağlamağa məcbur olmaları da Rusiyanın işğaıçı siyasətinin mahiyyətini başa düşməyə imkan verir.

## Abbas Mirzə

I və II Rus-İran müharibələrində İran qoşunlarının komandanı Abbas Mirzə haqqında sovet tarixşünaslığında olan düşmən, saxta fikirlər şüurlarda hələ də qalsa da son illər nəşr olunmuş bəzi kitablar bu çatışmazlıqları müəyyən qədər aradan qaldırılmasına kömək edir.

Ağa Məhəmməd Şah Qacarın qardaşı oğlu Fətəli şahın oğlu vəliəhd Abbas Mirzə 1789-cu il avqustun 28-də dünyaya gəlmişdir. Fikrimizcə, 15 yaşından İran ordusuna rəhbərlik edərək 12 ildən artıq işğalçı çar qoşunlarına qarşı mərdliklə döyüşmüş, cəsur sərkədə Abbas Mirzəni bir şəxsiyyət kimi 13 yaşından qızılbaşlara rəhbərlik edərək Səfəvi dövlətinin əsasını qoymuş I Şah İsmayılla müqayisə etmək olar. Hər bir azərbaycanlı I Şah İsmayılla fəxr etdiyi kimi, vətəni yadelli işğalçılardan azad etmək uğrunda qəhrəmanlıqla vuruşmuş Abbas Mirzə kimi şəxsiyyətlərlə də fəxr etməli, bu şəxsiyyətləri xatırlayarkən qürur hissi duymalıdır.

Nasir Nəcminin «Abbas Mirzə» (yaxud «Qacar sülaləsinin qəhrəman, vətənpərvər oğlu və onun başçılıq etdiyi İran-Rusiya müharibələri», (Tehran hicri 1326-cı il, miladi 1910) kitabı 1993-cü ildə Azərbaycan dilinə tərcümə olunmuşdur. Qafqazda çarın göstərişlərini yerinə yetirərək Azərbaycan xanlıqlarını bir-birinin ardınca istila və Rusiyaya ilhaq edən generalların - Sisianovun (milliyyətcə gürcüdür), Qudoviçin, Yermolovun, Mədətovun (ermənidir), Paskeviçin apardığı işğalçı və soyğunçu müharibələr kitabda geniş əksini tapır. Kitabın əsas məziyyəti ondadır ki, Abbas Mirzə istər birinci (1804-1813), istərsə ikinci (1826-1828) Rus-İran müharibələrində öz doğma torpaqlarını amansız düşməndən cəsarətlə müdafiə etməsini, yeni tipli nizami ordu yarada bilmək bacarığını inandırıcı dəlillərlə göstərir... Əsər heç şübhəsiz, XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi, hərbi hadisələri daha düzgün anlamaqda oxucularımıza kömək göstərəcəkdir.

Kitabda Abbas Mirzənin qəhrəmanlığı haqqında müəllif yazır: «İran



əsgərləri ölkəyə tarixi şan-şöhrət qazandıran görünməmiş qəhrəmanlıq, cəsarət göstərmiş, bu müddət ərzində, Qacar sülaləsinin qoxmaz, igid oğlu Abbas Mirzənin başçılığı altında bütün çətinliklərə dözərək, çarın gündən-günə artan qoşunlarına qarşı müqavimət göstərmiş, hətta bu müharibələrdəki bəzi döyüşlərdə heyrətləndirici nailiyyətlər əldə etmiş və düşmən qüvvələrinə güclü zərbələr endirmişlər.

Abbas Mirzə vətənin istiqlaliyyətini və bütövlüyünü hədələmək məqsədilə aparılan döyüşlərdə tərifəlayiq qəhrəmanlıqlar göstərmişdir».

Jan Juniorun 2004-cü ildə Azərbaycan dilində nəşr olunmuş «Unudulmuş qəhrəmanlar» kitabı XIX əsrin əvvəllərində İran və Cənubi Qafqazda baş vermiş hadisələrin obyektiv öyrənilməsində mühüm əhəmiyyətə malikdir. İran İslam Respublikasının Azərbaycan Respublikasındakı sabiq səfiri Əhəd Qəzayi kitaba yazdığı ön sözdə Abbas Mirzə haqqında demişdir: «Böyük ruh gücünə malik olan bir qoşun toplamış və bu qoşuna rəhbərlik edən qədim Təbrizin becərdiyi və Azərbaycanın qeyrətli oğlu Abbas Mirzə idi. Abbas Mirzə İranın vəliəhdi olmaqla yanaşı, həm də döyüşə rəhbərlik edirdi... İstər Abbas Mirzə, istərsə onun başqa sərkərdələrinin qəhrəmanlıqları tarixin səhifələrində həkk olunmuşdur və insan bunları oxuduqca qızılbaşları, Şah İsmayılı xatirələrdə canlandırır və görür ki, bu torpağın necə oğulları varmış».

Abbas Mirzə vətənin istiqlaliyyətini və bütövlüyünü hədələmək məqsədilə aparılan döyüşlərdə tərifəlayiq qəhrəmanlıqlar göstərmişdir

Abbas Mirzə ağıllı, cəsarətli sərkərdə olmaqla yanaşı, həm də dövrünün qabaqcıl ziyalılarından idi. O, fransız dilini gözəl bildiyindən dünyanın müxtəlif ərazilərində, o cümlədən Avropada baş verən hadisələr haqqında dərin biliyə malik idi. Onun elmi, mədəni, iqtisadi və hərbi sahələrdə apardığı islahatlar İranın inkişafına yaxından kömək etmişdir. İrana ilk mətbəəni gətirən də o olmuşdu. Abbas Mirzə Avropa dillərindən fars dilinə kitab tərcümə edən birinci şəxsdir. O ilk dəfə olaraq Jan-Jak Russonun Fransa inqilabında mühüm rolu olmuş «Kontra-sosial» əsərini fransız dilindən tərcümə etmişdir. Fətəli şahın mətbəədə yalnız dini kitablar çap edilməsi ilə bağlı göstərişi olmasına baxmayaraq, onun səyi ilə bir neçə tarixi kitab da çap olunmuşdur. Abbas Mirzə həmçinin fransız mənbələri əsasında Rusiyanın tarix və coğrafiyasını da dərindən öyrənmişdi. O, I Pyotrun dövründən XIX əsrin əvvəllərinə kimi Rusiyanın daxili və xarici siyasətini

bütün incəliklərinə qədər öyrənmiş və təhlillər aparmışdı ki, bu da sonrakı çətin proseslərdən baş çıxarmaqda ona yaxından köməklik etmişdi.

Abbas Mirzənin Fransanın İrandakı səfiri Joberə dedikləri fikirlər onun dövrünün qabaqcıl ziyalısı olmasını bir daha sübut edir. O demişdi: «Böyük Pyotr Rusiyada hakimiyyət taxtından düşüb sənət öyrənmək üçün Avropaya getdi. Mən də əgər bacarsaydım səltənət taxtından düşər və Avropaya gedərdim ki, orada yeni elmləri və sənətkarlığı öyrənəm, İrana qayıdam və öyrəndiklərimi burada tətbiq edəm. Lakin atam mənə elə bir vəzifə tapşırıb ki, onu tərk edə bilmərəm və öhdəmə qoyulan iş başa çatanacan gərək burada qalam. Lakin mən öz əvəzimə elm və sənət öyrənmək üçün başqalarını Avropaya göndərəcəyəm».

Jober Abbas Mirzə haqqında Parisdə çıxan «Klub» qəzetində bir neçə məqalə dərc etdirərək onu oxuculara dövrünün qabaqcıl şəxsiyyəti kimi təqdim etmişdir.

Xalqımızın qəhrəman oğlu Abbas Mirzə 1833-cü ildə 44 yaşında vəfat etmişdir. Çox təəssüf ki, onun haqqında digər xalqların tarixçiləri kitablar yazmalarına, onu dünyaya tanıtmalarına baxmayaraq öz vətənində onun haqqında çox az yazılmışdır. Fikrimizcə, tarixçilər bu çatışmazlığı aradan qaldırmalı, dövründən asılı olmayaraq unudulmuş qəhrəmanları xalqa yaxından tanıtmalıdırlar. (Zülfüqarlı M.P. "Unudulmuş qəhrəmanlar. Abbas Mirzə." "525- ci qəzet" 05 iyun 2007)

I Rus-İran müharibəsinin (1804-1813) başa çatması ilə bağlanmış Gülüstan (oktyabr 1813), II Rus-İran müharibəsinin (1826-1828) başa çatması ilə bağlanmış Tükmənçay müqavilələrinin ayrı-ayrı maddələrinin təhlili də mövzunun öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. XIX əsrin sonu - XX əsrin əvvəllərində İranın Avropa ölkələri ilə əlaqələrinin genişlənməsi. Qərb mədəniyyəti ilə yaxından tanış olmağa imkan vermişdir.

İranda baş vermiş babilər üsyanı (1848-1852), 1905-1911-ci illər inqilabı, onun tərkib hissəsi olan, Səttar xanın rəhbərlik etdiyi Təbriz üsyanı (1908-1911), 1920-ci ilin aprel-sentyabr aylarından Ş.M. Xiyabaninin rəhbərliyi ilə baş vermiş hərəkat, 1921-ci il Rus-İran və 1940 –cı il SSRİ-İran müqavilələri, 1941-ci ilin avqustunda sovet qoşunlarının İranın şimalını işğal etməsi, 1941-1946-cı illərdə Cənubi Azərbaycanda S.C. Pişəvərinin rəhbərliyi ilə baş vermiş demokratik proseslər və bunun nəticəsində 1945-1946-cı illərdə fəaliyyət göstərmiş Cənubi



Azərbaycan Milli hökuməti və digər hadisələrin dərindən öyrənilməsi XIX-XX əsr İran tarixinin düzgün dərk edilməsində mühüm əhəmiyyət kəsb edir.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Abdullayev Z. Z. İranın yeni tarixi. (1642-1870-ci illər). dərs vəsaiti AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi.- Bakı, ADU, 1982.- 95
2. Ağaoğlu Əhməd bəy. İran və inqilabı.- Bakı, Azərnəşr, 2009.- 150 s.
3. Tağıyeva Ş. XIX əsrin sonu XX əsrin əvvəllərində Iran kəndlilərinin vəziyyəti. Bakı, 1969;
4. Qasımlı A. M. Güney Azərbaycan Türkləri son 100 ildə. - Bakı: Adiloğlu, 2012.- 202 s.
5. Əhməd V. Şeyx Məhəmməd Xiyabani. Bakı: Müəllim, 2010.- 139 s.
6. Həbibov Ə. M. Cənubi Azərbaycanda azadlıq hərəkatı.1914-1918-ci illər. B.: Azərnəşr, 1988.- 118 s.
7. Həsənov N. Oyanmış Təbriz və Səttarxan. Bakı, 1986
8. Həsənov H. M. Cənubi Azərbaycanda Milli Demokratik Hərəkat: (1941-1946-cı illər) .- Bakı: Elm, 2004.- 203 s.
9. Mustafayev V. Cənubi Azərbaycan milli şüur [Mətn]: XX əsrin I yarısı. B.: Əbilov, Zeynalov və oğulları, 1998.- 160 s.
10. Nasir Nəcmi «Abbas Mirzə» (yaxud «Qacar sülaləsinin qəhrəman, vətənərvər oğlu və onun başçılıq etdiyi Iran -Rusiya müharibələri», (Tehran hicri 1326-cı il, miladi 1910).Bakı 1993,s.3, 9.
11. Jan Junior «Unudulmuş qəhrəmanlar. Çar Rusiyası ilə müharibədə unudulmuş qəhrəmanlarımız.» (azərbaycan dilinə tərcümə edənlər Əlibala Hacızadə, Şahin Fazil). Bakı 2004, s.349.
12. Rüstəmova Tohidi Solmaz. Kominternin Şərq siyasəti və İran [Mətn]: 1919-1943 - Bakı: 2001.- 508 s.
13. Şükürov K.K. Türkmənçay-1828 [Mətn]: Tarixi xranika. B.: 2006.- 188 s.
14. Məmmədli A.A. İran II dünya müharibəsi illərində. – monoqrafiya., Bakı, 2000.
15. Zülfüqarlı M.P. Azərbaycan tarixinə yeni baxış Bakı, Təhsil, 2007. 90 s.
16. Zülfüqarlı M.P. "Qacar işğalçı idi, yoxsa qəhrəman?" "Ədalət" qəz. 25

fevral 2005

17. Zülfüqarlı M.P. Rus diplomatı A.S. Qirboyedovun cinayəti və cəzası. "Ədalət" qəz. 08 aprel 2005
18. Zülfüqarlı M.P. Unudulmuş qəhrəmanlar. Abbas Mirzə. "525- ci qəzet" 05 iyun 2007
19. Zülfüqarlı M.P. Şərqin ən unudulmaz savaşı - Salyan döyüşü. "525- ci qəzet" 19 iyun 2008
20. Алиев С. М. История Ирана. XX век. М., 2004.
21. Вопросы истории внешней политики грузинских феодальных государств. Тбилиси, 1970
22. Тагиева Ш. Демократические республики Юго-Восточного Кавказа (Азадистан и Гилянская Советская Республика) /.- Б.: Кавказ, 2005.- 240 с.

## IV mövzu: İran İslam inqilabı və şah rejiminin devrilməsi

XX əsrin 70 - ci illərində İranda inqilabi şəratin yetişməsi.İnqilabının obyektiv və subyektiv şərtləri

Şah rejiminin devrilməsindən sonra İranın ictimai-siyasi vəziyyəti

Bu mövzunu öyrənmək üçün əsasən XX əsrin 70-ci illərində İranın ictimai-siyasi vəziyyətinə diqqət vermək lazımdır. XX əsrin 60-cı illərinədək İran aqrar ölkə kimi tanınırdı. Lakin bu sahədə inkişaf həmişə ləng getmişdir. Səbəbi isə məhsuldar torpaq və su qıtlığı, aqrar quruluşun vəziyyəti və s. olmuşdur. Bitkiçilik kənd təsərrüfatının apancı sahəsidir. Ölkədə dənli bitkilər istehsalı xüsusi əhəmiyyət kəsb edirdi. Becərilən torpaqlann üçdə iki hissəsi dənli bitkilərin payına düşürdü. Buğda və çəltik əkinləri geniş sahəni əhatə edirdi.

İrandakı İslam inqilabının (1978-1979) mahiyyətini başa düşmək üçün XX əsrin 70-ci illərində İranın daxili və xarici siyasətinə ciddi fikir verilməlidir. İnqilabın baş verməsinin daxili və xarici səbəbləri var idi. Daxili səbələrdən başlıcası iqtisadi irəliləyişlə ictimai münasibətlər arasında olan tərs mütənasiblik və uyğunsuzluq idi. Bunların sırasında 1973-cü ilin neft böhranı ilə ortaya çıxan məsələlər kifayət qədər əsas rol oynamışdır. Belə ki, neftin qiymətinin dünya



bazarında qalxması İranın da gəlirlərinin artmasını şərtləndirirdi bu da, nəticə etibarilə, xalqın yaşayış səviyyəsinin yüksəlməsini əsaslandırmalı idi. Hökumət real irəliləyiş şəraitində xalqa verdiyi vədləri həyata keçirmədiyindən ölkədə ciddi etiraz səsləri eşidilməyə başlanmışdı. Belə ki, neftdən əldə olunmuş gəlirin qeyri-proporsional bölünməsi, tək iqtisadi və sosial sahədə deyil, ümumiyyətlə, cəmiyyətdə disproporsiyaya gətirib çıxarmışdı. Nəticədə, varlılar daha da varlanmış, yoxsullar daha da yoxsullaşmış, orta təbəqə isə faktiki olaraq bütün ağırlığı öz üzərində aparmaq iqtidarında deyildi. Cəmiyyətdəki belə bir vəziyyət şəraitində, burada işləyən və yaşayan xarici ölkə vətəndaşlarının daha da yüksək səviyyədə yaşaması, təbii ki, yerli əhali tərəfindən sakit qarşılana bilməzdi.

İnqilabın baş verməsində daxili səbəblərlə yanaşı, xarici səbəblər də mövcud idi. İran həmin dövrdə ABŞ-ın regionda ən yaxın və strateji müttəfiqi idi və bununla yanaşı, Amerika Birləşmiş Ştatları bu ölkəyə çoxlu miqdarda silah satmışdı. Bundan əsas məqsəd Sovet İttifaqından gələn təhlükənin qarşısını almaq və Fars körfəzində İranın dominant rolunu təmin etmək idi. İranda işləyən və yaşayan xarici ölkə, xüsusilə ABŞ vətəndaşlarının yüksək səviyyədə yaşaması, təbii ki, yerli əhali tərəfindən sakit qarşılana bilməzdi. Buna görə də, islam inqilabçılarının əsas mübarizə istiqaməti ABŞ-a qarşı çevrilmişdi.

İnqilabın gedişində Tehranda ABŞ səfirliyinə hücum edən radikal islamçı tələbələr 66 nəfəri girov götürdülər. Hadisə ABŞ-la İran arasında diplomatik böhrana səbəb oldu. 444 gün çəkən girov dramı ABŞ-ın uğursuz xüsusi əməliyyatından ("Qartal caynağı"), İran şahı Pza Pəhləvinin vəfatından, nəhayət, İraq-İran müharibəsinin qızışması ilə sona yetdi. İranda saxlanan 53 (onlardan 13 nəfəri əvvəl buraxılmışdı) ABŞ diplomatı və digər şəxslərin azad edilməsi 1981-ci il, yanvarın 20-nə, ABŞ-ın yeni seçilən prezidenti Ronald Reyqanın andiçmə mərasimi ilə eyni vaxta təsadüf edirdi.

### İstifadə olunmuş ədəbiyyat:

Abdullayev Z. 1978-1979-cu illər inqilabının ilkin şərtləri haqqında. Yaxın və Orta Şərq ölkələrində milli azadlıq hərəkatı. Bakı, 1983.

İran İslam inqilabının nəzəri əsasları barədə məqalələr toplusu [Mətn]: İran İslam inqilabının 29-cu ildönümü münasibətilə.- B.: 2008- 103 s.

Yenisey G. Ə. İranda etnosiyasi hərəkatlar (1922-2004) - Bakı: Qanun, 2009.- 247 s.
Иранская революция 1978-1979 гг. Причины и уроки. М.: Наука, Главная редакция восточной литературы, 1989, с. 557.
Алиев С. М. История Ирана. XX век. М., 2004.
Иванов М. С. Новейшая история Ирана. — М., 1965
Иран. Очерки новейшей истории. — М., 1976
Fərəh xanımla müsahibə. «525 - ci qəzet» 9 oktyabr 2004-cü il

## **V mövzu:** İran İslam Respublikası

İran İslam Respublikasının siyasi sistemi
İranın müasir inkişafında islamın rolu

Bu mövzunu öyrənmək üçün birinci növbədə İran İslam Respublikasının Respublikanın Konstitusiyasına diqqət vermək lazımdır. İran İslam Respublikasının konstitusiyası 1979-cu ilin 24 oktyabrında qəbul edilmiş, 3 dekabr 1979-cu ildə isə qüvvəyə minmişdir. İran İslam Respublikası siyasi cəhətdən bir islam respublikasıdır. Teokratik quruluşu sahib olmaqla bərabər konstitusiyaya malik bir dövlətdir. İnzibati cəhətdən 28 ostana, o da özlüyündə 282 şəhristana bölünür. Ostanlar bunlardır: Şərqi Azərbaycan (Təbriz), Qərbi Azərbaycan (Urmiya), Ərdəbil (Ərdəbil), İsfahan (İsfahan), Elam (Elam), Buşehr (Buşəhr), Tehran (Tehran), Çaharmahal və Bəxtiyari (Şəhrokürd), Xorasan (Məşhəd), Xuzistan (Əxvaz), Zəncan (Zəncan), Səmnan (Səmnan), Sistan və Bəlucistan (Zahidan), Fars (Şiraz), Qəzvin (Qəzvin), Qum (Qum), Kürdistan (Sənəndəc), Kirman (Kirman), Kirmanşah (Kirmanşah), Kuhqiluye və Boerəhməd (Yəsuc), Gülistan (Gürqan), Gilan (Rəşt), Lorestan (Xürrəmabad), Mazandaran (Sari), Mərkəzi (Ərək), Hörmüzqan (Bəndər-Abbas), Həmədan (Həmədan), Yəzd (Yəzd).

İranın dini lideri İran İslam Cümhuriyyətinin Konstitusiyasının 110-cu maddəsinə görə ümumi siyasətinin müəyyən olunmasını və nəzarətini həyata keçirir. Dini lider silahlı qüvvələrin Baş komandanıdır, hərbi kəşfiyyat və təhlükəsizlik əməliyyatlarını idarə edir, müharibə elan etmədə və ya sülh elan etmədə tək səlahiyyətli şəxsdir. Məhkəmənin, dövlət radio və televiziyasının,



- 17616 -

hərbi və daxili qüvvələrin komandanları, İslam İnqilabı mühafizələri dəstəsinin baş komandanı və 12 üzvlü Nəzarət Şurasının 6 üzvü Dini Lider tərəfindən təyin edilir.

Məşvərət Şurası öz səlahiyyətləri çərçivəsində İran dini liderini seçə və vəzifəsindən kənarlaşdıra bilər. Məşvərət Şurası Dini Liderə qanuni fəaliyyəti məsələsində müşavirlik edir. Məşvərət Şurası, ildə bir dəfə toplanır, 8 illiyinə ümumi səsvermə ilə seçilən 86 "bacarıqlı və istedadlı" fəqihdən formalaşır. Prezident və parlament seçkilərində olduğu kimi Nəzarət Şurasının namizədlərinin yetərliliyini müəyyən edir. Şura Dini Lideri seçir ve Dini Lideri hər zaman vəzifədən çıxarma məsələsində konstitusiyadan qaynaqlanan səlahiyyəti vardır. Bütün toplantıları və sənədləri çox gizlidir və Şuranın Dini Liderin qərarlarının hər hansı bir ilə ziddiyyət təşkil edən qərarı yoxdur.

Konstitusiya 9-cu fəsildə 113-cü maddəyə görə İran Prezidentin Dini Liderdən sonra ən yüksək dövlət rəhbəri olaraq tanıyır. Prezident dörd illiyə ümumi səsvermə ilə seçilir və yenidən yalnız bir dəfə seçilə bilər. Prezidentliyə namizədlər İslam inqilabının ideyalarına bağlılıqlarından əmin olmaq üçün mütləq Nəzarət Şurasından icazə almalıdır. 115-ci maddəyə görə prezident aşağıdakı keyfiyyətələrə sahib olmalıdır: Əslən iranlı, İran vətəndaşı, müdrik və tədbirli, əmanət və təqva sahibli, mömin və İran İslam Respublikasının əsaslarına və ölkənin rəsmi məzhəbinə etiqad bəsləməlidir. Prezident, Konstitusiyanın həyata keçirilməsindən və hər məsələdə son sözü demə səlahiyyətinə sahib olan Dini Liderə bağlı olan məsələlər xaricində icra hakimiyyətin həyata keçirir. Prezident Nazirlər heyətini təyin edir və onlardan məsləhət alır, hökumət qərarlarını yönləndirir və qanunvericiliyin qarşısına çıxacaq hökumət siyasətini müəyyən edir. Prezidentə bağlı olan 8 nəfərlik köməkçilər şurası və 22 nəfərdən formalaşan, İslam Şurası Məclisi tərəfindən təsdiqlənən Nazirlər heyəti vardır. Bir çox başqa dövlətdə tətbiq olunmanın əksinə olaraq İranda hökumət orduya nəzarət eləməz. Prezident Daxili İşlər və Müdafiə Nazirini təyin etsə də, Məclisdə bu iki nazirlik üçün etimad rəyi alınmadan öncə Dini Liderin açık dəstəyini alması bir adətdir.

2008-ci ildən etibarən İran İslam Şurası Məclisi tək palatalıdır. İran inqilabından əvvəl qanunverici orqan iki palatalı idi, ancaq İran Senatı yeni Konstitusiyaya görə ləğv edilmişdir. Konstitusiyanın 6-cı fəslinin 62 və 63–cü maddəsinə əsasən İran Məclisi dörd illiyə seçilən 290 üzvdən ibarətdir. Məclis



Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

qanunverici fəaliyyətini davam etdirir, beynəlxalq müqavilələri dəyərləndirir və milli büdcəni təsdiqləyir. Bütün məclis üzvləri və Məclisdəki bütün qanunverici fəaliyyət Nəzarət Şurası tərəfindən təsdiq edilməlidir.

91-ci maddəyə görə Nəzarət Şurası 6 illiyə seçilən və 6 üzvü Dini Lider tərəfindən təyin edilən 12 üzvdən ibarətdir. Digərləri İran Məhkəməsi tərəfindan namizəd göstərilən hüquqşünaslar arasından İran Məclisi tərəfindən seçilir. Şura konstitusiyanı izah edir və Məclis qərarlarını ləğv edə bilər. Əgər bir qanun konstitusiya və ya Şəriətlə uyğun deyilsə Məclisə düzəltdilmək üçün təkrar geri göndərilir. Ziddiyyətli görünsə də Şura İran Konstitusiyasına əsaslanaraq parlament üzvlərini veto etmə səlahiyyətinə də malikdir.

Dini Lider məşvərət və müəyyənetmə şurası Məclis və Nəzarət Şurası arasındakı anlaşılmazlıqlarla həll etmə səlahiyyətinə malikdir və Dini Liderə ölkədə ən güclü icraedici səlahiyyət verməklə ona müşavirlik xidməti göstərir.

Dini Lider, sıra ilə Ali Məhkəmə və Baş prokuroru təsdiq edən Məhkəmə Sisteminin Rəhbərini təyin edir. Bu proses konstitusiyanın 12-ci fəslinin 156-cı maddəsinə görə tənzimlənir. Sülh və cəza məsələləri ilə məşğul olan məhkəmələri də özündə ehtiva edən müxtəlif tipli məhkəmələr və milli təhlükəsizlik kimi önəmli təklükəsizlik məsələlərinə baxan "inqilab məhkəmələri" də vardır. İnqilab məhkəmələrinin qərarları qətidir və kassasiya verilə bilməz. Xüsusi Din Adamları Məhkəməsi, dinlə bağlı məsələlərə baxdığı kimi, din adamları tərəfindən işləndiyi önə sürülən cinayətlərə baxır. Normal mühakimə işinin xaricində çalışır və yalnız Dini Liderə qarşı səlahiyyətlidir. Məhkəmələrin qərarları kəsindir və appelyasiya şikayəti verilə bilinməz.

İranın müasir inkişafında, müstəqil daxili və xarici siyasət yeritməsində islamın rolu böyükdür. İranın daxili və xarici siyasətində islam amilinin aparıcı rol oynaması onun bloklara qoşulmamaq siyasəti yeritməsinə, İranda strateji maraqları olan dövlətlərin təzyiqlərinə lazımi səviyyədə cavab verməsinə imkan verir. Son vaxtlar nüvə məsələləri ilə bağlı İran – ABŞ danışıqlarında müsbət irəlləyişlərin əldə olunması deyilənləri sübut edir.



**İstifadə olunmuş ədəbiyyat:**

1. Heydər Əliyev və Şərq. 6 cilddə II cild. İran İslam Respublikası. Müəllif tərtibçilər: Qalay Allahverdiyev XİN-in müşaviri, f.e.d. Vəhdət Sultanzadə XİN-in müşaviri. Bakı: Ozan, 2002, 450 s.
2. Azərbaycan-İran. B.: "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası", 2008.-67 səh.
3. İran İslam Cümhuriyyətinin əsas qanunu. Bakı, 1993
4. Иранская революция. 1978-1979. Причины и уроки. М.: Наука, Главная редакция восточной литературы, 1989, 557 с.
5. Павлов Д. Иран. От полуколонии к региональному лидерству. Ближний Восток: война и политика. М.: Издательский дом Марджани, 2010, 288 с.

## **VI Mövzu:** İran əhalisinin milli və dini tərkibi

İran İslam Respublikası əhalisinin milli tərkibi
İran İslam Respublikası əhalisinin dini tərkibi
İran İslam Respublikasında milli və dini azlıqlara münasibət

Bu mövzunu öyrənmək üçün İran İslam Respublikası əhalisinin etnik və dini tərkibinə diqqət vermək lazımdır. İran İslam Respublikası əhalisinin əksər hissəsi şimali və qərbi rayonlarda yerləşmişdir. Trend informasiya agentliyinin 6 iyul 2013-cü il tarixdə verdiyi məlumatına görə İran əhalisi 2012-ci ilin müafiq dövrü ilə müqayisədə 2,9% artaraq 76,7 milyon təşkil etmişdir. Əhalinin 51 %-ni kişilər, 49%-ni isə qadınlar təşkil etmişdir. Paytaxtı Tehrandır. Ən böyük şəhərləri Tehran, Məşhəd, İsfahan, Təbriz və Şiraz şəhərləridir.

İran və qərb mənbələrinin verdiyi məlumata görə İranda 15 millət və xalq yaşayır. Ölkə əhalisinin yarsına qədərini farslar, 25%-ni azərbaycanlıar, 7 %-ni kürdlər, 2%-ni türkmənlər, lurlar və bəluclar, 1 %-ni ərəblər, qaşqaylar, assurlar, ermənilər və yəhudilər təşkil edir. (http://islam-today.ru. 04 aprel 2013)

Ölkə əhalisinin 98% müsəlmandır. Əhalinin 90%-i şiə təriqətinə məxsusdur. Ölkə əhalisinin 9%- i sünnüdür (əksərən kürdlər).

Xristianlar əhalinin 0,5%-ni təşkil edir. Onlar əsasən Qriqoryan (ermənilər), Nestorian (assurlar), katolik, provoslav, anqlikan və başqa protestant kilsələrinin nümayəndələri mövcuddur. Ölkədə həmçinin bəhailiyə, iudaizmə və zərdüştlüyə mənsub insanlar da mövcuddur. Digər müsəlman ölkələri ilə müqayisədə İranda daha çox yəhudi yaşayır. İranda yəhudiləri əsasən Tehran,İsfahan və Şirazda yaşayırlar. Onların Esfir və Mordexey movzoleyləri var. Onlar hər il dini bayram olan Xanuki bayramını qeyd edirlər. Xristianların Tehranda müqəddəs Nikolay kilsəsi, müqəddəs Faddey monastırı və provaslav qəbrsanlığı var. Zərdüşlərin isə Cəşnə - Sade səhrasında Məbədi fəaliyyət göstərir. Hər il Tehranda Zərdüştlərin dini bayramı olan Qahanbar qeyd olunur.

Fars dili-İran İslam Respublikasının rəsmi dilidir. Fars dili Hind- Avropa dil ailəsinə mənsubdur.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Yenisey G. Ə. İranda etnosiyasi hərəkatlar (1922-2004) - Bakı: Qanun, 2009.- 247 s.
2. Алиев С. М. История Ирана. XX век. М., 2004.
3. Годс, Р. М. Иран в XX веке: политическая история. М.: Наука.1994


**VII mövzu:** Müasir dövrdə İranın daxili və xarici siyasəti

Müasir dövrdə İranın daxili vəziyyəti
İranın xarici siyasətində ABŞ və İsrail amilinin rolu. Qüds günün mahiyyəti.
İranın Xəzərin statusu ilə bağlı siyasəti.
İran-Azərbaycan münasibətləri

Bu mövzunu öyrənmək üçün ilk növbədə 1979-cu ildən bəri İranın yeritdiyi siyasətə diqqət vermək lazımdır. İran İslam Respublikasının daxili və xarici siyasəti bir-biri ilə sıx surətdə bağlıdır. Daxili siyasəti yaxşı başa düşmək üçün ölkənin iqtisadi vəziyyətinə fikir vermək zəruridir. İran neft sənayesi yüksək inkişaf etmiş aqrar-sənaye ölkəsidir. Sənayenin inkişafı üçün ölkədə bir sıra



imkanların olmasına baxmayaraq, onun artım sürəti sənaye məhsullarına olan tələbatı tam ödəyə bilmir. Neft-qaz sənayesi İran iqtisadiyyatının başlıca sahəsidir və dövlətin gəlirlərinin 90%-i verir. Bu sahə İran Milli Neft Şirkətinə məxsusdur. Ölkə ərazisində neft emalı və neft-kimya müəsisələri fəaliyyət göstərir. Təbii sərvətlərdən neft, qaz, kömür, mis, dəmir, manqanlı və sink-qurğuşun filizləri istehlak edilir. Ölkənin cənubu, cənub-qərbi və şimal-qərbi neft və qazla zəngindir. Ən böyük neft emalı zavodları Abadan və Tehran sənaye rayonlarıdır. Ölkədə həmçinin maşınqayırma və metalişləmə, qida və tekstil sənayesi inkişaf etmişdir. Metallurgiya yerli xammala əsaslanır. İsfahan şəhərində tam dövriyyəli qara metallurgiya müəssisəsi fəaliyyət göstərir. Əlvan metallurgiya zavodlarında əsasən mis və alüminium istehsal edilir. Maşınqayırma sənayesinin inkişafında Almaniya və Böyük Britaniyaya məxsus şirkətlərin fəaliyyəti böyükdür. Xalçaların kustar üsulla istehsalı geniş yayılmışdır. Təbriz, İsfahan, Məşhəd şəhərlərində toxunan xalçalar, Şiraz, Tehran, İsfahanda hazırlanan bəzək əşyaları dünya bazarında yüksək qiymətləndirilir. Əsasən xam neft və neft məhsulları, metal filizləri, kənd-təsərrüfatı məhsullarının ixracı üstünlük təşkil edir. Ölkəyə xaricdən ağır maşınqayırma və kimya sənayesi, maşın, dəmir, polad, tekstil malları, kağız idxal olunur.Beynəlxalq sanksiyaların tətbiqi nəticəsində neft satışından əldə olunan pulların ölkəyə gətirilməsi ciddi problemə çevrilmişdir. Bununla belə, hökumət iri hərbi-texniki layihələri maliyyələşdirməkdə və gerçəkləşdirməkdə davam etmişdir. Son vaxtlar altılıq ölkələri ilə İran arasında nüvə enerjisindən istifadə ilə bağlı müəyyən ilkin razılaşmalar olmasına baxmayaraq beynəlxalq sanksiyaların ölkə iqtisadiyyatın mənfi təsiri hələ də qalmaqdadır. Bu da ölkə əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılmasına mane olur.

İran İslam Respublikasının Konstitusiyasında xarici siyasət məsələlərinə aid xüsusi fəsil mövcuddur. Belə ki, 10-cu fəslin 152-155-ci maddələri bilavasitə sözügedən sahəni tənzimləyir. Xarici siyasətinin konstitusion əsasları İranın digər dünya dövlətlərindən asılılığına yol verməməsini, dünya müsəlmanlarının hüquqlarının müdafiəsini, haqları pozulan xalqların maraqlarının dəstəklənməsini, islam inqilabının ixracı kimi məsələləri nəzərdə tutur. Konstitusiyanın 152-ci maddəsinə müvafiq olaraq, İran İslam Respublikası İranın üzərində digər dövlətlərin və İran tərəfindən digər dövlətlərə qarşı hər hansı bir formada həyata keçirilə biləcək hökmranlığa qarşı çıxır. Eyni zamanda, sözügedən maddədə bütün

müsəlmanların haqlarının müdafiəsinin vacibliyi qeyd olunur və İrana qarşı düşmən mövqeyində olmayan dövlətlərlə sülh münasibətlərinin inkişaf etdirilməsi nəzərdə tutulur. 153-cü maddəyə əsasən İranın təbii resursları, iqtisadiyyatı, mədəniyyəti, ordusu və digər sahələri üzərində xarici dövlətlər tərəfindən hökmranlığın yaranması ilə nəticələnə biləcək müqavilələrin imzalanmasına qadağa qoyulur. 154-cü maddə isə İranın digər dövlətlərin daxili işlərinə qarışmayaraq, haqları tapdalanmış xalqların ədalətli mübarizəsinə dəstək verməsini nəzərdə tutur. 153-cü maddə, qeyd olunduğu kimi, digər sahələrlə yanaşı, İran iqtisadiyyatı üzərində hər hansı bir dövlətin təsirinin yaranmasının qarşısının alınmasını nəzərdə tutaraq, eyni zamanda valyuta nəzarətinin olmasını da istisna edir.

İran İslam Respublikasının xarici siyasətinin əsas məqsədlərindən biri «İslam inqilabının ixracı» doktrinasını həyata keçirməkdən ibarətdir. Doktrinanın məqsədi digər ölkələrin İranın təsir altına düşmələrini deyil, dünya xalqlarına İran İslam Respublikası və onun prinsipləri haqqında əsl həqiqətləri çatdırmaqdan ibarət olduğu kimi təqdim edilir.

İslam inqilabının prinsipləri İran İslam Respublikasının daxili və xarici siyasətinin fundamental əsaslarını təşkil edir. Hal hazırda İranın xarici siyasətinə eyni zamanda həm mühafizəkarlıq, həm də müəyyən dinamika xasdır. İranın xarici siyasət konsepsiyası kifayət qədər mürəkkəb xarakter daşıyır. O, xarici siyasət məqsədlərinə nail olmaq üçün ideoloji vasitələrin tətbiqi ilə yanaşı, rasional vasitələrin də tətbiqini nəzərdə tutur. Xarici siyasət sahəsində qərarların qəbul edilməsi prosesində müəyyən hallarda islam (şiyə) həmrəyliyi, tarixi-mədəni və dil birliyi əsas tutulur, müəyyən hallarda isə real vəziyyət nəzərə alınır.

İran İslam Respublikasının xarici siyasət mexanizmində güc strukturlarının və xüsusi xidmət orqanlarının aktiv rol oynamaları mövcud mexanizmin özəlliyini təşkil edir. Ənənəvi olaraq İranın xüsusi xidmət orqanları bütün Yaxın və Orta Şərq regionunda öz gücü ilə fərqlənirlər.

## Azərbaycan - İran münasibətləri

Qısa tarixi məlumat: İran İslam Respublikası Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 12 mart 1992-ci ildə qurulmuşdur. Hər iki ölkənin (1969-cu ildə İranın Bakı şəhərində



açılmış konsulluğu 1992-ci ilin mart ayından İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi kimi fəaliyyətini davam etdirir, 1992-ci ilin dekabr ayından isə Azərbaycan Respublikasının İran İslam Respublikasında səfirliyi fəaliyyətə başlamışdır) səfirlikləri, İranın Bakıdakı Mədəniyyət Mərkəzi (1993-cü ildən) və Naxçıvan MR-də Baş Konsulluğu (1992-ci ilin dekabr ayından), Azərbaycan Respublikasının Təbriz şəhərində Baş Konsulluğu (20 oktyabr 2004-cü ildən) fəaliyyət göstərir. Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Vasif Talıbovdur. Müqavilə-hüquq bazası: Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında 99 sənəd imzalanmışdır.
Link:www.azembassy.ir

### İstifadə olunmuş ədəbiyyat:


1. Heydər Əliyev və Şərq. 6 cilddə II cild. İran İslam Respublikası. Müəllif tərtibçilər: Qalay Allahverdiyev XİN-in müşaviri, f.e.d. Vəhdət Sultanzadə XİN-in müşaviri. Bakı: Ozan, 2002, 450 s.
2. Azərbaycan-İran. B.: "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası", 2008.-67 səh.
3. İran İslam Cümhuriyyətinin əsas qanunu. Bakı, 1993
4. Mustafayev V.K. İslahatçı prezident // «Qoşa bayram» jurnalı. Bakı: İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin nəşri, 2004,s.31-36
5. Zülfüqarlı M.P. ABŞ, İsrail və İslam ölkələri. Bakı 2007. 108 s.
6. İran İslam Cümhuriyyətinin Əsas Qanunu, Bakı: Qızıl Şərq, 1993 (Azərbaycan və fars dillərində) azərbaycanca mətn, 96 s.
7. Конституция ИРИ. http://constitutions.ru/archives/
8. Павлов Д. Иран. От полуколонии к региональному лидерству. Ближний Восток: война и политика. М.: Издательский дом Марджани,2010,288 с
9. Молушков В.Г., Хромова К.А., Поиски путей реформации в Исламе: опыт Ирана. М.: Наука, Главная редакции восточной литературы, 1991, 207 с.
10. Сеид Мухаммед Хатеми. Страх перед бурей. М.: МГУ, 2001, 128 с.

**VIII mövzu:** Türkiyə dövlətinin yaranması və inkişaf mərhələləri

1. Kiçik Asiya yarımadasında Türk dövlətinin formalaşması
2. Osmanlı İmperiyasının yaranması və inkişafı

Mövzuya yaxından bələd olmaq üçün Osmanlı türk dövlətinin yaranması, inkişafı və süquqtu prosesi dərindən öyrənilməlidir. Osmanlı Türk dövlətinin əsası 1299-cu ildə müasir Türkiyənin Biləcik ilinin Söğüt şəhərində Osman bəy tərəfindən Osmanoğulları Bəyliyi kimi qoyulmuşdur. Bəzi tarixçilərə görə, Osmanlı Dövlətinin qurucusu Osman Bəyin atası Ərtuğrul Qazi, onun atası **Gündüz Alp** (və ya Süleyman Şah) onun atası **Kaya Alp**, onun atası **Gündüz Alpdır**. Bu adlı-şanlı ailə Oğuz türklərinin 24 boyunun ən nüfuzlularından olan Kayı əşirətinin başçısı idi. Osman bəyin atası Ərtuğrul Qazi, Səlcuk sultanı Ələddin tərəfindən Bizans sərhəddinə «uc bəyi» olaraq təyin edilmişdi. Ərtuğrul Qaziyə yurd kimi verilən ərazi bugünkü Bursa, Kütahya və Biləcik illərinin sərhədlərinin birləşdiyi yerdir. Sonradan Söğüt qəsəbəsi Bizansdan alınaraq mərkəz edilib. Səlçuklu Dövlətində uc bəyliklərinin vəzifəsi dövlətin sərhəddini qorumaq və xristianlara qarşı cihad etməkdən ibarət idi. Tarixi mənbələrə əsasən Ərtugrul Bəy 1281-ci ildə vəfat edib. Yerinə isə ailənin ən kiçik oğlu olmasına rəğmən çox üstün keyfiyyətlərə malik Osman Bəy seçildi və uc bəyi oldu. Osman Bəy ağıllı siyasət və döyüş qabiliyyəti ilə qonşuları olan Bizans hakimləri ilə gah dostluq münasibətləri qururdu, gah da müharibələr edirdi. Qısa zamanda Bizansdan xeyli torpaq ələ keçirən Osman bəy Bursa və İzniki də fəth etdi. Yarhisar və Qaracahisar hakimlari ilə birlik qurdu. Bundan sonra 1288-ci ildə Qaracahisarı ələ keçirdi. Osman bəy, Biləcik və Yarhisar qalalarını da aldı. 1299-cu ildə Yarhisar hakiminin qızı Nilufərlə oğlu Orxan Bəyi evləndirdi. I Murad ilə Süleyman Paşa bu nikahdan dünyaya gəldilər. Osman Bəy 1299-cu ildə Osmanlı Dövlətinin müstəqilliyini elan etdi.

Osmanlı İmperiyasının paytaxtı əvvəl Bursa, sonra Ədirnə, 1453-cü ildə isə Konstantinopolun fəth olunmasından sonra İstanbul şəhəri olmuşdur. Bu imperiyanın əzəmətini yaxından görmək üçün ona rəhbərlik etmiş sultanların hakimiyyəti illərindəki fəaliyyətləri ilə tanış olmaq lazımdır. Osmanlı İmperiyasının Sultanları aşağıdakı şəxslər olmuşlar:



- I Osman (1299-1324)
- I Orxan (1324-1361)
- I Murad(1360-1389) I Kosova müharibəsi zamanı şəhid olmuşdur.
- İldırım Bəyazid (1389-1402)
- Fetrət dövrü (1402–1413)
- I Mehmed Çelebi (1413-1421)
- II Murad (1421-1444) (Öz istəyi ilə hakimiyyətdən oğlu II Mehmedin xeyrinə geri çəkilmişdir)
- II Mehmed Fatih (1444-1446) (Atasının yenidən hökümdar olması üçün onun xeyrinə hakimiyyətdən imtina etmişdir.)
- II Murad (1446 -1451) (İkinci dəfə Yeniçərilərin üsyanı ilə hakimiyyətə qayıtdı)
- I Mehmed Fatih ( 1451- 1481) hakimiyyətinin ikinci dövründə, 29 may 1453-cü ildə Konstantinopol şəhərini fəth etdi;
- II Bəyazid Sultan (1481- 1512) Oğlu I Səlimin xeyrinə hakimiyyətdən imtina etdi;
- I Səlim ( 1512- 1520) İlk İslam Xəlifəsi (Misirin fəth olunması ilə başlamışdır)
- Sultan Süleyman Qanuni (1520-1566)Avropada böyük hərbi uğurlar əldə etmişdir.
- II Səlim (1566 -1574) Onun dövründə Kipr və Tunis fəth edilmişdir.
- III Murad (1574-1595) Qərb istiqamətində olan fəthləri davam etdirmişdir.
- III Mehmed (1595-1603)
- I Əhməd (1603-1617)
- I Mustafa (1617-1618) Əmisi oğlu Osmanın xeyrinə hakimiyyətdən getmişdir.
- II Osman (1618-1622) I Əhmədin oğlu, yeniçəri üsyanı zamanı öldürülüb.
- I Mustafa (1622 -1623) I Əhmədin ölmündən sonra yenidən taxta çıxıb.
- IV Murad (1623-1640) I Əhmədin oğlu,qərb istiqamətində yürüşləri genişləndirib.

- I İbrahim (1640 -1648) I Əhmədin oğlu, Şeyxüslam tərəfindən təşkil olunmuş qiyam nəticəsində taxtdan salınıb
- IV Mehmed (1648-1687)
- II Süleyman (1687- 1691)
- II Əhməd (1691-1695)
- II Mustafa (1695-1703)
- III Əhməd (1703-1730)
- I Mahmud (1730 -1754)
- III Osman (1754 -1757)
- III Mustafa (1757-1774)
- I Əbdülhəmid (1774-1789)
- III Səlim (1789 -1807)
- IV Mustafa (1807-1808)
- II Mahmud (1808-1839)
- I Əbdülməcid (1839-1861)3 noyabr 1839-ci ildə dövlətin həyatında böyük hadisə olan Təzminat Fərmanını,18 fevral 1856-cı ildə islahat fərmanını elan etdi.
- Əbdüləziz (1861-1876)
- V Murad (1876-1876)
- II Əbdülhəmid (1876 -1909) 23 aprel 1876-cı ildə Birinci Məşrutiyyət adlanan qanunu qəbul edib.
- V Mehmed (1909-1918) Osmanlı imperiyası parçalanmağa başladı, Balkan yarımadası, Liviya və Yaxın Şərq əraziləri itirilidi.
- VI Mehmed (4 iyun 1918-1 noyabr 1922) 1 noyabr 1922-ci ildə Sultanlıq ləğv edildi.
- Parçalanma (1922-1923)
- II Əbdülməcid (18 noyabr 1922-3 mart 1924) Türkiyə Böyük Millət Məclisi tərəfindən xəlifə seçildi. Xilafətin ləğv edilməsindən sonra sürgün edildi.



**İstifadə olunmuş ədəbiyyat:**

İsmayılov R., Asiya və Afrika ölkələri orta əsrlər tarixi (feodalizm münasibətlərinin meydana gəlməsi və inkişafı),(həmmüəllif),Bakı,1996

Məmmədli A.A. Yaxın və Orta Şərq ölkələrinin orta əsrlər tarixi (həmmüəllif), Bakı, 1999.

Muxtarova Ə.İ. Türk xalqlarının tarixi (qədim dövrlərdən müasir dövrə qədər). Tarix fakültəsində tədris edilmək üçün Vahid proqram (həmmüəllif). Bakı, 2004.

Muxtarova Ə.İ. Türk xalqlarının dövlətçilik tarixi. Təhsilin magistratura pilləsi üçün proqram.B., 2002

Muxtarova Ə.İ. Qafqaza türk axınları. Təhsilin magistratura pilləsi üçün proqram, B., 2008

## IX mövzu: Türkiyə XVI - XX əsrin əvvələrində

1. Rus-Türk müharibələrinin region ölkələrinə təsiri
2. XIX-XX əsrin əvvəllərində Türkiyənin ictimai-siyasi vəziyyəti
3. Osmanlı imperiyasının süqutu

Rus-Türk müharibələrinin başlama səbəbləri və nəticələrinin öyrənilməsi regiondakı ictimai-siyasi proseslərin mahiyyətinin yaxından başa düşülməsinə imkan verir. XVI əsrdən başlayaraq 1568-1570, 1676-1681, 1686-1700,1710-1713, 1768-1774, 1787-1791, 1806-1812, 1828-1829, 1877-1878 – ci illərdə Rus-Türk müharibələri olmuşdur. Bundan başqa Krım müharibəsi (1853-1856) və I Dünya müharibəsində də bu iki dövlət qarşı-qarşıya gəlmişlər. Regionda bu illərdə və hətta müasir dövrdə baş verən hadisələri başa düşmək üçün həmin müharibələr haqqında qısa da olsa məlumata malik olmaq vacibdir.

### I Rus-Osmanlı müharibəsi (1568-1570)

Moskva knyazlığı 1552-ci ildə Kazan, 1556-cı ildə Həştərxan xanlıqlarının ərazilərin işğal etməsi, Don, Volqa çayları və Qara dənizdə nəzarəti ələ keçirməsi

regionda güclü dövlət olan Osmanlıların mənafeyinə toxunurdu. Rusların Orta Asiya, Krım və Anadolu arasındakı ticarət yolunu tutması və bu yolun Osmanlının nəzarətindən çıxması müharibənin başlamasına səbəb oldu. 1568-70-ci illərdə Sultan II Səlim ilə çar IV İvan arasında 1568 –cı ildə müharibə başlanır. Müharibə 1570-ci ildə rusların qələbəsi ilə sona çatır. Bir-birilərinə hücum etməmək barədə müqavilə imzalanır.

**II Rus-Osmanlı müharibəsi (1676-1681)**

Rusiyanın Osmanlının himayəsində olan Krım xanlığına məxsus Çehrin qalasını ələ keçirməsi 1676-ci ildə yeni müharibənin başlanmasına səbəb oldu. Buna cavab olaraq sədrəzəm Qara Mustafa Paşanın komandanlığında yürüşə çıxan türk ordusu 1678-ci ildə rusları məğlub edərək qalanı geri alır. Ruslar ikinci dəfə qalanı ələ keçirmək istəsələr də, buna müvəffəq olmurlar və nəticədə tərəflər arasında 31 yanvar 1681-ci ildə **Bağçasaray müqaviləsi** imzalanır. Müqaviləyə görə, Dnepr çayının sağ sahili və Çehrin qalası Osmanlının himayəsinə, Dneprin sol sahili isə Rusiyanın tabeçiliyinə keçir.

**III Rus-Osmanlı müharibəsi (1686-1700)**

Sayca üçüncü olan 1686-1700-cü illər müharibəsi Osmanlıya qarşı Avropa ölkələrinin birləşdiyi "Müqəddəs İttifaq"ın apardığı müharibənin (1683-1699-cu illər) tərkib hissəsini təşkil edir. Rusiya 1686-cı ildə bu ittifaqa qoşularaq 1687-89-cu illərdə Krıma, 1695-96-cı illərdə isə Türkiyyənin nəzarətində olan Azova hücum edir. Onlar Azov qalasını ələ keçirsələr də Krım hərbi əməliyyatında məğlub olurlar. İstanbul müqaviləsi (1700- ci il) ilə müharibə başa çatır. Müqaviləyə əsasən Azov qalası ruslara, Taqanroq qalası isə Osmanlıya verilir.

**IV Rus-Osmanlı müharibəsi (1710-1713)**

Rusya ilə İsveç arasında Poltava yaxınlığında baş verən döyüşdə məğlub olan İsveç kralının Osmanlı dövlətinə pənah aparması müharibənin başlamasına səbəb olmuşdur. Rus çarı I Pyotrun əmri ilə rus qoşunları İsveç kralını təqib edərək



türk ərazisinə daxil olması, sultan III Əhmədi Rusiyaya qarşı müharibə elan etməyə məcbur edir. 1711-ci ildə Baltacı Mehmet paşa Krım xanı ilə birlikdə 200 minlik ordu ilə Dunay çayını keçərək Prut döyüşündə ruslar darmadağın edir. Tərəflər arasında bağlanmış **Prut sazişinə** (1713-cü il) görə Azov qalası Osmanlılara geri verilir, Rusiya Osmanlıda daimi elçi saxlamaq hüququndan məhrum edilir. Daha sonra bağlanmış İstanbul müqaviləsinə (1724-cü ildə) əsasən rusların işğal etdiyi Xəzəryanı ərazilər (Dərbənd, Bakı, Salyan, Lənkəran, Rəşt və Ənzəli) Osmanlı tərəfindən təsdiqlənir, qalan bütün Azərbaycan torpaqları isə Osmanlıya verilir.

**V Rus-Avstriya ittifaqı - Osmanlı müharibəsi (1736-1739)**

Səfəvi-Osmanlı müharibələrindən və 1730-cu ildə Patron Xəlil üsyanınından istifadə edən ruslar 1736-cı ildə Krıma yürüş edir. Avstriya Rusiya ilə ittifaq yaradaraq Türkiyəyə qarşı müharibəyə başlayır. Bu müharibədə Osmanlılar qələbə qazanır. Avstriya ilə Osmanlı arasında imzalanmış **Belqrad müqaviləsinə** (1739-cu il) əsasən Serbiya, Belqrad Osmanlıya verilir. Rus gəmilərinin Azov və Qara dənizdə üzməsi qadağan edilir, lakin Rusiyanın İstanbulda səfirlik açmaq hüququ bərpa edilir və Azov qalası Rusiyada qalır.

**VI Rus-Osmanlı müharibəsi (1768-1774)**

Rus qoşunlarının 1768-ci ildə Osmanlı sərhədini keçərək Balta şəhərində soyqırım törətmələri yeni müharibənin başlamasına səbəb oldu. Hərbi əməliyyatlar Dunay, Krım və Cənubi Qafqaz istiqamətinə aparılırdı. Ruslar 1770-ci ildə Larqa və Kaqul çayları sahilindəki döyüşdə və Saqqız adası ilə Çeşmə burnu arasındakı dəniz vuruşmasında qalib gələrək İsmail, Akkerman, Bender qalalarını, Bessarabiya, Valaxiya və Moldovanı ələ keçirirlər. Avstriya Rusiyanın Balkanlarda güclənməsini istəmirdi. Rusiyada baş verən Puqaçov üsyanı və Avropa dövlətlərinin Rusiyaya təzyiqi onu danışıqlara başlamağa məcbur etdi. Bağlanmış **Kiçik Qaynarça** müqaviləsinə (21 iyul 1774-cü il) görə Buq və Dnepr çayları arasındakı ərazilər, Valaxiya, Moldova, Krımdakı Kerç, Yeniqala, Kubana qədər olan torpaqlar Rusiyanın nəzarətinə keçdi. Rus gəmilərinə ilk dəfə Qara dənizdə üzmək hüququ verildi və rus ticarət cəmiləri Bosfor və Dardanel boğazlarından

sərbəst keçmək hüququ qazandı. Müqaviləyə görə Osmanlı Rusiyaya 4,5 milyon rubl təzminat ödəməli idi. Krım müstəqil elan olunsa da sonradan, 1783-cü ildə ruslar tərəfindən işğal olunur.

### VII Rus-Osmanlı müharibəsi (1787-1791)

Rusların 1783-cü ildə Krımı işğal etməsi iki ölkə arasında ziddiyyətləri daha da kəskinləşdirdi və 1787-ci ildə yeni müharibəyə səbəb oldu. Avstriya bu dövrdə Rusiyanın müttəfiqinə çevrilmişdi. Çünki Rusiya Reç Pospolitanın birinci bölüşdürülməsinə razı olmuşdu. Osmanlı dövləti isə Prussiya, Hollandiya, İngiltərə, İsveç və Polşanın dəstəyinə ümid etsə də bu ümidlər özünü doğrultmadı. Osmanlı dövləti Rusiyaya yeddi tələbdən ibarət verdikləri ultimatuma cavab almadıqlarına görə 1787-ci ilin avqustunda müharibə elan etdi. Lakin bu müharibə Osmanlılar üçün uğursuz olur. Ruslar 1789-cu ildə Fokşan və Rımnik döyüşlərində qalib gələrək Akkerman qalası və Bessarabiyanı tuturlar. 1790-cı ildə Suvorovun komandanlığı altında olan rus ordusu İsmayıl qalasını ələ keçirir. Məşhur sərkərdə Kutuzov bu döyüşdə bir gözünü itirir. Müharibə **Yassı müqaviləsi** (1791-ci il) ilə başa çatır. Müqavilənin şərtlərinə görə Dnestr çayı iki dövlət arasında sərhəd elan olunur, Qara dəniz sahilində yerləşən Anapa qalası Osmanlıya verildi. Osmanlı dövləti isə Krımın Rusiyanın tabeçiliyində qalmasını təsdiqləyir. Cənubi Buq ilə Dnestr arasındakı torpaqlar, Dnestrin mənsəbindən Krımadək bütün Qara dəniz sahilləri ruslara verildi.

### VIII Rus-Osmanlı müharibəsi (1806-1812)

Fransada Napoleonun rəhbərliyi ilə güclü dövlətin meydana gəlməsi və Avropanı işğalına başlaması Rus-Osmanlı münasibətlərinin yaxşılaşmasına səbəb oldu. Lakin rusların Valaxiya və Moldovanı işğal etməsi münasibətləri yenidən kəskinləşdirdi. Rusların bu addımı və ingilislərin Misir və Suriyada fəallaşması Osmanlıları Fransa ilə yaxınlaşdırdı.1806-cı ildə başlanan müharibədə Osmanlılar Fransanın köməyi ilə Krımı geri qaytarmaq ümidləri özünü doğrultmadı. Napoleonun Rusiya qarşı apardığı müharibə Rus-Osmanlı müharibəsini başa çatmasına öz təsirini göstərdi. Müharibə **Buxarest** müqaviləsi ( 16 may 1812-ci



il) ilə başa çatdı. Müqaviləyə əsasən Prut və Dunay çaylarının sol sahili sərhəd elan olundu. Rusiya Qara dənizə qədər bütün cənubi Qafqazda möhkəmlənərək Bessarabiyanı, Suxumini işğalını rəsmiləşdirir. Valaxiya, Moldova, Anapa, Axalkalaki Osmanlıya qaytarıldı. Serbiyaya isə özünüidarəetmə hüququ verildi.

### IX Rus-Osmanlı müharibəsi (1828-1829)

Rusların Osmanlı dövlətindən Yunanıstana muxtariyyat verilməsi tələbini irəli sürməsi yeni müharibənin başlamasına səbəb oldu. Rusiya 1828-ci ilin aprelində Türkiyəyə müharibə elan etdi və ruslar Qars istiqamətində hücuma keçdilər. Onlar Qarsı, Ahalsıx, Ahalkələk, 1829-cu ildə Ərzurum və Trapezundu işğal etdilər. Rusların Balkan yarımadasında da bir sıra əraziləri işğal etməsi Türkiyəni müqavilə bağlamaq təklifi ilə çıxış etməyə məcbur etdi. Bağlanmış Ədirnə müqaviləsinə ( 1829-cu il) görə Türkiyə Rusiyanın Cənubi Qafqazdakı işğal siyasəti ilə barışdı və Kuban çayının mənsəbindən, Anapadan başlayaraq, Potiyə qədər Qara dənizin şərq sahillərini Rusiyaya güzəştə getdi.Rusiyaya ticarət gəmiləri Bosfor və Dardanel boğazlarından sərbəst keçmək hüququ qazandı. Yunanıstan və Serbiya muxtariyyət əldə edir.

### X Krım müharibəsi (1853-1856)

Krım müharibəsinin başlamasının səbəb 1853-cü ilin fevralın 1-də Rus çarı II Nikolay Osmanlı hökumətindən onun ərazisində olan bütün pravoslavların onun himayəsinə keçməsini tələb etməsi oldu. Bura Qüdsdəki, Fələstindəki və Anadolunun şərqində yaşayan xristianlar da daxil idi. Bu xristianlar üzərində Fransa da müəyyən himayə yurisdiksiyasına iddia etdiyində Rus çarının bu tələbi onun da mənafeyinə toxunurdu. İngiltərə və Fransaya arxalanan Osmanlının bu tələbi rədd etməsindən sonra tərəflər arasında tarixdə Krım müharibəsi ilə tanınan müharibə başladı. İngiltərə və Fransa Rusiyaya qarşi müharibəyə qoşuldu. Britaniya donanması uğurlu qaydada Baltik dənizinin və Qara dənizin çıxışında rusları blokadaya aldı. Fransız və Britaniya orduları Krım yarımadasında sahilə çıxdılar və bütün mühüm döyüşlər bu ərazidə getdi. Bu müharibədə ruslar məğlub oldular. Bağlanmış Paris müqaviləsinə (30 mart 1956-cı il) görə Qars Türkiyəyə

qaytarılır. Müttəfiqlər tərəfindən tutulmuş Sevastopol və digər şəhərlər Rusiyaya verilir. Rusiya pravoslavları himayə etmək tələbindən əl çəkərək Osmanlının bütövlüyünü və toxunulmazlığını təsdiqləyirdi. Dardanel boğazı və Qara dəniz bütün ölkələrin ticarət gəmiləri üçün açıq elan olundu. Rusiyanın sahil istehkamları sökülür, Rusiya və Türkiyəyə Qara dənizdə hərbi donanma saxlamaq qadağan edildi. Rusiya və Türkiyəyə qaçaqmalçılığa qarşı mübarizə məqsədilə 10 kiçik hərbi gəmidən ibarət hərbi dəniz qüvvəsi saxlamağa icazə verildi.

**XI Rus-Osmanlı müharibəsi (1877-1878-ci illər)**

Krım müharibəsində məğlubiyyətə uğramış Rusiya itirdiyi mövqeləri geri qaytarmaq üçün 11 ildən sonra yenidən Osmanlı dövlətinə qarşı müharibəyə başladı. Rusiya 1877-ci ildə müharibə elan edərək İstanbul yaxınlığında yerləşən San-Stefano şəhərini ələ keçirdilər. Bundan sonra Osmanlı dövləti San-Stefano müqaviləsini ( 9 mart 1878-ci il) bağlamağa məcbur oldu. Müqaviləyə görə Çernoqoriya, Serbiya, Rumıniya və Bolqarıstan Osmanlının tabeçiliyindən çıxdı, Qars vilayəti və Bessarabiya Rusiyaya verildi.

Yuxarıda qeyd olunan müharibələrdən sonra Rusiya ilə Osmanlı dövləti arasında müharibə I Dünya müharibəsi illərində baş vermişdi. 1914-cü ilin oktyabrında Osmanlının "Üçlər ittifaqı" (Almaniya, Avstriya və İtaliya) tərəfindən I dünya müharibəsinə qoşulmasından sonra Rusiya, İngiltərə və Fransa Osmanlıya müharibə elan edirlər. Bu müharibədə Osmanlı orduları bir neçə cəbhədə mübarizə aparırdı. Qafqaz cəbhəsidə onlar ruslara qarşı vuruşurdular. Ənvər paşanın rəhbərlik etdiyi Sarıqamış əməliyyatında (04 dekabr1914-18 yanvar 1915) ermənilərin xəyanəti nəticəsində Osmanlı ordusu məğlub oldu. 1916-cı ilin əvvəllərində ruslar Ərzurumu və Trabzonu işğal etdilər. Almaniya və onun müttəfiqləri ilə sovet Rusiyası arasında imzalanmış Brest-Litovsk müqaviləsinə (3 mart 1918-ci il) görə, Qars, Ərdəhan və Batum Osmanlıya qaytarıldı.

I Dünya müharibəsində Osmanlı dövlətinin daxil olduğu hərbi blok məğlub olduqdan sonra Lemnos adasının Mudros limanında bağlanmış sazişi (30 oktyabr 1918-ci il ) Osmanlı imperiyasının tarix səhnəsindən silinməsinin əsasını qoyur.

XIX əsrin-sonu XX əsrin əvvəllərində Osmanlı dövlətinin sosial-iqtisadi vəziyyəti kifayət qədər ağır idi. Osmanlı dövləti 4 Avqust 1854-cü il tarixindən



etibarən qərb ölkələrindən borc almaqla iqtisadi cəhətdən asılı vəziyyətə düşürdü. Ölkədəki bu durum əhali arasında narazılığa səbəb olurdu ki, bu da "Yeni Osmanlılar" və ya "Gənc Türklər" adlı hərəkatın yaranmasına səbəb oldu. Avropada təhsilli gənclərdən ibarət olan bu hərəkat II Əbdül Həmidin 1878-ci ildə Məclisi Məbusani bağladıqdan sonra onlar təşkilatlanmağa başladılar. Sultan II Əbdülhəmidə müxalifət olaraq yaranan gənc türklərin ilk təşkilatının adı "ittihad-ı Osmaniye Cəmiyyəti" olmuşdu. İstanbulda gizli tipoqrafiya yaradılmışdı ki, burada inqilabi əhval ruhiyyəli vərəqələr çap edilərək əhali arasında yayılırdı. Onlar fransız dilində "Məşvərət", türk dilində isə "Milli Yığıncaq", xaricdə"Tərəzi", "İstiqbal" qəzetlərini nəşr edirdi. Təşkilat üzvlərinin 1897-ci ildə Sultan sarayı qarşısında keçirdikləri etiraz aksiyasının qarşısı amansızlıqla alındı. Təşkilat üzvlərindən 13 nəfər ölümə, 70 nəfər isə katorqa işlərinə məhkum edildi. 1907-ci idə bir neçə təşkilat "Osmanlı Tərəqqi və İttihat Cəmiyyəti" adı altında birləşdilər.

1908-ci ilin əvvəllərində gənc türklər təşkilatı bolqar, yunan, və alban inqilabçıları ilə əlaqələr yaradırdılar. Bundan başqa onlar ordu içərisində də hökümət əleyhinə təbliğat aparırdı ki, bu da Osmanlı dövlətinin zəiflətməyə çalışan və Türkiyə ilə müharibə vəziyyətində olan Avropa dövlətlərinin xeyrinə idi. Formaca gənc türklər Osmanlı imperiyasında demokratikləşmə tərəfdarı olsalar da onların Osmanlı dövlətinin ordusunda pozucu təbliğatın aparılması milli və dövlət maraqlarına zərbə vururdu. Bu proseslər də Osmanlı imperiyasının zəifləyib, sonradan dağılmasında müəyyən rol oynamışdır.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Aslanov R.B. "1877-1878-ci illər Rus Osmanlı müharibəsi və Kipr məsələsinin meydana gəlməsi". (Şərqşünaslığın aktual problemləri.Bakı 2003
2. Mehdiyeva N.C. Türk xalqlarının tarixi. Yeni dövr (XIX-XX əsrin əvvəlləri). Ali məktəblər üçün dərslik. B., Adiloğlu, 2003.
3. Ağayev İ.Q. Azərbaycan Xalq Cümhuriyyeti Türkiyə tarixşünaslığında/ Azərbaycan Xalq Cümhuriyyətinin aktual problemləri. Beynəlxalq elmi sessiya.-Bakı,2003.
4. Muxtarova Ə.İ. Türk xalqlarının tarixi (qədim dövrlərdən müasir

dövrə qədər). Tarix fakültəsində tədris edilmək üçün Vahid proqram (həmmüəllif). Bakı, 2004.
5. Muxtarova Ə.İ. Türk xalqlarının dövlətçilik tarixi. Təhsilin magistratura pilləsi üçün proqram.B., 2002
6. Ибрагимбейли Х.М. Кавказ в Крымской войне 1853-1856 гг. и международные отношения. М., 1971
7. Тарле Э. В. Крымская война. Соч., т. VIII-IX. М.,1959.

**X mövzu:** Türkiyə Cümhuriyyətinin yaranması və inkişafı

1. Türkiyə milli azadlıq hərəkatı və onun nəticələri
2. Türkiyə Cümhuriyyətinin yaranması və inkişafı
3. Türkiyə Cümhuriyyətinin siyasi sistemi

Bu mövzunu öyrənmək üçün ilk növbədə I dünya müharibəsinin sonunda Osmanlı imperiyasının vəziyyətinə diqqət vermək lazımdır. I Dünya müharibəsi (1914-1918) gedişində aldığı ağır məğlubiyyətlər nəticəsində Osmanlı imperiyası nəinki bütün müstəmləkələrindən məhrum olmuş, hətta özünün tarixi ərazisini, indiki Türkiyənin böyük hissəsini də itirmək təhlükəsi ilə üzləşmişdi. Belə ağır şəraitdə general Mustafa Kamal Osmanlı ordusundakı vətənpərvər zabitlərlə birliklə Türkiyənin qurtuluşu uğrunda savaşa başladı. 1919-cu il mayın 19-da Qara dəniz sahilindəki Samsun şəhərindən başlanan mücadilə üç il davam etdi. 1919-cu il dekabrında Ankaraya gələn Mustafa Kamal bu şəhəri Türkiyə dövlətçiliyi uğrunda mübarizənin mərkəzi elan etdi. Çünki İstanbuldakı Osmanlı (sultan) hökuməti ölkəyə nəzarəti itirmişdi. Mustafa Kamal 1920-ci il aprelin 23-də Ankarada Türkiyə Böyük Millət Məclisinin (TBMM) çağırılmasına nail oldu, ölkənin suveren idarəçiliyi xalqın iradəsini təmsil edən parlamentə verildi. 1920-ci ilin avqustunda Osmanlı hökuməti I Dünya müharibəsinin qalibləri (ABŞ, Britaniya, Fransa) tərəfindən təslimçi sülhə - Sevr anlaşmasını imzalamağa məcbur edildi. Sazişə görə, Osmanlı 1914-cü ilə qədərki ərazilərinin dörddə üçünü itirir, ordu və donanmasının müttəfiq ölkələr tərəfindən bölüşdürülməsinə razılıq verirdi. ABŞ-ın o vaxtkı prezidenti Vudro Vilsonun xüsusi səyi ilə imzalanan sazişdə Türkiyənin şimal-şərq vilayətlərinin (Qars, Ərdəhan, Ərzurum və s.) daşnak Ermənistanına



verilməsi barədə müddəa da vardı. Anlaşma türk xalqının böyük etirazını doğurdu, Mustafa Kamal Türkiyənin heç vaxt bu təslimçilik aktına razı olmayacağını bildirdi və TBMM Sevr sazişini rədd etdi. Əvəzində Mustafa Kamalın başçılıq etdiyi Qurtuluş savaşı daha da genişləndi. 1921-ci ilin yanvarından başlayaraq qələbələr əldə edən türk ordusu həmin il avqust-sentyabrda Sakarya savaşından zəfərlə çıxdı. 1922-ci ilin avqustunda Mustafa Kamalın komandanlığı altında həyata keçirilən «Böyük Taarruz» («Böyük Hücum») əməliyyatı ilə Türkiyənin yunan ordusunun işğalı altında olan cənub-qərbi azad edildi. 1922-ci il 30 avqust zəfəri ilə yeni Türkiyə dövlətinin quruluşun da təməli qoyuldu. Bu qələbədən sonra Türkiyənin Sevr anlaşmasının ləğv edilməsi üçün Lozannada yeni beynəlxalq konfransın çağırılmasına nail oldu. 1922-ci il noyabrın 1-də isə TBMM Osmanlı səltənətinə son qoymaq barədə qərarı verdi. 1 aprel 1923-cü ildə TBMM-ə seçki keçirilməsi qərarı qəbul edilib və yeni qurulan Məclis Lozanna sülh sazişini təsdiqləyib. 1923-cü ilin iyulunda Lozanna konfransının yekun sənədi Sevr müqaviləsini ləğv etdi və Türkiyənin ərazisini indiki sərhədlər çərçivəsində (780,6 min kv. km) təsbitlədi. 1923-cü il oktyabrın 2-də Mustafa Kamal paşanın komandanlıq etdiyi türk ordusu sonuncu işğalçı qoşunları - ingilis hərbi gəmilərini İstanbul ətrafından vurub çıxardılar. Türk ordusunun İstanbula girməsi ilə qurtuluş savaşı faktiki başa çatıb və yeni siyasi dövr başlayıb. 1923-cü il oktyabrın 29-da Mustafa Kamal TBMM-də çıxış edərək Türkiyə Cümhuriyyətinin yarandığını elan etdi. Parlament Mustafa Kamalı ölkənin ilk prezidenti seçdi, ilk hökumətin qurulması isə ordu komandanlarından İsmət İnönüyə tapşırıldı. 1924-cü ilin aprelində cümhuriyyətin ilk Konstitusiyası - Anayasa qəbul olundu, Osmanlı dönəminə rəsmən nöqtə (sonuncu Osmanlı sultanı Vəhdəddin ailəsi ilə Türkiyəni 1922-ci ildə tərk etmişdi) qoyuldu. Cümhuriyyətin ilk illəri Türkiyə tarixinin çətin dövrü idi. Yeni dövlət quruluşunu (respublika, dünyəvilik) qəbul etmək istəməyən irticaçı (dinçi) qüvvələr ölkənin müxtəlif yerlərində təxribat və iğtişaşlar törədirdilər. Xarici qüvvələrin (Osmanlıdan sonra İraqı ələ keçirmiş ingilislərin) təhriki ilə Türkiyənin cənub-şərq bölgələrində kürd qiyamları və ilk separatçı çıxışlar da bu dövrə təsadüf edir. Bununla belə, Mustafa Kamal ölkənin bölünməzliyini və möhkəmlənməsini təmin etdi. 1932-ci ildə TBMM-in qərarı ilə Mustafa Kamala Atatürk adı verildi. 1927, 1931 və 1935-ci illərdə daha üç dəfə prezident seçilən Atatürk 1938-ci il noyabrın 10-da vəfat etdi. Atatürkün vəfatından sonra prezident postuna baş nazir

İsmət İnönü keçdi. İnönü də prezident vəzifəsinə dörd dəfə (1938, 1939, 1943, 1946) seçilmiş və hər dəfə deputatların yekdil dəstəyini qazanmışdı. Hərçənd 1950-ci ilədək Türkiyədə bir partiyanın - Atatürkün qurduğu Cümhuriyyət Xalq Partiyasının (CHP) hakimiyyətdə olmuşdur.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Nəzərli S. Müdrik Atatürk: gerçək hekayətlər - B.: Nurlan, 2006.- 108 s.
2. Həsənov H. Türkiyənin Azərbaycanın müstəqilliyini tanıması tarixindən: Mətbuat xəbərləri - B.: Pedaqogika, 2005.- 72 s.
3. Muxtarova Ə.İ. Türk xalqlarının tarixi (qədim dövrlərdən müasir dövrə qədər). Tarix fakültəsində tədris edilmək üçün Vahid proqram (həmmüəllif). Bakı, 2004.
4. Muxtarova Ə.İ. Türk xalqlarının dövlətçilik tarixi. Təhsilin magistratura pilləsi üçün proqram.B., 2002


**XI mövzu:** Türkiyə əhalisinin milli və dini tərkibi

1. Türkiyə əhalisinin etnik tərkibi
2. Türkiyə ərazisiində mövcud olan dini baxışlar
3. Türkiyədə mövcud olan milli və dini toleyrantlıq

Bu mövzunu öyrənmək üçün Türkiyyə Cümhuriyyəti əhalisnin milli və dini tərkibi əvvəlki illərlə müqayisəli şəkildə təhlil edilməlidir. 31 dekabr 2013-cü il tarixinə olan məlumata görə Türkiyə Cümhuriyyəti əhalisi 77 695 904 nəfərdir . APA-nın məlumatına görə ( 06 İyun 2008) Türkiyə Milli Təhlükəsizlik Şurasının təlimatı ilə bir qrup alim ölkədəki etnik qruplarla bağlı raport hazırlayıb.APA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Ərciyəz, Elazığ, Malatya və Fırat universitetlərinin müəllimləri tərəfindən hazırlanan raportda ölkə əhalisinin etnik tərkibi və hansı kökdən gəldiyinə dair dəqiqləşdirmələr aparılıb.

**Türklər.** Sənəddə bildirilir ki, türkmən, azəri, tatar, tərəkəmə, qaraçay, yörük, taxtaçı və digər türk soylarından gələn qruplar türkləri təşkil edir və sayları təxminən 50 milyondur. Türkləşmə mərhələsində olan digər etnik



qrupların nümayəndələri də daxil edildikdə, bu say 55 milyona yüksəlir.

**Kürdlər.** Türkiyədə ikinci böyük etnik qrup isə kürdlərdir. Sayı 3 milyon olan bu qrupa zazalar da əlavə olunduqda kürdlərin sayı 12 milyon 600 mini ötür. Ancaq kürdlərin təxminən 2,5 milyonu ciddi şəkildə türkləşməkdədir və bəzi yerlərdə özünü kürd saymayanlara da rast gəlinir. Çərkəzlər. Türkiyənin müxtəlif yerlərində yaşayan çərkəzlərin sayı təxminən 2,5 milyon nəfərdir. Ancaq onların 80%-i öz dilini unudub.

**Gürcülər.** Türkiyədəki gürcü mənşəli insanlar əsasən Ordu, Artvin, Samsun rayonları və Mərmərə bölgəsində məskunlaşıb. Onların əksəriyyəti gürcü dilini bilmir. Ancaq Gürcüstanın müstəqillik qazanmasından sonra bu insanlarda gürcülüyə meyl artıb.

**Bosniyalılar.** Adabazarı, İzmir və Manisa şəhərlərində məskunlaşmış bosniyalıların sayı təxminən 2 milyondur.

**Albanlar.** Türkiyədə albanların sayı 1 milyon 300 mini ötüb. Ancaq onların yarıdan çoxu türkləşib və ana dilini unudub.

**Ərəblər.** Türkiyədəki ərəblər əsasən Siirt, Mardin, Şırnak, Diyarbəkir, Şanlıurfa, Hatay, Adana və İstanbulda məskunlaşıb. Saylarının 870 min nəfər olduğu güman edilir.

**Pomaklar.** Bəzilərinə görə türk, bəzilərinə görə isə slavyan irqindən olan pomakların sayı təxminən 600 min nəfərdir və tamamilə türkləşiblər.

**Lazlar.** Türkiyənin Qara dəniz rayonlarının əksəriyyətinin əhalisi laz sayılsa da, bu, yanlışdır. Lazlar əsasən Rizə və Artvinin bir neçə kəndində yaşayır və sayları 80 min civarındadır.

**Digər etnik qruplar.** Türkiyədə yaşayan digər etnik qrupların sayı 1 milyondan çoxdur. Onların arasında ən böyüyü qaraçılardır. Qaraçıların 700 min nəfər olduğu güman edilir. Bundan başqa, Türkiyədə 60 min erməni, 20 min yəhudi, 15 min yunan, 13 min həmşin və az sayda süryani var. Qeyd edək ki, 70 milyondan çox olan Türkiyə əhalisinin 85%-i sünni müsəlmandır. Bir hissəsi Güney Azərbaycan mənşəli olan ələvilərin (şiəliyin daha müasir qolu) sayı isə təxminən 11 milyon nəfərdir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Nəzərli S. Müdrik Atatürk: gerçək hekayətlər - B.: Nurlan, 2006.- 108 s.
2. İsmayılov R., Axundova N.Asiya və Afrika Ölkələrinin Tarixi (1945-2000-ci illər) Birinci kitab (Uzaq, Cənub-Şərqi, Cənubi və Mərkəzi Asiya ölkələri) Bakı – 2000
3. Muxtarova Ə.İ. Türk xalqlarının tarixi (qədim dövrlərdən müasir dövrə qədər). Tarix fakültəsində tədris edilmək üçün Vahid proqram (həmmüəllif). Bakı, 2004.
4. Muxtarova Ə.İ. Türk xalqlarının dövlətçilik tarixi. Təhsilin magistratura pilləsi üçün proqram.B., 2002

**XII mövzu:** Müasir dövrdə Türkiyənin daxili və xarici siyasəti

1. Müasir dövrdə Türkiyədə mövcud olan ictimai-iqtisadi və siyasi vəziyyət
2. Türiyənin xarici siyasətinin əsas istiqamətləri
3. Türkiyə-Azərbaycan münasibətləri

Bu mövzunu öyrənmək üçün II Dünya müharibəsindən sonra başlayaraq bu günə qədər tarixi mərhələ mərhələ diqqətdən keçirilməlidir. Tədrici inkişaf yolu keçən Türkiyə 1940-cı illərin sonu yeni siyasi dönəmə - real çoxpartiyalı sistemə qədəm qoydu. 1950-ci il parlament seçkilərində hakimiyyətə Adnan Menderesin rəhbərlik etdiyi Demokrat Partiyası gəldi.

Menderesin baş nazir olduğu 10 ildə Türkiyə sürətli iqtisadi inkişaf və islahatlar dövrünə qədəm qoymuş, geniş özəlləşmə başlamış, Türkiyənin beynəlxalq nüfuzu (1952-ci ildə NATO-ya daxil oldu) güclənmişdi. Bununla yanaşı, ölkədə islahatçı hökumətə güclü müxalifət (o cümlədən ordu sıralarında) də vardı, hökumət ölkənin sərvətini xarici biznesə satmaqda, cümhuriyyət dəyərlərinə sayqısızlıqda, dini istismar etməkdə ittiham olunurdu. Nəticədə 1960-cı ilin 27 may hərbi çevrilişi baş verdi, baş nazir Menderes, prezident Cəlal Bayar (1950-1960) başda olmaqla bütün hökumət və siyasi rəhbərlik (200-dən çox şəxs) həbs olundu. Hərbi tribunalın qərarı ilə baş nazir Menderes və daha iki nazir korrupsiya ittihamı ilə edam edildi.

1961-ci ildə yeni Konstitusiya qəbul edildi, hərbi çevrilişin rəhbərlərindən



olmuş Quru Qoşunları komandanı Camal Gursel Türkiyənin 4-cü prezidenti seçildi. Ondan sonra daha bir general, Baş Qərargah rəisi Cövdət Sunay 5-ci prezident (1966-1973) oldu.

Türkiyənin növbəti prezidenti də keçmiş hərbi rütbəli şəxs - istefada olan admiral Fəxri Korutürk (1973-1980) oldu. 60-70-ci illər Türkiyədə daxili siyasi çaxnaşmalar, dinçi, solçu və millətçi qüvvələrin toqquşmaları ilə zəngin oldu. 1974-cü ildə Kipr türklərinə qarşı qırğınlara son qoymaq üçün adaya qoşun yeridən Türkiyə nəticədə beynəlxalq müstəvidə ciddi təzyiqlərlə üzləşdi.

1980-ci il Türkiyədə növbəti daxili böhran yarandı. Parlamentdə yeni prezidenti seçmək mümkün olmadı. Dərinləşən siyasi və iqtisadi böhran, sağçı-solçu mübarizəsinin küçələrdə silahlı toqquşmalarla müşayiət olunması ölkəni növbəti hərbi çevrilişə səbəb oldu.

1980-ci il 12 sentyabr çevrilişindən sonra hakimiyyət Baş Qərargah rəisi Kənan Evrenin rəhbərliyi altında Milli Təhlükəsizlik Şurasına keçdi. Ölkə iki il hərbi rejim tərəfindən idarə olundu, Türkiyənin Avropa Şurasında üzvlüyü donduruldu. 1982-ci ildə generalitet yeni Konstitusiyanın qəbuluna və dövlət idarəçiliyini mülki hökumətə verməyə razılıq verdi. Konstitusiyanın qəbulu ilə general Evren ölkənin yeni prezidenti oldu.

1983-cü ildə keçirilən parlament seçkilərində Turqut Özalın rəhbərlik etdiyi "Ana Vətən" partiyası qalib gəldi və o, Türkiyənin baş naziri oldu, 1989-cu ildə isə prezidenti seçildi. 1991-ci il parlament seçkilərində Süleyman Dəmirəlin başçılıq etdiyi "Doğru Yol" partiyası qələbə çaldı və o, ölkənin yeni baş naziri, 1993-cü ildə Özalın vəfatından sonra ölkənin yeni prezidenti oldu.

1995-ci il seçkilərində dini təmayüllü "Rifah" partiyası qalib gəlsə də, onun lideri Həcməddin Ərbakanın baş nazirliyi ilyarım çəkdi və 1997-ci ilin yayında o, generalitetin təzyiqi ilə istefa verməli oldu. Bu arada Türkiyə müxtəlif koalisyon hökumətlərlə idarə olunurdu.

1999-cu il seçkilərindən sonra Büİənd Ecevitin başçılıq etdiyi Demokratik Sol Partiya, Dövlət Baxçalının rəhbərlik etdiyi Milliyətçi Hərəkat Partiyası və ANAP nisbətən uzunmüddətli koalisiya qurdu. 2000-ci ildə koalisiyanın dəstəyi ilə Konstitusiya Məhkəməsinin sədri Əhməd Necdət Sezər ölkənin 10-cu prezident seçildi.

2002-ci ildə ölkədə dərinləşən iqtisadi böhran fonunda hökumət koalisiyası

dağıldı və Rəcəb Tayyib Ərdoğanın Ədalət və İnkişaf Partiyası inamlı qələbə çalaraq təkbaşına iqtidara gəldi. 2007-ci ilin iyul seçkilərində AKP yenidən təkbaşına iqtidar oldu. AKP-nin hakimiyyətdə olduğu 7 il Türkiyədə geniş islahatlar və iqtisadi inkişafla yanaşı, siyasi böhranlarla da müşayət olunub.

2007-ci ildə Abdullah Gülün prezident seçilməsi üstündə başlanan gərginlik 2008-ci ildə Konstitusiya Məhkəməsində AKP-yə qarşı qapatma davası ilə davam etdi. Bununla belə, hakim partiya həm özünü, həm də Türkiyəni bu sarsıntılardan çıxarmağı bacardı. Növbəti parlament seçkilərində qalib gələn AKP baş nazir Əhməd Davudoğlunun rəhbərliyi ilə yeni hökümət təşkil etdi. Rəcəb Tayyib Ərdoğan isə Prezident seçildi.

Müasir Türkiyə Cümhuriyyətinin daxili və xarici siyasətinin ana xəttini Türkiyənin milli, regional və qlobal gücə çevrilməsi, dünya birliyində layiq olduğu yerə sahib olması, öz mövcud potensialından ən faydalı şəkildə istifadə edə bilməsi təşkil edir.

Türkiyə uzun illər ixtilafda olduğu iki ölkə - İran və Rusiya ilə bir çox sahələrdə, xüsusilə, enerji sahəsində cəsarətlə əməkdaşlıq etməyə başlayıb. Türkiyənin bütün bunları həyata keçirərkən ABŞ-la münasibətlərini korlamaması olduqca əhəmiyyətli bir məsələdir. Türkiyə, "soyuq müharibə" dövründə və 1990-cı illərdə olduğu kimi, Qərbin və NATO-nun bir əlavəsi deyil. Türkiyə müstəqil siyasət yeridə bilən önəmli güclərdən biridir. Türkiyənin başladığı Qafqazda sülh və sabitlik platforması da bunu sübut edir

"Güclü Ordu-Güclü Türkiyə" devizini hər zaman əsas tutan, NATO-da ABŞ-dan sonra II, dünyada isə IV ən güclü döyüş qabiliyyətinə, silahlı qüvvələrə malik orduya sahib Türkiyə kosmosa yeni ən müasir aparat, cihazlarla təmin olunmuş, həm də öz istehsalı olan milli peykini çıxarmışdır. ABŞ-dan 7,8 milyard dollar dəyərində 13 "Patriot" raketdən müdafiə qurğusunun alınması ilə özünün hərbi gücünü qat-qat artırmış olan Türkiyə regionun ən güclü ordusuna sahib olduğunu bir daha sübut etmişdir.

Orta Asiya, Qafqaz və Yaxın Şərq qazının Türkiyə üzərindən Avropaya qovuşduracaq "Nabukko" Mavi Yanacaq layihəsi, Rusiya, Türkiyə və İtaliya Baş nazirlərinin imzaladığı "Cənub axını" qaz kəməri və Samsun-Ceyhan neft kəmərinin tikintisiilə bağlı saziş Türkiyənin güclü dövlət kimi regionda mövqeyini artırır.



Türkiyənin AB-yə üzvlüyü ilə bağlı müzakirələri 1,5 milyardlıq dünya müsəlmanları da yaxından izləməkdədir. Türkiyə Hindistan və Çin də daxil, bütün Şərq dünyasının mədəni irs və düşüncəsini Avropaya daşıyan tək ölkədir. Türkiyyənin hədəfi yaxın 10 ildə Türkiyə iqtisadiyyatını dünya 17-cisindən dünya 10-cusuna çevirməkdir.

Türkiyənin AB-yə qovuşması Yaxın Şərq, Rusiya Federasiyası, Qafqaz və Orta Asiyada da demokratiya və insan haqlarının daha da inkişaf etməsinə yardım göstərəcək amil olacaq.

**Azərbaycan - Türkiyə münasibətləri**

Qısa tarixi məlumat:

9 noyabr, 1991-ci ildə Türkiyə Azərbaycanın müstəqilliyini tanımış və 1992-ci ilin yanvarın 14-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətdir. Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi 1992-ci ilin avqust ayından fəaliyyətə başlamış, 1993-cü ildə AR-in İstanbulda Baş Konsulluğu, 2004-cü ildə isə AR-in Qarsda Baş Konsulluğu açılmışdır. Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi və Naxçıvan şəhərindəki Baş Konsulluğu 1992-ci ilin yanvar ayında yaradılmışdır. Azərbaycan ilə Türkiyə arasında 2013-cü ilin yanvar-iyul ayları arasındakı ticarət həcmi 1 milyard 171 milyon 624 min ABŞ dollarına bərabər olmuşdur. Eyni dövrdə Türkiyədən ölkəmizə idxalın həcmi 852 milyon 999 min dollar, ölkəmizdən Türkiyəyə ixracın həcmi isə 318 milyon 624 min dollar təşkil etmişdir. Azərbaycan Respublikası ilə Türkiyə arasında 180-ə yaxın sənəd imzalanmışdır. (http://www.azembassy.org.tr)

**İstifadə olunmuş ədəbiyyat:**


1. Aslanov R.B. "Avropada siyasi böhran və Türkiyə"1939-cu il-Şərqin aktual problemləri,tarix və müasirlik.Bakı 2003
2. Aslanov R.B. "XX əsrin 80-90-cı illərində Türkiyənin xarici siyasəti". (Çagdaş dövrün aktual problemləri.Bakı 2003
3. İsmayılov R., Asiya və Afrika ölkələrinin çağdaş tarixi (İran,Türkiyə,İsrail,Ərəb ölkələri),(həmmüəllif).Bakı,2006,2008

4. Hacıyev S. T. Ən yeni dövrdə Asiya və Afrika ölkələrində regional münaqişələr. Bakı, 2007
5. Hacıyev S. T. I Dünya müharibəsindən sonra Asiya və Afrika ölkələrində milli azadlıq hərəkatı. Bakı, 2007
6. Hacıyev S. T. Türkiyə tarixşünaslığında PKK probleminin incələnməsi üzərinə. Tarix türk qurumu. Ankara, 2007
7. Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində XX əsrin 90-cı illəri- B.: Adiloğlu, 2005.- 212 s.
8. Sadıqoğlu A. "Azərbaycan-Türkiyə: dostluq və qardaşlıq əlaqələri"Bakı 2013.

**XIII mövzu:** Rusiyada dövlətin formalaşması və onun inkişaf mərhələləri

1. Rusiyada dövlətin formalaşmasına aid mövcud olan nəzəriyyələr
2. Kiyev Rus dövlətinin yaranması
3. Mərkəzıəşmiş rus dövlətinin yaranması
4. Rusiyanın imperiyaya çevrilməsi

Bu mövzunu öyrənmək üçün ilk növbədə norman və antinorman nəzəriyyələri haqqında məlumatlı olmaq lazımdır. Norman nəzəriyyəsinə görə rus xalqının mənşəyi Skandinaviyadan gəlmiş və qərbi Avropalıların norman adlandırdıqları vikinqlər və ya varyaqlarla bağlıdır. Rus xalqı da Skandinaviya xalqları olan İsveç, Norveç xalqları ilə eyni mənşəlidir. Bu nəzəriyyənin tərəfdarları normanları şərqi slavyanların ilk dövlətləri olan, Novqorod, daha sonra isə Kiyev Rus dövlətlərinin yaradıcısı hesab edirlər. Onlar qədim səlnamələrə istinad edərək göstərirlər ki, 862-ci ildə şərqi slavyanlar (kriviç və ilmen slovenləri) ilə fin-uqor ( ves və çud) tayfalari arasında münaqişələr başa çatdıqdan sonra voryaq-ruslara knyaz taxtını tutmağı təklif etdilər. Səlnamələrdə ilk dəfə 944-cü il müqaviləsində slavyan adlarına rast gəlinir. Buna qədər isə ancaq rus-varyaqların adları qeyd olunurdu. Səlnamələrdə 912-ci ildə Ryurik(Rorik), Oleq (Helgi), İqor (Ingwar), Olqa (Xelqa) və s. adlarının norman adları olduğu qeyd edilir. Bu nəzəriyyəni ilk dəfə kral III Yuxan İvan Qroznı ilə yazışmalarda irəli sürmüşdü. Onun fikirlərini 1615-ci ildə İsveç diplomatı Pyotr Peter de Erlezund, 1671-ci ildə



tarixçi Yuxan Videkind, XVIII əsrin I yarısında alman tarixçisi Ziqfrid Bayer və digərləri inkişaf etdirmişlər.

Rus və sovet tarixşünaslığı norman nəzəriyyəsinin əksinə antinorman nəzəriyyəsini qoyur ki, bu konsepsiya da çar Rusiyasında, keçmiş SSRİ-də mövcud olmuş, hazırda da Rusiya və postsovet ölkələrində mövcuddur. Antinorman nəzəriyyəsini tərəfdarı kimi rus alimi M.V. Lomonosov, daha sonra isə sovet tarixçiləri çıxış etmişlər. Müasir dövrdə bu nəzəriyyənin tərəfdarları ilə əleyhidarları arasında elmi mübahisələr davam edir.

**Rusiya dövləti**

862-ci ildən etibarən dövlətçiliyi mövcuddur. "Rusiya" adını rəsmi dövlət adı kimi ilk dəfə I Pyotr 1721-ci ildə ölkəni Rusiya İmperiyası adlandıranda istifadə etmişdir. Rusiya Federasiyası adını 25 dekabr 1991-ci ildə almışdır. Slavyanlar Volqa və Oka çayları arasındakı ərazilərə hələ VIII-IX əsrlərdə gəlmişdilər. Onlar Volqa çayı ilə Rus düzənliyinin yuxarı və aşağı hissələrinə hərəkət edirdilər. Baltik dənizindən Volqa və Dnepr çay hövzələrinə gedən çay yollarında ən qədim rus şəhərləri Novqorod, Pskov, Smolensk salınmışdır. IX-XII əsrlərdə qədim rus tayfaları Vyatka, Kama, Şimali Dvina, Peçora çay hövzələrinə irəliləmişdilər. Bu dövrdə qədim rus şəhərlərinin, Moskvanın, Vladimir, Suzdal, Ryazan, Tver, Yaroslavl, Voloqdanın əsası qoyulmuşdur. Rusiya Federasiyasının dövlət-ərazi inkişafı qədim rus dövləti olan Kiyev Rus dövlətindən başlamışdır. Bu dövlətin tərkibinə müasir Rusiyanın şimal-qərb və mərkəz torpaqları daxil idi.

**Rusiya orta əsrlərdə**

Kiyev dövlətinin parçalanması. XI əsrin axırları-XII əsrin əvvəllərində Kiyev dövləti geniş əraziyə malik olsa da, möhkəm əsaslı deyildi. Onun tərkibinə qatılmış tayfalar öz xüsusiyyətlərini qoruyub saxlamışdılar. Natural təsərrüfatın hökm sürdüyü ayrı-ayrı bölgələr arasında iqtisadi əlaqələr olduqca zəif idi. Bununla yanaşı dövlətin əhəmiyyətli dərəcədə müdafiə sistemi yaradılmışdı. Belə bir şəraitdə XI-XIII əsrlərdə Kiyev dövləti üçün yeni xüsusiyyətlər meydana çıxdı. Ayrı-ayrı bölgələrdə-Novqorod, Polotsk, Smolensk, Suzdal və Rostov

torpaqlarında feodal aristokratiyası inkişaf edir və güclənirdi. Bütün torpaqlar feodalların əlinə keçmişdi. Kəndlilərin əlindən bütün torpaqlar çıxdığına görə torpaqsızlaşaraq, feodallardan asılı vəziyyətə düşmüşdülər. Müxtəlif bölgələrdə çox böyük torpağa sahib olan knyazlar meydana gəlirdi. XI əsrdə Kiyev dövlətində də təsərrüfat natural xarakter daşıdığından ayrı-ayrı bölgələr arasında əlaqələr çox zəif idi. Bu da feodal dağınıqlığının ilkin şərtlərindən biri idi. Kiyev dövlətində də şəhərlərin meydana gəlməsi prosesi başlandı. Şəhərlər feodal torpağında salınırdı və feodalın hakimiyyəti altında olurdu. Şəhərlərdə sənətkarlıq və ticarət inkişaf edərək vilayətlərin iqtisadi və siyasi mərkəzlərinə çevrilirdilər. Şəhərlərin ətrafında olan torpaqlar boyarlara, feodallara və kilsəyə məxsus idi. Şəhərlərin ərazisi böyüdükcə, əhalisinin sayı artdıqca onlar mərkəzi hakimiyyətə tabe olmaq istəmirdilər. Yerlərdə olan iri feodallar da mərkəzi hakimiyyətin yox, öz knyazlarının ətrafında birləşirdilər. Bununla da Kiyevdən çox uzaqlarda yerləşən şəhərlərdə feodallar öz knyazlıqlarını yaradırdılar.

Mərkəzi hakimiyyəti tanımaqdan imtina edən və əlaqələri açıqdan-açığa kəsən ilk knyazlıqlardan biri Novqorod torpağı idi. Artıq XI əsrdə Novqorod şəhəri yüksək inkişaf etmiş sənətkarlığa, çoxşaxəli ticarət əlaqələrinə, zəngin adamlara malik Avropa şəhərlərindən birinə çevrilmişdi. O dövr mənbələrində «üç dəniz limanı» adlandırılan şəhər bir neçə əsas ticarət yolunun ayrıcında yerləşmişdi ki, bu da ona müxtəlif ölkələrlə geniş ticarət əlaqələri saxlamağa imkan yaradırdı. Əkinçilik Novqorod iqtisadiyyatının əsasını təşkil edirdi. Əkinçiliklə yanaşı, maldarlıq, ovçulduq və arıçılıq da məşğuliyyət növləri idi. Şəhərdə sənət və ticarət çiçəklənməkdə idi. Novqorod dəmrçiləri, dülgərləri, silah ustaları, çəkməçiləri ilə məşhur idi.

Dövlət qüuruluşuna görə Novqorod boyar respublikası idi. Veçe (şərq slavyanlarında xalq yığıncağı; müharibə və sülh məsələlərini həll edir, knyazı seçir, yaxud hakimiyyətdən qovur, qanunlar qəbul edir, digər knyazlıqlarla müqavilə bağlayırdı) adlandırılan xalq yığıncağı ali qanunverici və məhkəmə hakimiyyətini həyata keçirirdi. Veçe şəhərin hakimi olan posadniki, minbaşını, «Ağsaqqallar şurası»ni və knyazı seçirdi. Başında arxiyepiskopun dayanığı «Ağsaqqalar şurası» Novqorodun siyasi həyatında mühüm rol oynayırdı. Kiyev dövlətində feodallıqlara parçalanma nəticəsində ölkə başını üsütünü almış yeni təhlükədən xilas ola bilmədi. Monqolların 1237-1240-cı illərdəki yürüşləri nəticəsində knyazlıqlar işğal edildi.



Bu ərazilər Qızıl Ordadan vassal asılılığına salındı. Onlar Qızıl Ordaya xərac ödəməli oldular. Vassal asılılığı dövründə knyazlar arasında narazılıq artmışdı. «Böyük knyaz» titulu almaq uğrunda gedən mübarizə vuruşmalarla nəticələnirdi. Bunun nəticəsində şəhərlər dağılır, sənətkarlıq, ticarət zəifləyirdi. Bir çox sənət sahələri sıradan çıxırdı. Çox vaxt yaxşı sənətkarları Qızıl Ordaya aparırdılar. Kənd təsərrüfatında da geriləmə baş vermişdi. Bütün bunlar rus torpaqlarının vahid dövlət halında birləşməsini ləngidirdi.

Monqolların rus torpaqlarına yürüşləri dövründə şəhərlər böyük ziyan çəkmişdilər. Sənətkarlıq və ticarət zəifləmişdi. XIV əsrdən sonra Rus torpaqlarından xərac alan Qızıl Orda xanları daha yürüşlər təşkil etmirdilər. Şəhər həyatında yenidən dirçəliş baş verdi, qızğın ticarət həyatı yenidən bərpa olundu. Onlar hətta Qızıl Orda şəhərləri ilə də ticarət edirdilər. Şəhərlərin bir qismi Volqa-Xəzər yolu ilə Cənubi Qafqazla, həmçinin Azərbaycanın bir çox şəhərləri ilə ticarət əlaqəsi saxlayırdılar. Moskva iri sənətkarlıq mərkəzinə çevrilmişdi. Ölkənin ucqarları ilə mərkəz arasında əlaqələr güclənirdi. Moskvanın əlverişli strateji mövqedə yerləşməsi ilə əlaqədar olaraq bura köçüb gələnlərin sayı artmaqda davam edirdi. Qızıl Ordudan asılı olan knyazlar onlara xərac ödəməli olurdular. Parçalanmış halda olan bu dövlətdə sakitlik çoxdan pozulmuşdu. Xalq köhnəlmiş knyaz fərmanları ilə razılaşmır, knyazlar da dövləti idarə edə bilmirdilər. Knyazların bir çoxu artıq başa düşürdü ki, böyük knyaz tərəfindən idarə olunan vahid dövlət yaratmağın vaxtı gəlib çatmışdır. Feodal çəkişmələrindən daha çox əziyyət çəkən kəndlilər və şəhərlilər də başa düşürdulər ki, mərkəzləşdirilmiş dövlət yaradılarsa, feodalların özbaşınalığına son qoyula bilər. Sənətkarlar, tacirlər, bütün şəhər əhalisi mərkəzləşdirilmiş dövlət arzusunda idilər. Təsərrüfatın inkişafı, şəhərlər arasında əlaqə yaradılması, ticarətin canlanması rus torpaqlarının vahid dövlət halında birləşməsi üçün şərait yaratdı. Xarici təhlükə də ölkənin birləşdirilməsi zərurətini ortaya çıxardı. Hamı başa düşürdü ki, asılılıqdan xilas olmaq üçün mərkəzləşdirilmiş knyaz hakimiyyətinə əsaslanan güclü vahid dövlət lazımdır.

XIV əsrin əvvəllərində Moskva knyazlığı təsərrüfat, sənət və ticarət sahəsində özünün yüksəliş dövrünü keçirirdi. Qərbi Avropa və Şərq ölkələri ilə ticarətdə uğurlar qazanan Moskva Qızıl Orda xanlarından «Böyük knyaz» titulu almaq üçün Tver knyazlığı ilə mübarizəyə başladı. Moskva knyazı İvan Kalita (rus dilində pul kisəsi deməkdir; olduqca xəsis və dövlətli knyaz II İvana verilən

ləqəb) hiylə yolu ilə öz rəqibini aradan qaldırıb, Qızıl Orda xanından «yarlıq»aldı. İvan Kalita böyük knyaz titulunu ələ keçirdikdən sonra Qızıl Orda xanları xeyli müddət rus torpaqlarına yürüşlər etmədilər. Bu da rus torpaqlarının dirçəlməsinə, Moskvanın varlanıb başqa knyazlıqları özündən asılı vəziyyətə salmasına imkan yaratdı. Moskva knyazlığının güclənməsi birləşdirilmə üçün ilkin şərait yaratdı. Artıq Moskva və başqa knyazlıqlar Qızıl Orda ilə hesablaşmır, xəracı vaxtlı-vaxtında ödəmir, bəzən isə tamamilə imtina edirdilər.

Kulikovo məğlubiyyətindən sonra isə Moskva knyazı Qızıl Ordaya xərac verməkdən tamamilə imtina etdi. Moskva knyazı III İvanın dövründə rus torpaqlarının Moskva ətpafında birləşdirilməsi çox sürətlə davam edirdi. O,Rostov və Yaroslavl knyazlıqlarının varlığına son qoydu. Böyük Novqorod boyarları isə hər vasitə ilə öz müstəqilliklərini qoruyub saxlamağa çalışırdılar. Onların Böyük Litva knyazından kömək istəməsi III İvanın Novqorod üzərinə yürüşünə səbəb oldu. 1471-ci ildə baş vermiş Şelon döyüşündə Moskva knyazı III İvan qalib gəldi. 1478-ci ildə Böyük Novqorod torpağı Moskva tərəfindən tamamilə işğal edildi.Moskva knyazlığı geniş işğallar yolu ilə öz ərazisini genişləndirmək siyasəti yeritməyə başladı. Növbəti işğal hədəfi şimalda və Volqaboyunda yaşayan türk xalqları oldu. Öz müstəqilliyini və istiqlaliyyətini itirən həmin xalqlar ruslaşdırma və xristianlaşdırma siyasəti ilə üz-üzə qalmalı oldular. Moskva knyazlığı ətpafında birləşən rus knyazlıqları öz müstəqilliklərini tam itirdilər. Mərkəzləşmiş dövlət yarandı. Mərkəzi dövlətdə böyük knyaz və boyar duması idarə edirdi. Dumanın tərkibi keçmiş knyazlardan və onların vaprislərindən ibarət idi. Böyük knyaz 1497-ci ildə təhkimçilik hüququnun tətbiq edilməsi üçün fərman verdi. Fərmana görə kəndlinin öz ağasının torpağından ancaq ildə bir dəfə-«Yuri günü» nə bir həftə qalmış, yaxud bir həftə sonra çıxıb getmək hüququ var idi. Beləliklə, ümumdövlət təhkimçlik sistemi yaradılmasının əsası qoyuldu. XIII-XIV əsrlərdə Moskva knyazlığı yaranmış və bu da yeni rus dövlətinin formalaşmasının özəyini təşkil etmişdir. XVI əsrin ərtalarında Rus dövlətinin tərkibinə Volqaboyunun xalqları məskunlaşan ərazilər qatılmış (Kazan və Həştərxan xanlıqları) və burada Simbirsk, Samara, Saratov, Kamışin, Sarıtsin (indiki Volqoqrad) kimi qala-şəhərlər salınmışdır. XVI əsrdə rusların Şərqi Avropa düzənliyinin meşə-çöl hissəsinə hərəkəti güclənmiş və burada Tambov, Voronej kimi qala-şəhərlər tikilmişdir. XVII əsrdə Yenisey və Lena çayları sahilində rus qalaları tikilmiş və həmin əsrdə də



ruslar Baykal gölünə çatmışlar. Təxminən yarım əsr vaxt lazım olmuşdur ki, ruslar Ural dağlarından sərt Şimali Asiyanı keçərək Sakit Okean sahillərinə çatsınlar. Rusların şərqə yürüşü XVII əsrdə Kamçatka yarımadasının ələ keçirmələri ilə başa çatmışdır. XVIII-XIX əsrlərdə ruslar Krımda, Mərkəzi Asiya, Qafqaz və Avropada yaşayan bir sıra xalqları özlərinə tabe etdirə bilmişdilər. Beləliklə böyük rus imperiyası yaranmışdır.

1606-1607- ci illər İvan Bolotnikovun, 1670-1671-ci illər Stepan Razinin, 1773-1775-ci illərdə Yemelyan Puqaçovunun başçılığı altında baş vermiş üsyan və kəndli müharibələrin baş vermə və məğlubolma səbəbləri, bunların tarixi əhəmiyyətinə də xüsusi diqqət vermək lazımdır.

**İstifadə olunmuş ədəbiyyat:**


1. История России. с древнейших времен до конца XX века / А.Н. Боханов, М.М. Горинов, В.П. Дмитренко и др. — М.: ООО «Издательство АСТ», 2001. — 608 с
2. Балязин В. Н.Неофициальная история России. Ордынское иго и становление Руси. М., 2006
3. *Карамзин* Н. История государства Российского. М.,2011
4. Орлов А. С., История России .М. 1997
5. Платонов С. Ф. Полный курс лекций по русской истории. М., 2006
6. Антинорманизм в сборнике РИО. // *Клейн Л. С.* Спор о варягах. — СПб.: Евразия, 2009.
7. *Лебедев Г. С.* Эпоха викингов в Северной Европе. Л.: Изд-во ЛГУ, 1985. Гл. 2.1.
8. Мавродин В.В.. Борьба с норманизмом в русской исторической науке, Л.: Всесоюзное общество по распространению политических и научных знаний, 1949
9. Мунчаев Ш.М., Устинов В.М. «История России»*Учебник для вузов. Москва,1997*
10. Соловьёв С. М. История России с древнейших времён. Сочинения: В 18 кн. — М.: Голос; Колокол-Пресс, 1993-1998.
11. Mustafayev C. Ermənilər Rusiyanın köməyilə Azərbaycan və Türkiyə

torpaqları hesabına öz dövlətlərini yaratmaq istəyirdilər. "Azəbaycan" qəzeti, 19 fevral 2015-ci il

**XIV mövzu:** Rusiya XIX-XX əsrin əvvələrində

1. XIX əsrdə Rusiyada baş verən hadisələr və həyata keçirilmiş islahatlar (Vətən müharibəsi, dekabristlər, xalqçılar hərəkatı, 1840, 1861-ci il islahatları və s.)
2. I rus inqilabı və onun nəticələri
3. Fevral burjua inqilabı, mütləqiyyət rejiminin devrilməsi
4. Oktyabr çevrilişi və bolşeviklərin hakimiyyəti ələ keçirməsi

Bu mövzunu öyrənmək üçün Rusiyanın XIX-XX əsrin əvvələrində ictimai-siyasi və iqtisadi vəziyyətinə diqqət vermək lazımdır. XIX əsrin əvvəllərində Rusiya ictimai-siyasi və iqtisadi inkişaf baxımından Qərbi Avropa ölkələrindən xeyli geridə idi. 1801-ci ildə Rusiyada saray çevrilişi baş verdi. I Pavel öldürüldü və onun oğlu I Aleksandr taxta çıxarıldı (1801-1825). Kəndli məsələsinin kəskinliyini zəiflətmək üçün 1803-cü ilin fevralında "azad taxılçılar" haqqında fərman verildi. Fərmana görə mülkədarlara icazə verilirdi ki, öz arzularına görə pul alıb kəndliləri torpaqla birlikdə azad etsinlər. 1810-cu ildə yaradılan Dövlət şurası ali idarəetmə orqanı kimi fəaliyyət göstərsə də, çarın yanında məşvərətçi orqan idi. XIX əsrin əvvəllərində Rusiyanın beynəlxalq vəziyyəti son dərəcə mürəkkəb idi. Tilzit sülh müqaviləsindən sonra da Rusiya müstəqil xarici siyasət yeritməkdə davam edirdi. Napoleon üzərində qələbədən sonra Qərbi Avropa həyatı ilə tanış olmuş bəzi mütərəqqi fikirli rus zabitləri Rusiyada dəyişikliklər aparmaq uğrunda mübarizəyə başladılar. Bu zabitlər gizli "Nicat ittifaqı" və "Səadət ittifaqı" adlı cəmiyyətlər yaratdılar. 1825-ci il dekabrın 14-də hərbçilərin üsyanı baş verdi. Bu üsyan tarixə dekabristlər üsyanı kimi daxil oldu.

Dekabristlər üsyanı Rusiyada inqilabi hərəkatın başlanğıcını qoydu. XIX əsrin 50-ci illərinin axırlarında Rusiyanın iqtisadi geriliyinin əsas amili olan təhkimçilik hüququnun ləğv edilməsi və burjua islahatlarının keçirilməsi zərurəti meydana çıxmışdı. 1861-ci il fevralın 19-da II Aleksandr mülkədar kəndlilərinin təhkimçilik hüququnun ləğv edilməsi haqqında "Əsasnamə" imzaladı. Təhkimli



kəndlilər şəxsi asılılıqdan azad edilirdilər. Kəndlilərə daşınan və daşınmaz əmlaka malik olmaq, məhkəmədə öz adından çıxış etmək, qanunlar və adətlər üzrə vərəsə olmaq hüququ verilirdi. Kəndlilər azadlıq və pay torpaqları üçün mülkədarlara ödənc verməli idilər. Onlar ödənc məbləğinin 20%-ni dərhal ödəyir, qalan 80%-i isə kəndlilərin əvəzindən mülkədarlara dövlət tərəfindən verilirdi. Dövlətin kəndlilərə verdiyi bu "borc"u onlar 49 il ərzində faizlə qaytarmalı idilər. 1864-cü ildə quberniya və qəza miqyasında seçkili hakimiyyət orqanları olan zemstvo idarələri yaradıldı. Buraya əhalinin bütün təbəqələrinin nümayəndələri daxil idilər. Zemstvolar qəza və quberniya ərazisində ancaq təsərrüfat və mədəniyyət məsələləri ilə məşğul olurdular. 1864-cü ildə məhkəmə islahatı da keçirildi. Məhkəmə islahatı məhkəmənin hökumət orqanlarından asılı olmadığını elan edirdi: hakim hökumət tərəfindən təyin edilsə də, öz vəzifəsindən yalnız məhkəmənin qərarı ilə kənar edilə bilərdi. Məhkəmə iclasları açıq keçirilirdi. Bu islahat 60-70-ci illərin islahatları içərisində daha ardıcıl burjua islahatı idi. XIX əsrin ortalarında Rusiyanın xarici siyasətində əsas məsələ "Şərq məsələsi" idi.

Bu məsələnin mahiyyətini Osmanlı imperiyasının hakimiyyəti altında olan torpaqların bölüşdürülməsi və Yaxın Şərqdə təsir dairəsi uğrunda Avropanın böyük dövlətləri arasında gedən mübarizə təşkil edirdi. Fələstindəki müqəddəs yerlər üstündə mübahisə (Fələstin Osmanlı imperiyasına daxil idi-red.) Rusiyanın Osmanlı imperiyası ilə yeni hərbi toqquşması üçün bəhanə oldu. 1853-cü ilin oktyabrında Krım müharibəsi başlandı. Müharibənin birinci mərhələsində ən mühüm hadisə 1853-cü il noyabrın 18-də Sinop buxtasında dəniz vuruşması idi. Bu, yelkənli hərbi donanma tarixində sonuncu döyüş oldu. Rus donanması döyüşdə qalib gəldi. Bu hadisə İngiltərə və Fransanın müharibəyə qoşulmasını sürətləndirdi. Hər iki dövlət 1854-cü ilin martında Rusiyaya müharibə elan etdi. Prussiya və Avstriya isə Rusiyadan Dunay knyazlıqlarından öz qoşunlarını çıxartmağı tələb etdilər. 1854-cü ilin sentyabrında müttəfiqlərin ordusu Sevastopol üzərinə hücuma keçdi. 1855-ci ilin sentyabrında Sevastopol ələ keçirildi. Krım müharibəsində Rusiya biabırcasına məğlub oldu. Bu müharibədə Rusiyanın məğlubiyyətinin əsas səbəbləri iqtisadi və hərbi-texniki gerilik idi. 1856-cı ilin martında Parisdə müttəfiqlərlə Rusiya arasında sülh müqaviləsi imzalandı. müqaviləyə görə Rusiya Qara dənizdə hərbi donanmaya, sahillərdə isə qalalara sahib olmaq hüququndan məhrum edilirdi. Osmanlı imperiyasının ərazi bütövlüyü təmin edilirdi. Dardanel

boğazı və Qara dəniz bütün ölkələrin ticarət gəmiləri üçün açıq elan olunurdu. Krım müharibəsi Rusiyanın xarici siyasət sisteminə zərbə endirdi və onun beynəlxalq nüfuzuna sarsıdıcı zərbə vurdu.

Krım müharibəsində sonra Rusiyanın beynəlxalq vəziyyəti olduqca mürəkkəb idi. 1871-ci ildə Londonda keçirilən beynəlxalq konfransda Rusiya yenidən Qara dəniz sahillərində qalalar tikmək və orada hərbi donanma saxlamaq hüququ aldı. Balkan yarımadasında Rusiyanın işğalçılıq planlarının güclənməsi nəticəsində 1877-1878-ci illərdə yeni Rusiya-Osmanlı müharibəsi baş verdi. Bu müharibə-Osmanlı imperiyasının məğlubiyyəti ilə nəticələndi. Rusiya Osmanlı dövləti ilə 1878-ci ilin martında San-Stefano sülh müqaviləsini imzaladı. Bu sülh müqaviləsinin şərtlərinə görə Bolqarıstanın şimal hissəsi müstəqil dövlət elan edildi. Çernaqoriyanın və Serbiyanın müstəqilliyi Osmanlı dövləti tərəfindən tanındı. Rumıniya müstəqil dövlət oldu və Şimali Dobruca ona verildi. Qars vilayətini və Bessarabiyanı Rusiya ələ keçirdi. XX əsrin əvvəllərində Rusiyada kapitalizmin inkişafı xeyli sürətlənmişdi. Rusiyada sindikatlar sayca üstünlüyə malik idilər. Inhisarlarla sıx əlaqədə olan iri banklar ölkədə həlledici rol oynamağa başlamışdılar. 1904-1905-ci illərdə Rusiya-Yaponiya müharibəsində rus ordusunun ağır məğlubiyyəti ölkədə mövcud quruluşa qarşı narazılığı kəskin surətdə artırmışdı. Bu narazılıq özünün ən kəskin təzahürünü 1905-1907-ci illərdə baş vermiş burjia-demokratik inqilabında tapdı. İnqilabın qarşısında mütləqiyyətin devrilməsi və respublika elan edilməsi, mülkədar torpaq sahibliyinin ləğvi, demokratik hüquq və azadlıqların elan edilməsi, milli zülmün ləğvi və xalqlara öz müqəddəratını təyin etmə hüququnun verilməsi kimi mühüm vəzifələr dururdu.

1905-ci il yanvarın 9-dan dekabrınadək davam edən inqilabın birinci mərhələsində inqilab özünün ən yüksək pilləsinə qalxmışdı. Həmin ilin iyununda Qara dənizdə "Potyomkin" gəmisinin matroslarının güclü üsyanı baş verdi və amansızlıqla yatırıldı.İmerator II Nikolay 1905-ci il oktyabrın 17-də əsas siyasi azadlıqları bəyan edən Manifest imzalamağa məcbur oldu. Inqilabın birinci mərhələsinin zirvəsini Moskva silahlı üsyanı təşkil etmişdi. 1906-1907-ci illərdə fəaliyyət göstərmiş I və II Dövlət Dumalarının islahat tələblərindən hökumət ciddi narahatlıq keçirirdi. Ona görə imperator 1907-ci il iyunun 3-də II Dumanı qovdu. Bu inqilabın sonu demək idi. Birinci rus inqilabı öz qarşısına qoymuş olduğu əsas vəzifələrdən heç birini yerinə yetirə bilmədi. Birinci rus inqilabı göstərdi ki,



hökumətin kənddə sosial dayağı yoxdur. Icma torpaqlarının qarət edilməsi hesabına qolçomaqları kənddə mütləqiyyətin dayağına çevirmək siyasətinə keçilməsi qərara alındı. Bu siyasət tarixdə Stolıpin aqrar islahatları adını almışdı. 1906-cı ildə Nazirlər Şurasının sədri təyin edilmiş P.A.Stolıpin öz dövrünün böyük islahatçısı idi. Onun keçirdiyi torpaq islahatı Rusiyanın iqtisadi geriliyinin mənbəyi olan kəndli icmalarının aradan qaldırılmasına yönəldilmişdi. II Nikolayın 1906-cı il noyabrın 9-da icmaların dağıdılması haqqında fərmanı 1910-cu il iyun qanunu ilə qüvvəyə mindi. Bu qanunla Rusiya kəndində icmalar məcburi surətdə ləğv edilir və kəndlilər sərbəst surətdə icmanı tərk etmək, öz pay torpağına malik olmaq hüququ əldə edirdilər. Bu tədbir kənddə sosial təbəqələşmə prosesini gücləndirdi. Birinci dünya müharibəsi ərəfəsində Rusiya yeni sarsıntılar içərisində idi.

XX əsrin əvvəllərində Rusiyada ziddiyyətlərin kəskinləşməsi sosial qarşıdurmanı daha da dərinləşdirdi. Rusiya sosial inqilab qarşısında qaldı. Rusiya tarixində birinci rus inqilabı adlandırılan 1905-1907-ci illər sosial qarşıdurması sovetləri meydana gətirdi. O, ilk dəfə 1905-ci ilin mayında İvanovo-Voznosenskdə yaranmışdı. Tətil hərəkatına rəhbərlik etmək üçün seçilmiş fəhlə müvəkkilləri (deputatları) Soveti sonradan bolşevik rejiminin siyasi dövlət formasına çevrildi.

Birinci dünya müharibəsi dövründə ziddiyyətlər daha da kəskinləşdi. Tətil bütün ölkəni bürüdü. 1916-ci ildə tətil edən fəhlələrin sayı bir milyonu ötmüşdü. Cəbhədə əskərlərin, kənd yerlərində kəndlilərin narazılıq hərəkatı kütləvi hal almışdı. Cəbhənin bir sıra yerlərində qardaşlaşma artmışdı. İnqilabın yaxınlaşmasından təşvişə düşən hökumət ciddi tədbirlər görməyə başladı. Lakin bunlar inqilabın qarşısını ala bilmədi. Fevralın 27dən 28-ə keçən gecə Rusiyada inqilab baş verdi. İnqilabın keçirilməsində kadetlərlə birlikdə menşeviklər də əsas rol oynamışdılar. İnqilabın qələbəsi günü fəhlə və əsgər deputatları Sovetləri yaradıldı. Sovetlərlə yanaşı paytaxtda Dövlət Duması tərəfindən seçilən Müvəqqəti Komitə yaradıldı. Beləliklə, 300 ildən artıq Rusiyada ağalıq etmiş Romanovlar sülaləsinin hakimiyyətinə son qoyuldu. Rusiya respublika elan olundu. Petroqrad soveti ilə saziş əsasında martın 2-də knyaz Q.Lvovun başçılığı ilə Müvəqqəti Hökumət təşkil edildi.

Bu, Rusiya tarixinin qanunauyğun inkişafının nəticəsi idi. Belə ki, hələ XIX əsrin ikinci yarısından etibarən sürətlə inkişaf etməyə başlayan kapitalist münasibətlərinə münasib siyasi qurumun yaradılması zəruri tələb idi. XX əsrin

əvvəllərində Rusiyada yaranmış parlamentli (dumalı) monarxiya siyasi qurumu 1917-ci ilin fevralında burjua-demokratik respublikası ilə əvəz olundu. Onunla yanaşı tərkibinin əksəriyyəti menşevik və eserlərdən ibarət güclü Petroqrad fəhlə və əsgər deputatları sovetləri fəaliyyət göstərirdi. V.İ.Lenin başda olmaqla bolşeviklər onları ikinci hakimiyyət kimi qələmə verirdilər. Əslində onlar hakimiyyət uğrunda mübarizə aparan müxalif qüvvələr idilər.

İnqilab nəticəsində Rusiya siyasi cəhətdən dünyanın qabaqcıl ölkələrindən birinə çevrildi. Ölkədə söz, mətbuat, yığıncaq azadlıqları bərqərar oldu. Ümumi, qapalı və müstəqim yolla Məclisi Müəssisə seçkiləri keçirilməsinə hazırlıq elan olundu. Ölkədə çoxpartiyalılıq yarandı. Hesablamalara görə artıq 1917-ci il mart-oktyabrda Rusiyada 220-yə qədər müxtəlif ümumrusiya və milli siyasi partiya və qurumlar fəaliyyət göstərmişdi. Onların sırasında Xalq azadlığı partiyası (keçmiş kadetlər), menşeviklər, eserlər mühüm yer tuturdular. 1917-ci ilin yazında kadetlərin sıralarında 100 min, menşeviklərin sıralarında 200 min, eserlərin sıralarında yarım milyon adam birləşmişdi. Bu zaman bolşeviklər partiyasının sıralarında cəmi 24 minə qədər üzvü var idi.

Ölkədə baş alıb gedən sosial, iqtisadi və siyasi böhran burjua-demokratik respublikanın uzun ömürlü olmasına imkan vermədi. 1917-ci ilin aprelində və iyunda təşkil olunmuş koalision hökumətlər də Rusiyanı böhran vəziyyətindən çıxara bilmədilər.

1917-ci il iyul (3-4 iyul) hadisələri Rusiyada böhran vəziyyətini daha da dərinləşdirdi. Yaranmış şəraitdən istifadə edən V.İ.Lenin başda olmaqla bolşeviklər 1917-ci il oktyabrın 25-də Peterburqda çevriliş yolu ilə hakimiyyəti ələ aldılar. Mərkəzdə və yerlərdə Sovet hökumət orqanları yaradıldı. V.İ.Lenin başda olmaqla əksərən bolşeviklərdən ibarət hökumət Xalq Komissarları Soveti təşkil olundu. Bir sıra iqtisadi tədbirlər həyata keçirildi: iri sənaye müəssisələri və torpaq milliləşdirildi, sənaye məhsulu istehsalına və bölüşdürülməsinə fəhlə nəzarəti qoyuldu. 1917-ci ilin dekabrında Müəssisələr Məclisinə seçkilər keçirildi. Bu seçkilərdə eser və menşeviklər əksər səs aldılar.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Анисимов Е. История России от Рюрика до Путина. Люди. События.





Даты. М., 2007
2. Göyüşov A.R. Rusiyada monarxiyanın süqutundan SSRİ-nin yaranmasına qədər olan dövrdə türk-müsəlman xalqlarının milli-azadlıq mübarizəsi. Bakı, 2002. Metodik vəsait
3. Nuriyeva Z.N. «1877-1878-ci illər Rusiya Türkiyə müharibəsi ilə bağlı Balkanlarda vəziyyət və azərbaycanlıların İrəvan əyalətindən deportasiyasının II mərhələsi».Bakı, 2003
4. Орлов А. С., История России .М. 1997
5. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. М., 1969.
6. История России. с древнейших времен до конца XX века / А.Н. Боханов, М.М. Горинов, В.П. Дмитренко и др. — М.: ООО «Издательство АСТ», 2001. — 608
7. Миллер А. Национализм и империя .-М.: ОГИ, 2005.- 128 с.
8. Нарочницкая Л. Россия и отмена нейтрализации Черного моря 1856-1871 гг. К истории восточного вопроса. М.,1989.
9. Восточный вопросво внешней политике России. Конец XVIII – нач. XX в. М.,1978.
10. История внешней политики России. Перваяполови на XIX века. М., 1995


**XV mövzu:** Rusiya Sovet Federatif Sosialist Respublikası

1. Sovet rejiminin həyata keçirdiyi tədbirlər
2. Bolşeviklərin imperiyanı başqa adla bərpa etməsi
3. RSFSR-in süqutu

Bu mövzunu öyrənmək üçün birinci növbədə bolşevik partiyasının ideoloji baxışları, onların hakimiyyətə gəlməsi, hakimiyyətə gəldikdən sonra verdikləri vədlərə əməl etməməklə xalqların başına gətirdikləri faciələrə diqqət verməklazımdır.1917-ci il oktyabrın 25-də çevriliş yolu ilə Rusiyada hakimiyyəti ələ keçirən bolşeviklər sovet hakimiyyətinin qurulduğunu elan etdilər. Bununla da Rusiya tarixinin sovet dövrü başlandı. Sovet rejiminə və onun yerlərdə yayılmasına

qarşı müqavimət hərəkatı bütün ölkəni bürüdü. Separatizm hərəkatı sovet rejiminə qarşı mübarizə ilə çulğalaşdı. Ucqarlara qaçmış generallar öz ətraflarına böyük silahlı qüvvə toplayaraq Sovet dövlətinə qarşı güclü cəbhə yaratdılar. Şimalda general Müller, Kerenski, şimal-qərbdə general Yudeniç, cənubda ataman Kaledin, general Alekseyev, general Krasnov, general Kornilov, general Denikin, Cənubi-Uralda ataman Dutov, Zabaykalda ataman Semyonov, Sibirdə admiral Kolçak sovet hakimiyyətinə qarşı hərbi yürüşə başladılar. Beləliklə, sovet hakimiyyətinə, "qırmızılara" qarşı "ağlar" hərəkatı formalaşdı. Bolşevizmi, sovet quruluşunu istəməyən xarici iri dövlətlər də ona qarşı hərbi müdaxilə təşkil etdilər.Sibirdə admiral Kolçak «Rusiyanın ali hökmdarı» elan edildi. Cənubda general Denikin hərbi-diktatura yaratdı, Şimalda Müller hərbi qubernatorluq təşkil etdi.

Sovet hakimiyyətinin nəzarət etdiyi ərazilərdə də narazı qüvvələr fəaliyyət göstərirdilər. Onlar bir-birinin ardınca qiyamlar qaldırır, sui-qəsdlər təşkil edirdilər. 1918-ci il avqustun 30-da sui-qəsd təşkil edərək Lenini yaraladılar.

Vətəndaş müharibəsi şəraitində keçmiş Rusiya imperiyası məkanında milli-azadlıq hərəkatı gücləndi. Oktyabr çevrilişindən sonra imperiya ərazisində müstəqil dövlətlər yaranmağa başladı. 1917-ci ilin noyabrında Polşa, dekabrda Finlandiya müstəqillik əldə etdilər. 1918-ci ildə Qafqazda Dağlılar Respublikası, Cənubi Qafqazda müstəqil Gürcüstan, Azərbaycan, Ermənistan Respublikaları yarandı.1920-ci ilin aprelində Uzaq Şərq bufer Respublikası təşkil olundu. Lakin bunların ömrü çox olmadı. Tezliklə Qırmızı Ordu tərəfindən sözü gedən müstəqil respublikalar işğal olundular. Həmin ərazilərdə də Sovet rejimi quruldu.1919-cu ilin oktyabrında Qırmızı Ordunun sıralarında 3 milyondan çox əsgər və zabit var idi. 1920-ci ildə onun sayı 5 milyona çatmışdı. Qırmızı Ordu hissələri 1919-cu ildə Şərqdə Kolçakın qüvvələrini məğlub etdi. Kolçakın özü 1920-ci ilin əvvəllərində güllələndi. 1919-cu ilin payızında Cənubda Denikinin "Könüllü ordusu",1920-ci ilin noyabrında Vrangel də məğlub edildi. Şimalda vaxtaşırı Petroqrada hücumlar edən Yudeniç məğlub edildi. 1920-ci ildə Arxangelsk və Murmansk azad edildi. Yalnız yaponlar Uzaq Şərqdə 1922-ci ilə kimi dayandılar.1920-ci ildə Polşa ilə başlanmış müharibə də Riqa sülhü ilə başa çatdı.

RSFSR XKS-i Leninə sui-qəsd edildikdən sonra 1918-ci il sentyabrın əvvəllərində (5-də) qırmızı terror barədə qərar verdi. Bu qərara əsasən 1918-ci ildə Petroqradda 500 nəfərə qədər adam güllələndi. Natamam məlumata görə 1918-



1919-cu illərdə 10 minə qədər adam qırmızı terrorun qurbanı olmuşdu. Qırmızı terrorun ən dəhşətli səhifələrindən biri də 1918-ci il iyulun 17-də çar II Nikolay başda olmaqla bütün ailə üzvlərinin Yekaterinburqda güllələnməsidir.

Vətəndaş müharibəsinin siyasi və sosializmin siyasəti iqtisadi tədbirlər sisteminin tərkib hissələrindən biri də **hərbi kommunizm** (1918-1920) siyasətidir. Onun əsil mahiyyəti sərt mərkəzləşdirmə şəraitində bütün istehsal sahələri (sənaye, torpaq) dövlətin əlində mərkəzləşdirilirdi.İstehsal və bölgü üzərində möhkəm nəzarət qoyulurdu; kəndlilərə ərzaq sapalağı tətbiq olunurdu (artıq məhsul dövlət tərəfindən müsadirə olunurdu); əmək haqqı natura ilə, məhsul payı, zəruri məhsullar almaq, ümumi yeməkxanalardan istifadə üçün talonlar verilməsi ilə əvəz olunurdu; əmtəə-pul münasibətləri aradan qaldırılırdı və s.

Hərbi kommunizm siyasəti ölkəni açılıq və səfalətə gətirmişdi. Sovet hakimiyyətinin əsaslandığı fəhlə sinfi sənaye müəssisələrinin işləməmsi səbəbində öz sinfi simasını itirirdi. Kəndlilər isə məhsullar əlerindən zorla alındığına görə torpağı əkmək istəmirdilər. Belə vəziyyət sovet hakimiyyəti məcbur olub 1921-ci ilin mart ayından etibarən **yeni iqtisadi siyasətə** keçdi. Bu siyasətin əsasının aşağıdakılar təşkil edirdi:

- Kəndə ərzaq sapalağı ərzaq vergisi ilə əvəz edilməsi:
- Şəhərdə zavod və fabrikləri kapitalistlərə geri qaytararaq onların icarəsinə verilməsi.

Bu siyasət öz müsbət nəticəsini verməyinə baxmayaraq sovet hakimiyyəti 20-ci illərin axırlarından **yeni iqtisadi siyasətin** üstündən xətt çəkərək sosialistcəsinə sənayeləşmə və elliklə kollektivləşmə siyasətinə keçdi. Bu addım ölkədə faciələrə gətirb çıxardı. Kolxoz quruluşuna keçirilməsi, qolçomaqların bir sinif kimi ləğv edilməsi kütləvi açlığa səbəb oldu ki, bu da milyonlarla adamın ölümü ilə nəticələndi. 30-cu illərdə sovet hakimiyyətinin həyata keçirdiyi repres siyalar zamanı da çoxlu sayda insan həyatını itirdi.

1922 - Moskvada I Ümumittifaq Covetlər qurultayında Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) yaradıldığı elan edilib. Sovet İttifaqı Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR), Ukrayna SSR, Belorusiya SSR və Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (Azərbaycan SSR,

Ermənistan SSR və Gürcüstan SSR-in birləşdiyi federativ qurum) təsisçiliyi ilə yaradılmışdı. Sonrakı illərdə SSRİ respublikalarının sayı 15-ə çatdı. Qurultayda SSRİ-nin ilk ali idarətemə orqanı - 18 nəfərlik Mərkəzi İcraiyyə Komitəsi (sədr Mixail Kalinin) seçildi. "Zaqfederasiya"dan SSRİ rəhbərliyinə Azərbaycan SSR hökumətinin başçısı Nəriman Nərimanov seçildi.

SSRİ ilə faşist Almaniyası arasında bağlanan "Molotov-Ribbentrop paktı" (23 avqust 1939) ilə hər iki dövlət bir-birinin üzərinə 10 il müddətinə hücum etməmək haqqında öhdəlik götürürdülər. Müqavilənin məxfi hissəsində isə Polşanın və digər Şərqi Avropa ölkələrinin bölüşdürülməsinə dair saziş var idi. 1939-cu il sentyabrın 1-i müharibə başladı. "23 avqust" sazişinə əsasən SSRİ həmçinin Polşaya şərqdən hücum etdi. Polşa zəbt edildi və bölüşdürüldü.

1941-ci il iyunun 22-də Faşist Almaniyası hücum etməmək haqqında müqaviləni pozaraq qəflətən SSRİ üzərinə hücum etdi. Bunula da 1941-1945-ci illəri əhatə edən Böyük Vətən müharibəsi başlandı. Bu müharibə 9 may 1945-ci ildə SSRİ-nin qələbəsi ilə başa çatdı. 2 sentyabr 1945-ci il tarixdə Yaponiyanın da təslim olması ilə İkinci Dünya müharibəsi başa çatdı.

1946-1950-ci illər müharibədən sonra bərpa dövrü adlanır. Bundan sonra SSRİ-də 1959-1965-ci illəri əhatə edən kommunizm quruculuğu proqramı adlanan 7 illik plan qəbul olundu. Bu plana görə sovet vətəndaşları 1980-ci ildə kommunuzm cəmiyyətində yaşamalı idilər. Lakin bu planın iflasa uğraması ölkədə iqtisadi böhrana gətirb çıxardı. 1970-1980-ci illər SSRİ-də durğunluq dövrü, 1985-1991-ci illər isə yenidənqurma, aşkarlıq dövrü kimi xarakterizə edilir. Bu siyasətin nəticəsində SSRİ 1991-ci ilin dekabrında süqut etdi. Rusiya Federasiyası özünü onun varisi elan etdi.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Анисимов Е. История России от Рюрика до Путина. Люди. События. Даты. М., 2007
2. Исмаилов Э. Очерки истории России советского периода. Баку, Ziya-Nurlan, 2008.
3. Орлов А. С., История России .М. 1997
4. Козлов В. А Неизвестный СÇСР противостояние народа и власти 1953-1985 гг. Москва ОЛМА-ПРЕСС 2006
5. Zülfüqarlı M.P. Rusiyanın "Qaqarin səhvi". "525- ci qəzet" 15 iyul 2008




**XVI mövzu:** Rusiya əhalisinin milli və dinin tərkibi

1. Rusiya Federasiyasının etnik tərkibi
2. Rusiyada əhalinin sitayiş etdiyi dinlər
3. Rusiyada müsəlmanların vəziyyəti

Bu mövzunu öyrənmək üçün Rusiya Federasiyası əhalisinin etnik və dini tərkibinə diqqət vermək lazımdır. Rusiyada 2010-cu ilin oktyabrında keçirilmiş siyahıyaalmanın nəticələri açıqlanıb. Dekabrın 16-da dərc olunmuş rəsmi məlumata görə, 2002-ci ildən əhalinin sayı 2,3 milyon nəfər (1,6 faiz) azalaraq 142 milyon 857nəfərə düşüb. Rusiya bu göstərici ilə Çin, Hindistan, ABŞ, İndoneziya, Braziliya, Pakistan və Banqladeşin ardınca 8-ci yerdə durur. Rusiya 2002-2010-cu illərdə ən çox kənd əhalisini itirib. Bu müddət ərzində 8,5min kənd tam məhv olub. Kağız üzərində qalan daha 19,4 min kənddə heç kim yaşamır. Əhalinin orta yaşı 39-dur. 2002-ci ildə bu göstərici 37,7 olub. Milli tərkibə gəlincə, 80,9 faiz özünü rus hesab edir. İkinci yerdə tatarlar gəlir – 3,87 faiz. Üçüncü yeri ukraynalılar (1,41 faiz) tutur

**İstifadə olunmuş ədəbiyyat:**


1. Анисимов Е. История России от Рюрика до Путина. Люди. События. Даты. М., 2007
2. История России от древнейших времен до начала XX в. Учебник истории для ВУЗов. под.ред. И. Фроянова
3. Орлов А. С. История России .М. 1997


**XVII mövzu:** Müasir dövrdə Rusiyanın daxili və xarici siyasəti

1. Rusiya Federasiyasının ictimai-siyasi və iqtisadi vəziyyəti
2. Rusiyanın xarici siyasətinin prioritetləri

3. Azərbaycan-Rusiya münasibətləri
4. Müasir dövrdə Rusiyanın Ukrayna siyasəti və onun fəsadları

Bu mövzunu öyrənmək üçün ilk növbədə Rusiya Federasiyasının hazırki ictimai-siyasi və iqtisadi vəziyyətinə fikir vermək lazımdır.

**Siyasi vəziyyəti**

Rusiya Prezidentli Respublikadir. Dövlət başçısı prezidentdir. Prezident ümumxalq səsverməsi ilə 4 il müddətinə seçilir. Yaşı 35-dən az olmayan və 10 ildən artıq ölkədə yaşayan hər bir vətəndaş Rusiya Federasiyasının Prezidenti seçilə bilər. Eyni şəxs ardıcıl olaraq iki dəfədən artıq prezident seçilə bilməz. Qanunverici hakimiyyət ikipalatalı Federasiya Şurası və Dövlət Duması tərəfindən həyata keçirilir. Dumaya seçilmək üçün yaç senzi 21 yaşdır. Deputat Dumaya seçildiyi andan hər hansı ödənişli fəaliyyətlə məşğul ola və ya digər hökumət vəzifələri tuta bilməz. Məhkəmə hakimiyyəti-Rusiyanın xarici dövlətlərlə bağladığı müqavilələrə və ölkə qanunlarına riayət edilməsinə nəzarət, habelə ərazi mübahisələrini həll edir. Siyasi partiyalar.Hazırda Rusiyada fəaliyyət göstərən əsas partiyalar bunlardır: «Uedinaya Rossiya», Kommunist Partiyası, Liberal Demokrat Partiyası, «Rodina», «Yabloko» və s.

**İqtisadiyyatı**

Ərazisinin böyüklüyü, təbii resursların zənginliyi Rusiyada çoxsahəli təsərrüfatın yaradılmasına səbəb olmuşdur. Lakin son illərdə iqtisadiyyatda köhnəlmiş metodların, elmi-texniki metodların ləng tətbiqi Rusiyanın iqtisadi inkişafında müəyyən maneələr yaratmışdır. İqtisadi problemlərinə baxmayaraq, Rusiya hələ də dünyanın ən güclü ölkələri sırasında qalmaqdadır. Sənaye strukturunda isə maşınqayırma, yanacaq-energetika, meşə-kağız, kimya sənayesi üstünlük təşkil edir. Ölkədə güclü qara metallurgiya sənayesi yaranmışdır. Onun başlıca bazaları Ural, Mərkəzi Rusiya və Sibirdir. Ölkənin ən iri metallurgiya kombinatları Maqnitoqorsk, Nijni-Tagil və s.-dir. Qara metallurgiyanın inkişafında Kursk-Maqnit Anomaliyası olduqca mühüm rol oynayır. Əlvan metallurgiya sənayesi Ural, Sibir, Uzaq Şərq və Şimal rayonunda güclü inkişaf etmişdir. Kimya sənayesi Rusiyanın bir çox rayonlarında yayılmışdır. Ən iri rayonları Mərkəz, Şimal-Qərb, Volqaboyu, Ural və Qərbi Sibirdir. Maşınqayırma sənayesi təsərrüfat



üçün müxtəlif və mürəkkəb maşınlar istehsal edir. Güclü hərbi-sənaye kompleksi, raket texnologiyası yaradılmışdır. Maşınqayırma zavodları Rusiyanın bir çox rayonlarında təmsil olunmuşdur. Meşə sənayesi Rusiyanın qədim və güclü inkişaf etmiş sahələrindəndir. Meşə tədarükü, emalı və kağız-sellüloz sənayesi Şimal, Ural, Sibir, Uzaq Şərq rayonlarında cəmlənmişdir. Qara və əlvan metallurgiya, meşə və kimya sənaye kompleksləri bir çox rayonlarda ekoloji vəziyyəti xeyli kəskinləşdirmişdir. Yüngül sənayenin başlıca rayonu Mərkəz və Şimal-Qərbdir. İri toxuculuq kombinatları İvanovo, Moskva və Yaroslavl şəhərlərində fəaliyyət göstərir.

**Rusiyanın inzibati bölgüsü.**

Rusiya Federasiyası ərazisinin böyüklüyünə görə dünyada birinci yeri tutur. Ərazisinin 1/4-i Avropanın, 3/4-ü isə Asiyanın payına düşür. Avropa hissəsinə Şərqi Avropa düzənliyinin böyük hissəsi, Böyük Qafqaz dağlarının şimal yamacları və Ural, Asiya hissəsinə isə Sibir və Uzaq Şərq daxildir. Ərazisinin 3/4-ü düzənlik, 42%-i meşələrlə örtülü və 40%-i kənd təsərrüfatına yararlıdır. Ölkənin şimal sahilləri Şimal Buzlu okeanının, şərq sahilləri Sakit okeanın, şimal-qərb və cənub-qərb sahilləri isə Atlantik okeanının dənizləri ilə əhatə olunmuşdur. Xəzər dənizi ölkənin cənubunda yerləşir. Rusiya Federasiyasının tərkibinə Adıgey Respublikası, Altay Respublikası, Başqırdıstan Respublikası, Buryatiya Respublikası, Dağıstan Respublikası, İnquşetiya Respublikası, Kabarda-Balkariya Respublikası, Kalmıkiya Respublikası, Qaraçay-Çerkesiya Respublikası, Kareliya Respublikası, Komi Respublikası, Mari El Respublikası, Mordoviya Respublikası, Saxa (Yakutiya) Respublikası, Şimalı Osetiya-Alaniya Respublikası, Tatarıstan Respublikası, Tuva Respublikası,Udmurtiya Respublikası, Xakasiya Respublikası, Çeçenistan Respublikası, Çuvaşıstan Respublikası daxildir.

1991-ci ildə SSRİ dağılmış və onun yerində 15 müstəqil dövlət, o cümlədən müasir sərhədləri ilə Rusiya Federasiyası yaranmışdır. SSRİ dağıldıqdan sonra Rusiya yeni istiqamət olan bazar iqtisadiyyatı cəmiyyətini bərqərar etmək yolunu götürdü. 1991-ci ilin oktyabrında iqtisadi islahat proqramı elan olundu və 1992-ci ilin əvvəlindən həyata keçirilməyə başlandı. İslahat proqramında qiymətlərin liberallaşdırılması, daxili və xarici ticarətin dövlət inhisarından çıxarılması və özəlləşdirilmənin həyata keçirilməsi nəzərdə tutulurdu. Dekabrda Rusiya özünü SSRİ-nin varisi və qalan qızıl ehtiyatı da daxil olmaqla ərazisindəki bütün

mülkiyyətin sahibi olduğunu elan etdi. 1992-ci ilin yayında dövlət mülkiyyətinin özəlləşdirilməsi proqramı təsdiq edildi. Həmin proqramın həyata keçirilməsi nəticəsində 40 min müəssisə özəlləşdirildi. Bankların sayı 2.000-ə, birjaların sayı 303-ə çatdı. Oktyabrın 1-dən bütün rusiyalılara özəlləşdirmə qəbzləri verilməyə başlandı. Bu şəraitdə istehsalın azalması, qiymətlərin yüksəlməsi baş verdi. 1992-ci ildə istehsal sənayedə 16,2%, kənd təsərrüfatında 4% azaldı. 1993-cü ildə 1990-cı ilə nisbətən milli gəlir 57%, sənaye istehsalı 63%, kapital qoyuluşu 43% aşağı düşdü. Cəmiyyətin varlılara və yoxsullara bölünməsi prosesi sürətləndi. İşsizlərin sayı 8 milyona çatdı. Qiymətlərin liberallaşdırılması nəticəsində 1993-cü ildə qiymətlər 100 dəfədən çox artdı, inflyasiya 20-25% təşkil edirdi. Siyasi sistemdə də dəyişikliklər baş verdi. Sovet Kommunist Partiyasının fəaliyyəti dayandırıldı. Ölkədə çoxpartiyalılıq təşəkkül tapmağa başladı. Milli quruculuqda dəyişikliklər yarandı. 1993-cü ilin yayında qəbul olunmuş konstitusiyaya görə Rusiya Federasiyası tərkibinə 21 respublika, 6 diyar, 49 vilayət, 11 muxtar vilayət var idi. Bir sıra milli regionlar, o cümlədən Tatarıstan, Başqırdıstan, Yakutiya, Çeçenistan asanlıqla Federasiyadan çıxmaq xəttini götürdülər. 1992-ci il martın 31-də RF ilə Federasiya subyektləri arasında federativ müqavilələr imzalandı. Tatarıstan və Çeçenistan həmin müqaviləni imzalamaqdan imtina etdilər. Başqırdıstan müəyyən şərtlərə müqaviləni imzaladı. Çeçenistanın Rusiya Federasiyasından çıxması və öz müstəqilliyini elan etməsi "qiyam və terror" kimi qiymətləndirildi və sonsuz fəlakətlərə, çeçen xalqının məhv edilməsi ilə müşayiət olunan müharibəyə səbəb oldu. 1993-cü il sentyabrın sonu, oktyabrın əvvəllərində ölkədə kəskin siyasi böhran yarandı. Əsas səbəb prezident və Ali Sovet arasında yaranan qarşıdurma idi. Qarşıdurma 3-4 oktyabr hadisələrinə gətirib çıxardı. Oktyabrın 4-də axşam Ağ Ev hökümət qoşunları tərəfindən zəbt edildi. Ağ Evin müdafiəçiləri - A.Rutskoy, Ruslan Xasbulatov, V.Barannikov, V.Acalov, A.Makaşov və başqaları həbs olundular. Bu hadisələr zamanı 140 nəfər həlak oldu. 1995-ci ilin dekabrında Dövlət Dumasına seçkilər keçirildi. 1996-cı ilin iyun-iyul aylarında keçirilən növbəti prezident seçkilərində Boris Yeltsin yenidən Rusiya Federasiyasının prezidenti seçildi. O, 1999-cu il dekabrın 31-də istefa verərək prezident vəzifəsini icra etməyi Vladimir Putinə həvalə etdi. 2000-ci il mayın əvvəllərində Vladimir Putin Rusiya Federasiyasının prezidenti seçildi. V. Purtindən sonra D. Medvedyev prezident seçildi və V. Putin baş nazir oldu. Hal hazırda V. Purtin prezident



D. Medvedyev baş nazır postunu tutur.

**Azərbaycan – Rusiya münasibətləri.** Qısa tarixi məlumat: Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlər 4 aprel 1992-ci il tarixində Bakıda imzalanmış müvafiq protokol əsasında qurulmuşdur. 1992-ci ildə Azərbaycanın Rusiyada, Rusiyanın isə Azərbaycanda səfirlikləri öz fəaliyyətinə başlamışdır. 2011-ci ilin oktyabr ayında Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələrinin Azərbaycana press-turu təşkil olunmuşdur. Bu press-tur nəticəsinə Rusiya kütləvi informasiya vasitələrində ölkəmiz barədə müsbət məzmunlu məqalələr silsiləsi çap edilmişdir. http://www.mfa.gov.az/

**İstifadə olunmuş ədəbiyyat:**


1. Анисимов Е. История России от Рюрика до Путина. Люди. События. Даты. М., 2007
2. Орлов А. С. История России .М. 1997


**XVIII mövzu:** Qafqaz xalqları 1917-1918-ci illərdə

1. Fevral burjua inqilabından sonra qafqaz xalqlarının həyatlarında baş vermiş dəyişiklər
2. Oktyabr çevrilişinin qafqaz xalqların həyatına təsiri
3. Ermənilərin 1918-ci ildə regionda törətdikləri soyqırımlar

Bu mövzunu öyrənmək üçün ilk növbədə 1917-ci il fevral-burjua inqilabından sonra qafqaz regionda yaranmış ictimai-siyasi və iqtisadi vəziyyət təlil edilməlidir.

Fevral burjua inqilabından sonra çar II Nikolay hakimiyyətdə devrildi və knyaz Lvovun başçılıq etdiyi müvəqqəti hökümət hakimiyyətə gəldi. 9 mart 1917-Rusiya imperiyasının Müvəqqəti Hökuməti Qafqazda çar idarəçilik sisteminin-canişinliyin ləğv edilməsi barədə qərar verib. Bunun əvəzində Cənubi Qafqazdan Rusiya Dövlət Dumasına seçilmiş deputatlardan ibarət yeni qurum-Zaqafqaziya Xüsusi Komitəsi yaradılıb. Ümumrusiya Müəssislər Məclisinə

seçkilər 1917-ci ilin noyabrında, bolşevik çevrilişindən sonra keçirilmişdi. Lakin bolşeviklər bu seçkilərdə faktiki olaraq uduzduqları üçün (o cümlədən Cənubi Qafqazda) Müəssislər Məclisinin fəaliyyətə başlamasına imkan vermədilər.

Rusiyada 1917-ci il oktyabr çevrilişindən sonra yaranmış sovet rejimi tanımayan Xüsusi Cənubi Qafqaz Komitəsi devrildi. Noyabr ayının 15-də Cənubi Qafqazı idarə etmək üçün Tiflisdə Zaqafqaziya (Cənubi Qafqaz) Komissarlığı təşkil edildi. Komissarlığın sədri gürcü menşeviki Y.P.Gegeçkori idi. Cənubi Qafqazın hər üç milləti bu qurumda təmsil olunmuşdu. Bu hökumət Rusiyada yaranmış hakimiyyəti tanımayaraq özünü "müstəqil Zaqafqaziya hökuməti" elan etmişdi. Xarici gərginlik və daxili fikir ayrılıqları Komissarlığın fəaliyyətini çətinləşdirirdi. Zaqafqaziya Komissarlığı vəziyyəti sabitləşdirmək üçün dekabrın 5-də Ərzincanda Osmanlı dövləti ilə barışıq sazişi imzaladı. Ərzincan sazişinə əsasən Qafqaz cəbhəsindən rus qoşunları geri çəkilməyə başladı. Cəbhədən qayıdan rus ordusu öz silah və hərbi sursatını erməni və gürcü hərbi hissələrinə, Bakı bolşeviklərinə vermişdi. Azərbaycan fraksiyasının səyi nəticəsində Zaqafqaziya Komissarlığının qərarı ilə Şəmkir stansiyasında yerləşən rus polkunun tərk-silah olunması başlandı. Rus əsgərlərinin müqavimət göstərməsi 1918-ci ilin yanvar ayında tərəflər arasında toqquşma ilə nəticələndi. Hər iki tərəfdən ölənlər və yaralananlar oldu. Bakı Sovetinin rəhbərliyi və bolşevik mətbuatı Şəmkir hadisələrindən müsəlman əhalisini tərk-silah etmək, milli qırğın törətmək, şəhəri müsəlman "əksinqilabçılarından" təmizləmək üçün istifadə etdilər. Zaqafqaziya Komissarlığının sabitlik yaratmaq səyləri onu böhrandan xilas edə bilmədi. Nəhayət, 1918-ci il fevralın əvvəllərində o, istefaya getməli oldu. Bundan sonra Cənubi Qafqazdan seçilmiş deputatlar regional parlament (Seym) yaratmaq qərarına gəldilər. Müəssislər Məclisinə seçilmiş azərbaycanlı (müsəlman), gürcü və erməni deputatlar Tiflisdə toplaşaraq 14 fevral 1918-ci il tarixdə Cənubi Qafqaz (Zaqafqaziya) Seymini yaratdılar. Seymin 44 nəfərlik müsəlman fraksiyası Zaqafqaziya müsəlman parlamenti funksiyasını (Cənubi Qafqaz üzrə 1 milyon müsəlman seçicini təmsil edirdi) yerinə yetirirdi. 23 fevral 1918-ci il tarixdə Tiflisdə Zaqafqaziya Seyminin ilk iclası keçirilib. Seymdəki üç əsas partiya – gürcü sosial-demokratlar (menşeviklər) 32, «Müsavat» partiyası 30, ermənilərin «Daşnaksütyun» partiyası 27 deputatla təmsil olunmuşdu. Bundan savayı, Seymdə gürcü və ermənilərin bir neçə kiçik partiyası, həmçinin azərbaycanlı (müsəlman)



deputatların "İttihad", "Hümmət", müsəlman sosialistlər qrupları (14 nəfər) yer almışdı. Azərbaycanlı deputat fraksiyasına (44 nəfər) «Müsavat»ın lideri M. Ə. Rəsulzadə başçılıq edirdi. Lakin hələ ZDFR qurulmamışdı. 3 mart 1918-ci ildə Brest sülhündən sonra seymin legitimliyi sual altında qalmışdı. Beləki, sülhə görə Osmanlı imperiyası Batumi, Qars və Ərdahanı geri qazanmışdı. Lakin bu torpaqlar faktiki olaraq Zaqafqaziya seyminin ərazisi idi və bunun üçün 14 martda ayrıca Trabzon sülh konfransı başladıldı. Erməni və gürcü nümayəndələri seymin ərazi bütövlüyünü müdafiə etsə də, Azərbaycan nümayəndələri torpaqların Osmanlıya verilməsini təklif edirdi. Seymin başqanı Akaki Çxenkeli Brest sülhü şərtləri ilə razılaşıb torpaqları verməyi məsləhət görsə də seym səs çoxluğu ilə 13 aprel 1918-ci ildə Osmanlı imperiyasına qarşı müharibə elan etdi. Osmanlı ordusu sürətlə Batumi və Ərzurumu geri alsa da Qarsda dayandı. 22 apreldə seym və Osmanlı imperiyası arasında atəşkəs sazişi imzalandı və Zaqafqaziya Demokratik Federativ Respublikası (ZDFR) rəsmən elan edildi. Hökümətin tərkibi:Baş nazir və xarici işlər naziri - Akaki Çxenkeli, Daxili işlər naziri - Noe Ramişvili, Maliyyə naziri - Aleksandr Xatisyan, Dəmiryolları naziri - Xudadad bəy Məlikaslanov, Ədliyyə naziri - Fətəli xan Xoyski, Müharibə naziri - Q.T.Qeorqadze, Kənd Təsərrüfatı naziri - Noe Xomeriki, Təhsil naziri - Nəsib bəy Yusifbəyli, Ticarət və Sənaye naziri - Məmmədhəsən Hacınski, Ərzaq naziri - A.İ.Saakyan, Dövlət xeyriyyəsi naziri - Ovannes Kaçaznuni, Əmək naziri - A.A.Erzinkyan, Dövlət nəzarəti naziri - İbrahim Heydərov.

ZDFR aşağıdakı inzibati ərazi hissələrindən ibarət idi: Bakı quberniyası, Yelizavetpol quberniyası, İrəvan quberniyası, Tiflis quberniyası, Kutaisi quberniyası, Batum oblastı, Qars oblastı, Qərbi Ermənistan idarəsi, Zaqatala dairəsi, Suxumi dairəsi

**İstifadə olunmuş ədəbiyyat**


1. Svitoxovski T. Rusiya və Azərbaycan: Dəyişən sərhədlər / Russia and Azerbaijan: A borderland in transition (1995)
2. Svitoxovski T. Rus Azərbaycanı, 1905-1920: Müsəlman cəmiyyətində milli mənliyin formalaşması / Russian Azerbaijan, 1905-1920: The Shaping of a National Identity in a Muslim Community (1985)

3. Paşazadə A. Qafqazda Islam. Bakı 1991, s.157
4. Рустамова –Тогиди С. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Баку 2009
5. Zülfüqarlı M.P. Şamaxı soyqırımı – 1918. SHAMAKHİ GENOCİDE 1918. Bakı 2011

**XIX mövzu:** Zaqafqaziya Seyminin dağılmasından sonra cənubi Qafqazda müstəqil respublikaların yaranması.

1. Zaqafqaziya Seyminin cənubi Qafqaz xalqlarının həyatındakı rolu
2. Zaqafqaziya Seyminin dağılmasının səbəbləri
3. Zaqafqaziya Seyminin dağılmasından sonra Gürcüstan, Azərbaycan və Ermənistan Respublikalarının yaranması.
4. Batum müqaviləsinin (4 iyun 1918-cil) region üçün əhəmiyyəti

26 may 1918 – Tiflisdə Zaqafqaziya Seyminin son iclası keçirildi. Gürcü heyəti Zaqafqaziyanı vahid dövlətdə birləşdirməyin qeyri-mümkün olduğunu bildirərək federasiyadan çıxdıqlarını elan edilər. Azərbaycan heyəti buna etiraz etməyib və Seymin buraxılması, Zaqafqaziya Federativ Respublikasının ləğvi barədə qərar qəbul olundu. Zaqafqaziya Federasiyasının cəmi bir ay mövcud olmasının əsas səbəblərindən biri də erməni tərəfin həm Azərbaycana, həm də Gürcüstana ərazi iddiaları idi. 27 may 1918 – Zaqafqaziya Seyminin süqutundan sonra qurumun azərbaycanlı deputatları Tiflisdə fövqəladə iclas keçirərək Azərbaycanın müvəqqəti Milli Şurasını yaratdılar. Azərbaycanın ilk parlamenti kimi fəaliyyətə başlayan 44 nəfərlik Milli Şuranın sədri Məhəmmədəmin Rəsulzadə («Müsavat»), müavini Əhməd bəy Ağayev, İcraiyyə Komitəsinin (hökumətin) sədri isə Fətəli xan Xoyski (bitərəf) seçildi. 28 may 1918 - Azərbaycan və Ermənistanın müstəqilliyi elan edildi.

**Azərbaycan Xalq Cümhuriyyəti**

Azərbaycan Xalq Cümhuriyyəti 27 may 1918-ci ildə Tiflis şəhərində Azərbaycan Milli Şurası tərəfindən bəyan edilmişdir. İrəvan şəhəri və quberniya əraziləri güzəştə gedildikdən sonra 1918-ci il mayın 28-də özünün müstəqilliyini elan edən Azərbaycan Cümhuriyyətinin ərazisi 99908,86 km² təşkil edirdi.



13983,1 km² ərazi isə mübahisəli ərazi kimi qəbul olunaraq gələcək danışıqlar prosesində həll olunması nəzərdə tutulmuşdu. Ermənistana güzəşt edilən İrəvan quberniyasının (29 may 1918-ci ildə güzəşt edilmişdir) ərazisi 8913,17 km² (ərazisi – Yeni-Bəyazid qəzası, İrəvan qəzasının 3/5-i, Eçmiədzin qəzasının ¼-i, Aleksandropol qəzasının ¼-i daxil idi . Edilən güzəştdən sonra ermənilər Azərbaycanın Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilənin Ermənistana birləşdirilməsi iddiası ilə çıxış etdilər. Lakin 1918-1920-ci illərdə İrəvan quberniyasından başqa əraziləri ələ keçirə bilməyən ermənilər 1920-ci il aprelin 28-də, Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra bolşeviklərin himayəsi ilə yeni ərazilər əldə etməyə nail oldular.

**Gürcüstan Demokratik Respublikası**

Rusiya İmperiyasının 1917-18 illərdə dağılması nəticəsində yaranmış və Zaqafqaziya Seyminin süqutundan sonra, 1918-ci ilin 26 may tarixində istiqlaliyyətini bəyan edən GDR-in paytaxtı Tiflis şəhəri rəsmi dili isə Gürcü dili olmuşdur. GDR dövründə Gürcüstanın ərazisi təxminən 107.600 km², əhalisi - 2,5 milyon, sərhədləri şimalda Kuban Xalq Respublikası və Şimalı Qafqaz Dağlılar Respublikası ilə, cənubda Osmanlı İmperiyası və Ermənistan Demokratik Respublikası ilə, cənub-şərqdə isə Azərbaycan Demokratik Respublikası ilə olmuşdur.

GDR demokratik parlament respublikası üsulu ilə idarə edilmişdir. Parlamenti müxtəlif siyasi partiyalardan ibarət olsa da, hökuməti əsasən aparıcı qüvvə olan Gürcüstan Sosial-Demokrat Menşevik partiyası təşkil etmişdir. Daxili və xarici ixtilaflarla zəyifləmiş Gürcüstanın ilk demokratik dövləti 1921-ci il mart ayında sovet Rusiyası qoşunlarının işğalı nəticəsində süquta uğramışdır.

**Ermənistan Demokratik Respublikası**

Bəzi mənbələrdə "İrəvan respublikası" və "Ararat respublikası" kimi də adlanır. 1918-1920-ci illərdə mövcud olmuş erməni dövləti. EDR Zaqafqaziya Demokratik Federativ Respublikasının dağılmasından sonra Daşnaksütun təşkilatının liderləri tərəfindən yaradılmışdır. EDR fəaliyyət göstərdiyi 2 il ərzində, daim öz ərazilərini genişləndirmək siyasəti yürütmüşdür. Bu respublika yarandığı gündən süqut etdiyi günə kimi demək olar ki, bütün qonşularına qarşı torpaq iddiaları ilə çıxış edirdi. Ərazi iddialarının nəticəsi olaraq mövcud olduğu iki il ərzində Ermənistan qonşuları olan Azərbaycan, Türkiyə və Gürcüstan ilə

hərbi münaqişələr yaşamışdır. 29 noyabr 1920-ci ildə rus sovet ordusu İrəvan şəhərini işğal edərək EDR-in fəaliyyətinə son qoyulmuşdur. 1918-ci il mayın 26-da Gürcüstan Zaqafqaziya Seyminin tərkibindən çıxmaq haqqında qərar qəbul etdikdən sonra, həmin ayın 28-də Azərbaycandan olan deputatlar Azərbaycanın müstəqilliyi haqqında bəyannamə qəbul etdilər. Maraqlıdır ki, ermənilər Azərbaycan Xalq Cümhuriyyətinin hansı ərazilərdə elan ediləcəyini gözləyirdilər. Onlar Azərbaycan Milli Şurasına müraciət edərək Aleksandropolun türk ordusu tərəfindən tutulduğunu qeyd edir və İrəvanın siyasi mərkəz kimi ermənilərə güzəştə gedilməsi məsələsini müzakirə etməyi təklif edirlər. Müzakirələrdən sonra İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz zərurət, Azərbaycan xalqı üçün isə qaçılmaz acı bir bəla olduğu Milli Şura üzvləri tərəfindən etiraf edilir. Bu baxımdan Fətəlixan Xoyskinin Ermənistan hökuməti başçısının məktubuna verdiyi cavabla bağlı onun Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.H.Hacinskiyə 1918-ci ilin mayın 29-da göndərdiyi məktub çox maraqlıdır. Fətəlixan məktubunda yazırdı ki: "Biz ermənilərlə bütün mübahisələri qurtarmışıq və onlar bizim ultimatumumuzu qəbul edəcəklər və müharibə qurtaracaqdır. Biz İrəvanı ermənilərə güzəştə getdik".

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan Cümhuriyyəti (1918 -1920) /B.: Elm, 1998.- 336 s.
2. Azərbaycan Xalq Cümhuriyyətinin milli siyasəti /Tərtib ed. və elmi red. Vaqif Arzumanlı.- B.: Qartal, 1998.-200 s.
3. Seyidzadə, D. Azərbaycan XX əsrin əvvəllərində:Müstəqilliyə aparan yollar.- B.: Azərb. Res. Kitab cəm.,1998.- 253 s.
4. Süleymanov, M. Azərbaycanda türk şəhidlikləri.- B.: Hərbi nəşriyyat, 2000.- 172 s.
5. Əhmədov, T. Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920-ci illər) - B.:Şirvannəşr, 2001.- 32 s.
6. Вачнадзе М., Гурули В., Бахтадзе М. История Грузии (с древнейших времен до наших дней) Тбилисский государственный университет, 1993.
7. Svitoxovski T. Rusiya və Azərbaycan: Dəyişən sərhədlər / Russia and





Azerbaijan: A borderland in transition (1995)
8. Svitoxovski T. Rus Azərbaycanı, 1905-1920: Müsəlman cəmiyyətində milli mənliyin formalaşması / Russian Azerbaijan, 1905-1920: The Shaping of a National Identity in a Muslim Community (1985)
9. Bəhramov C. "Buraxılmış səhvin acı nəticələri". "Xalq qəzeti", 8 fevral 2008


**XX mövzu:** Gürcüstan və Ermənistan Sovet Sosialist Respublikaları

1. XI ordunun işğalçı yürüşü nəticəsində Gürcüstan və Ermənistanın müstəqilliyinə son qoyulması.
2. Gürcüstan və Ermənistan sovet hakimiyyəti illərində
3. SSRİ-nin dağılması ərəfəsində Gürcüstan və Ermənistanda ictimai-siyasi vəziyyət

1918-ci ilə 1921-ci illər arasında Gürcüstan müstəqil respublika idi. 1921-ci ildə rus ordusu Gürcüstana daxil olub, müstəqilliyi ləğv etdi və SSRİ-nin tərkibində Gürcüstan Sovet Sosialist Respublikası yaradıldı. 1922-1936-cı illərdə Gürcüstan Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasına daxil idi. 1991-ci ildən bəri Gürcüstana Respublikası müstəqil ölkədir.

Ermənistan SSR-i əsasən İrəvan quberniyasına, qismən Yelizavetpol quberniyasına, Tiflis quberniyasına və Qars vilayətinə daxil olan ərazilər hesabına yaradılıb. Erməni müəllif Bədəlyanın 1953-cü ildə İrəvanda nəşr edilən «Rusiya tərəfindən birləşdirilməsindən günümüzədək Ermənistan əhalisi» adlı kitabının 51-ci səhifəsində verilən məlumatlara əsasən 1886-cı ildə aparılmış kameral sayımın nəticələri və həmin tarix üçün inzibati-ərazi bölgüsü nəzərə alınarsa ərazi olaraq İrəvan quberniyasının İrəvan qəzasının 90.40%-i, Aleksandropol qəzasının 100.00%-i, Yeni Bəyazid qəzasının 100.00%-i, Eçmiədzin qəzasının 100.00%-i, Şərur-Dərələyəz qəzasının Dərələyəz şöbəsi 100.00%-i, Naxçıvan qəzasının 5.40%-i, Yelizavetpol quberniyasının Zəngəzur qəzasının 59.60%-i, Qazax qəzasının 44.50%-i, Tiflis quberniyasının Borçalı qəzasının 35.30%-i, Qars vilayətinin Qars dairəsinin 14.70%-i Ermənistan SSR-in tərkibinə daxil olmuşdur.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Багратиони Д. История Грузии. Тб. Мецниереба. 1971
2. Вачнадзе М., Гурули В., Бахтадзе М. История Грузии (с древнейших времен до наших дней) Тбилисский государственный университет. 1993.
3. Erməni iddialarının «Sovet dövrü» Bakı – 2009

**XXI mövzu:** Müasir dövrdə Gürcüstan və Ermənistan Respublikalarının daxili və xarici siyasəti

1. Gürcüstan Respublikasının daxili və xarici siyasəti
2. Gürcüstanın xarici siyasətində qərbə inteqrasiyanın təsiri.
3. Ermənistanın daxili və xarici siyaətində Rusiya amilinin rolu
4. Ermənistan Respublikasının işğalçı siyasətinin regionda yarandığı problemlər

**Gürcüstan**

Gürcüstan ərazisində mövcud olmuş İberiya və Kolxida dövlətləri 337-ci ildə xristianlıq qəbul ediblər. XI əsrdə Bizans və ərəb idarəsindən qurtaran gürcü məlikləri torpaqlarını birləşdirib müstəqil Gürcü çarlığını yaratdılar. XIII əsrdən başlayaraq fasilələrlə monqol-tatarlar, Səfəvilər, Əfşarlar, Osmanlılar və s. dövlətlər tərəfindən idarə olunuşdur. 1783-cü ildə gürcü Kartli-Kaxeti şahı İrakli II Rusiya ilə Georgievsk müqaviləsini imzaladı. 1801-ci ildə Gürcüstan Rusiya tərəfindən işğal edildi. 1810 Rusiya qərbi gürcü İmereti də özünə tabe etdi. 1918-ci ilə 1921-ci illər arasında Gürcüstan müstəqil respublikası mövcud olmuşdur.

1921-ci ildə rus sovet ordusu Gürcüstanı işğal edib və 70 il sovet rejiminin hakimiyyəti altında olub. 1991-ci ildən bəri Gürcüstana Respublikası müstəqil ölkədir.

Gürcüstan 2 muxtar respublikadan və 9 diyardan ibarətdir. Muxtar respublikalara Acarıstan və Abxaziya aiddir. Onların hər ikisi Sovet dövründə yaradılmış və müasır Gürcüstan Konstitutsiyası tərəfindən tanınırlar. Separatist Cənubi Osetiya isə administrativ olaraq Şida Kartli regionuna daxildir. Digər 9 region isə Quriya, İmeretiya, Kaxetiya, Yuxarı Kartli, Mtsxeta-Mtianeti, Raça-



Leçxumi və Kvemo Svaneti, Sameqrelo-Zemo Svaneti, Samtsxe-Cavaxeti, Aşağı Kartli regionlarıdır. Bu regionlar özləri də inzibati olaraq 72 rayona bölünürlər. 2008 – ci ilin avqustda baş verən Rusiya-Gürcüstan müharibəsindən sonra Rusiya Federasuyası Abxaziya və cənubi Asetiyanın müstəqilliyini tanımaqla separatçılara dəstək vermişdir.

2013-cü ilin yanvar ayının 1-ə olan rəsmi məlumata əsasən Gürcüstan əhalisi 4483.8 min nəfər təşkil etmişdir ki, onun da 2410.8 min nəfəri şəhər və şəhər tipli qəsəbələrdə, 2073 min nəfəri kəndlərdə yaşayır. Ümumi əhalinin 762.9 min nəfərini 0-14 yaşlarda olanlar, 3100.2 min nəfərini 15-64 yaşda olanlar, 620.7 min nəfərini isə 65 və daha yuxarı yaşda olanlar təşkil edir. Əhalinin sayında Abxaziyada və Cənubi Osetiyada yaşayan insanlar nəzərə alınmayıb.

Əhalisinin sayına görə Gürcüstanda ən böyük şəhər 1.1 milyon əhalisi olan paytaxt Tbilisidir. İkinci böyük şəhər isə İmeretiya regionunda yerləşən 188.000 əhalisi olan Kutaisidir. Lakin son illərdə Gürcüstanda şəhərlərin demək olar ki, hamısının əhalisi azalmaqdadır. Belə ki, 1989-cu ildə Tbilisi əhalisi 1.250.000 nəfər idi, həmçinin Kutaisinin əhalisi də həmin ildə 232.000 nəfər olsa da, 2009-cu ildə onun da əhalisi azalmışdır.

**Gürcüstan azərbaycanlıları** — Gürcüstan hüdudlarında tarixən yaşayan azərbaycanlıların icması. Gürcüstanda yaşayan azərbaycanlıların etnik tərkibini Qarapapaqlar, Qıpçaqlar, Saklar, Gögərlər və digər türkdilli tayfalar təşkil edir. Hazırda azərbaycanlılar əsasən Gürcüstanın Borçalı (Kvemo Kartli), Kaxeti və Msxeta-Mtianeti bölgələrində, Acarıstan MR-da, həmçinin Tbilisi, Rustavi və Aqara şəhərlərində tarixən kompakt şəkildə yaşayırlar. 2007-ci ilə olan təxminə əsasən sayları 360,000 nəfərdir .

Gürcüstan 1993-cü ildə MDB-yə daxil olub. 2008-ci ilin avqust müharibəsi zamanı qurumu tərk etdiyini bəyan edib. Rəsmi olaraq Tiflis 2009-cu ildən MDB-dən çıxıb. Buna baxmayaraq Gürcüstan MDB daxilində imzalanmış 75 beynəlxaq və ikitərəfli sazişlərin iştiirakçısı kimi qalırdı. Hazırda belə sazişlərin yalnız 30-u qalıb.

Gürcüstanın azərbaycanlılar yaşayan əraziləri

Bu gün Gürcüstanın bir çox bölgəsində və iri yaşayış məntəqələrində azərbaycanlılar kompakt şəkildə məskunlaşıblar. Azərbaycanlılar əsasən Borçalı (Kvemo-Kartli) və Kaxeti regionlarında cəmləşiblər. Hazırda Tiflisin Meydan,

Ortaçala, Vera, Vaşlıcuvar, Saburtalo, Sanzona və Varketili massivlərində kompakt şəkildə yerləşməkdədirlər.

Hazırda azərbaycanlılar Gürcüstanın Marneuli, Bolnisi, Qardabani, Dmanisi, Laqodexi, Saqeredjo rayonlarının ümumilikdə 196 kəndində, habelə Kaspi, Telavi, Tbilisi, Rustavi, Batumi şəhərlərində kompakt halda yaşayırlar.

**Azərbaycan - Gürcüstan münasibətləri**

Qısa tarixi məlumat: Azərbaycan Respublikası ilə Gürcüstan arasında diplomatik əlaqələr 18 noyabr 1992- ci ildə yaradılmışdır. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstanın, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycanın səfirlikləri açılmışdır. Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Azər Hüseyn (20.04.2011-ci ildən), Gürcüstanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri isə Teymuraz Şaraşenidzedir (17.01.2011-ci ildən). Azərbaycan Respublikasının Batumi şəhərində Baş Konsulluğu 2010-cu ildə fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının Batumi şəhərində Baş Konsulu Hüseyn Nəcəfovdur. Yüksək səviyyəli qarşılıqlı səfərlər (2004-cü ildən etibarən) : Dövlət başçıları: 2004-cü il 4-5 mart - Prezident M.Saakaşvilinin səfəri 2004-cü il 14-15 iyun -Prezident İ.Əliyevin səfəri 2005-ci il 24-25 may - Prezident M.Saakaşvilinin səfəri 2005-ci il 12 oktyabr - Prezident İ.Əliyevin səfəri 2007-ci il 7 fevral - Prezident İ.Əlyevin səfəri 2007-ci il 12 may - Prezident İ.Əliyevin səfəri 2007-ci il 18-19 iyun - Prezident M.Saakaşvilinin səfəri 2007-ci il 21 noyabr -Prezident İ.Əliyevin i səfəri 2008-ci il 1 iyul - Prezident İ.Əliyevin səfəri 2008-ci il 24 oktyabr - Prezident M.Şaakaşvilinin səfəri 2008-ci il 13-14 noyabr -Prezident M.Saakaşvilinin səfəri 2009-cu il 20-22 may - Prezident M.Saakaşvilinin səfəri 2010-cu il 18 iyul - Prezident İ.Əliyevin səfəri 2010-cu il 14 sentyabr - Prezident M.Saakaşvilinin səfəri 2012-ci il 6-7 mart - Prezident M.Saakaşvilinin səfəri 2012-ci il 29 iyun - Prezident M.Saakaşvilinin səfəri 27 fevral 2013-cü il - Prezidenti M.Saakşvilinin səfəri 06 mart 2013-cü il - Prezidenti M.Saakşvilinin səfəri Hökumət başçıları: 2005-ci il 3 iyun - Baş Nazir A.Rasi-zadənin səfəri 2006-cı il 5 iyul - Baş Nazir Z.Noqaydelinin səfəri 2006-cı il 16 avqust - Baş Nazir A.Rasi-zadənin səfəri 2006-cı il 30 noyabr - Baş Nazir Z. Noqaydelinin səfəri 2006-cı il 25 dekabr - Baş Nazir Z.Noqaydelinin səfəri 2007-ci il 4 aprel - Baş Nazir Z.Noqaydelinin səfəri 2007-ci il 27 sentyabr - Baş Nazir Z.Noqaydelinin səfəri 2008-ci il 13 mart - Baş Nazir L.Qurqenidzenin səfəri 2008-



ci il 16 mart - Baş Nazir A.Rasi-zadənin səfəri 2008-ci il 4 dekabr - Baş Nazir A.Rasi-zadənin səfəri 2009-ci il 1-2 iyun - Baş Nazir N.Gilaurinin səfəri 2010-cu il 23 iyul - Baş Nazir N.Gilaurinin səfəri 2011-ci il 20 dekabr - Baş Nazir A.Rasi-zadənin səfəri 2012-ci il 16 iyul - Baş Nazir İ.Merabişvilinin səfəri 2012-ci il 24 dekabr - Baş Nazir İvanişvilinin səfəri Parlament sədrləri: 2008-ci il 19 iyun - Gürcüstan Parlamentinin sədri D.Bakradzenin səfəri Nazirlər: 2005-ci il 23 noyabr - Nazir E.Məmmədyarovun səfəri 2006-cı il 31 oktyabr - Nazir G.Bejuaşvilinin səfəri 2007-ci il 26-28 avqust - Nazir E.Məmmədyarovun səfəri 2007-ci il 31 oktyabr - Nazir G.Bejuaşvilinin səfəri 2008-ci il 22-23 dekabr - Nazir Q.Vaşadzenin səfəri 2009-cu il 1-3 aprel - Nazir E.Məmmədyarovun səfəri 2009-cu il 14-15 sentyabr - Nazir Q.Vaşadzenin səfəri 2010-cu il 07 iyul - Nazir Q.Vaşadzenin səfəri 2010-cu il 14-15 oktyabr - Nazir E.Məmmədyarovun səfəri 2011-ci il 18-19 yanvar - Nazir Q.Vaşadzenin səfəri 2011-ci il 13-14 iyun - Nazir E.Məmmədyarovun səfəri 2011-ci il 26-27 oktyabr - Nazir Q.Vaşadzenin səfəri 18-19 mart 2013-cü il - Naziri M.Pancikidzenin rəsmi səfəri 26 mart 2013-cü il - Nazir E.Məmmədyarovun səfəri Parlamentlərarası əlaqələr: Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Gürcüstan Parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun rəhbəri Qənirə Paşayevadır. Gürcüstan Parlamentində Gürcüstan-Azərbaycan Parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun rəhbəri Zurab Txemaladzedir. (01 oktyabr 2012-ci il parlament seçkilərindən sonra 2013-cü ilin mart ayında Gürcüstan Parlamentində 35 deputatdan ibarət Gürcüstan-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu yaradılmışdır) İqtisadi sahədə əməkdaşlıq: Əməkdaşlığın əsas sahələri və istiqamətləri: enerji, nəqliyyat, bank sektoru, tikinti, informasiya kommunikasiya texnologiyaları, ticarət, turizm və s. Birgə komissiyaların iclaslarının xronologiyası: -İyun 11, 2004, Tbilisi -İyul 18, 2005, Gəncə -Avqust 16, 2006, Batumi -Sentyabr 27, 2007, Bakı -Dekabr 04, 2008, Tbilisi -İyul 23, 2010, Baku -Dekabr 20, 2011, Tbilisi Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın yeddinci- sonuncu iclası 20 dekabr 2011-ci il tarixində Tbilisi şəhərində keçirilmişdir. Növbəti iclas Bakıda keçiriləcəkdir. Ticarət dövriyyəsi: 2013 cü ilin yanvar-iyun aylarında Gürcüstanın Azərbaycanla ticarət dövriyyəsi, Gürcüstanın Milli Statistika xidmətinin məlumatına görə, 606 milyon ABŞ dolları (2012- ci ilin müvafiq dövrünə nəzərən 0,03 % artmışdır) təşkil etmişdir. idxal- 273.2 mln$

ixrac- 332.8 mln$ Birgə layihə və tədbirlər: Bakı - Tbilisi - Ceyhan neft kəməri, Bakı - Tbilisi - Ərzurum qaz kəməri, Bakı - Tbilisi - Qars dəmiryol xətti, TAP, TANAP layihələri Gürcüstanın Batumi şəhərində xarici işlər nazirlərinin 3-tərəfli görüşü: 28 mart 2013 cü il tarixində Batumidə Gürcüstan, Azərbaycan, Türkiyə xarici işlər nazirlərinin üçtərəfli görüşü keçirilmiş, birgə bəyannamə imzalanmış, 2013-2015-ci illər üçün əməkdaşlıq planı qəbul edilmişdir. Əməkdaşlıq planına uyğun olaraq 3 ölkə tərəfindən hazırlanmış konkret layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bunlar əsasən iqtisadiyyat, energetika, ətraf mühitin qorunması, mədəniyyət, təhsil, idman və gənclər kimi sahələri əhatə edir. Azərbaycan Respublikasının Qəbələ şəhərində 3-cü Azərbaycan-GürcüstanTürkiyə biznes forumu: 25 may 2013-cü il tarixində Qəbələdə Azərbaycan İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Gürcüstanın "Invest in Georgia" Milli İnvestisiya Agentliyinin və Türkiyənin Xarici İqtisadi Əlaqələr Təşkilatının (DEİK) iştirakı ilə III Azərbaycan-Gürcüstan-Türkiyə biznes forumu keçirilmişdir. Tədbirdə iqtisadi inkişaf naziri Şahin Mustafayev Azərbaycan-Gürcüstan-Türkiyə əlaqələrinin strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini, ölkələrimiz arasındakı regional əməkdaşlığın örnək olduğunu vurğulamışdır. Azərbaycan Respublikasının fövqəladə hallar naziri K.Heydərovun Gürcüstana səfəri: Azərbaycan Respublikasının fövqəladə hallar naziri K.Heydərovun 1-2 avqust 2013- cü il tarixlərində Gürcüstana rəsmi səfəri çərçivəsində Gürcüstan Daxili İşlər naziri İrakli Qaribaşvili ilə görüşmüş, "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. Humanitar sahədə əməkdaşlıq: Mədəniyyət tədbirləri: 1. "Qarapapaqlar" aylıq elmi-kütləvi jurnalının nəşri davam etmişdir. 2. SOCAR şirkəti tərəfindən M.F.Axundzadənin ev muzeyi əsaslı təmirdən sonra açılmışdır. 3. M.F.Axundzadənin 200 illik yubileyinə həsr edilmiş 2 kitab nəşr edilmişdir. 4. M.F.Axundovun 200 illik yubileyi çərçivəsində Tbilisi şəhərində "Azərbaycanfilm kinostudiyası" tərəfindən çəkilmiş "Sübhün səfiri" adlı filmin təqdimatı keçirilmişdir. 5. M.F.Axundzadənin əsəri əsasında "Azərbaycanfilm" kinostudiyası tərəfindən çəkilmiş "Dərviş Parisi partladır" adlı bədii film gürcü dilinə dublyaj edilmişdir. 6. M.F.Axundovun "Hekayəti müsyö Jordan həkimi-nəbatət və dərviş Məstəli şah cadükuni məhşur" əsərinin gürcü



dilinə tərcüməsi və təqdimatı keçirilmişdir. 7. "20 Yanvar" faciəsi ilə əlaqədar Tbilisi və Rustavi şəhərlərində "Dolu" filminin nümayişi keçirilmişdir. 8. "Xocalı faciəsi" ilə əlaqədar Tbilisi şəhərində foto sərgi və "Xocalı" filminin nümayişi keçirilmişdir. 9. Tbilisi, Marneuli, Rustavi şəhərlərində Səfirliyin dəstəyi və iştirakı ilə Novruz bayramı şənlikləri keçirilmişdir. 10.Tbilisidə Marcanişvili adına Dövlət Akademik Teatrında Azərbaycan Dövlət Milli Akademik Teatrı tərəfindən səhnələşdirilmiş "Qatil" tamaşası nümayiş etdirilmişdir. 11."Əli və Nino" əsəri əsasında Temuri Andriaşvilinin rəsmlərindən ibarət illik təqvim nəşr edilmiş və onun təqdimatı Gürcüstan Milli kitabxanasında keçirilmişdir. 12.Azərbaycan kinosu günləri çərçivəsində 24-26 aprel tarixində Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı birliyi sədri Şəfiqə Məmmədovanın iştirakı ilə milli rejissorlarımız tərəfindən çəkilmiş "Milli bomba", "İlahi məxluq", "Harada bir vəkil", "Niyyət" və "Qala" filmlər nümayiş etdirilmişdir. 13.Səfirliyin və Marneuli Mədəniyyət Mərkəzinin təşkili ilə Marneuli rayonunda və Sadaxlı kəndində Heydər Əliyevin yubileyi keçirilmişdir. 14.M.F.Axundzadənin ev muzeyində Heydər Əliyevin həyatı haqqında gənc soydaşlarımıza film nümayiş edilmişdir. 15.9 May tarixində Şuşa şəhərinin işğalı ilə bağlı Dmanisi rayonunun ictimaiyyəti qarşısında "İntermedia" şirkəti tərəfindən çəkilmiş "Zaveti drujbi" sənədli film və Qarabağ müharibəsi mövzusuna həsr edilmiş "Dolu" filmləri nümayiş edilmişdir. 16.Marneuli Mədəniyyət Mərkəzinin gənc soydaşlarımıza "Dolu" filmi nümayiş edilmişdir. 17.Qardabani rayonunun ictimaiyyəti qarşısında "Zaveti drujbi" adlı film nümayiş edilmişdir. 18. Tbilisi şəhərində AR Yazıçılar Birliyinin sədri Anar Rzayevin gürcü dilində nəşr edilmiş "Dədə Qorqud" adlı kitabın təqdimatı keçirilmişdir. 19.Gürcüstan Milli muzeydə Azərbaycan rəssamlarının rəsm əsərlərinin sərgisi keçirilmişdir. 20.SOCAR şirkəti tərəfindən Gürcüstanda çox sayda fəaliyyət göstərən mədəniyyət mərkəzlərini və onların layihələrini 2013-cü ildə maliyyəşdirib. 21.SOCAR şirkəti Gürcüstan Patriarxiyasının dini layihələrini maliyyələşdirir. 22.Gürcüstan Milli Muzeyində Azərbaycan milli xalçalarının və mədəniyyətini əks etdirən sərgi keçirilmişdir. 23.Tbilisidə və Marneulidə Aşıq Kəmandarın xatirə gecəsi keçirilmişdir. Elm və təhsil: 24.SOCAR tərəfindən 500 tələbəyə təqaüd verilmişdir. İdman, səhiyyə və digər sahələr: 25.SOCAR şirkəti Gürcüstanın Futbol Federasiyasına, Gürcüstan Şahmat Federasiyasına və Milli Olimpiya Komitəsinə sponsorluq edir. 26.Qardabani rayonunun iki kəndində mini

idman meydançaları inşa edilmişdir. 27.SOCAR şirkəti tərəfindən çox sayda imkansız ailələr tibbi müalicə üçün maddi yardım alıblar. 28.Qardabani rayonu Nəzərli kəndində və Marneuli rayonu Alqeti kəndində əlil soydaşlarımıza əlil arabaları təqdim edilmişdir. 29.Marneuli rayonunun ərazisində yerləşən kəndlərin birində xəstəxana və məktəb əsaslı şəkildə təmir edilmişdir. 30.SOCAR şirkəti tərəfindən Gürcüstan qocalar və kimsəsizlər evlərinin kommunal xərclərinin ödənilir. 31.Rustavi şəhərində Heydər Əliyev parkı açılmış və Heydər Əliyevin büstü qoyulmuşdur. Müqavilə hüquq bazası: Azərbaycan Respublikası ilə Gürcüstan arasında 104 sənəd imzalanmışdır.

Link: www.azembassy.ge

http://www.mfa.gov.az/

Rusiya - Ermənistan hərbi əməkdaşlığı

Ermənistan Respublikası Sovet İttifaqının dağılmasından sonra da Qafqazda Moskvanın əsas dayaq nöqtəsi olaraq qalmışdır. Rusiya Ermənistan ilə müxtəlif sahələrdə əməkdaşlıq etməkdədir və bu sahələrdən ən önəmlisi məhz hərbi əməkdaşlıqdır. Rusiya-Ermənistan münasibətləri rəsmi olaraq 29 Dekabr 1991-ci ildə "Dostluq, əməkdaşlıq və təhlükəsizlik" müqaviləsi imzalanması ilə başlamışdır. Ermənistan və Rusiya arasında Kollektiv Təhlükəsizlik Müqaviləsi ilə başlayan hərbi əlaqələr Ermənistan sərhədlərinin rus hərbçiləri tərəfindən qorunmasına dair 30 Sentyabr 1992-ci il tarixli müqavilə ilə ikitərəfli səviyyədə həyata keçirilməyə başlanılmışdır. Ermənistan və Rusiya arasında 21 oktyabr 1994-cü ildə imzalanan müqaviləyə əsasən Rusiyaya Gümrü və İrəvanda olmaqla iki hərbi baza qurmasına icazə vermişdir. 2010-cu il avqust ayında 1995-ci il Rusiya-Ermənistan ikitərəfli müdafiə müqaviləsini yenidən gözdən keçirərək Gümrüdə Rusiya hərbi bazasının icarə müddəti 2044-cü ilə qədər uzadıldı.

**Azərbaycan -Ermənistan münasibətləri: müasir durum**

Ermənistanın regiondakı bugünkü rolu, ötən əsrin əvvəlində çar Rusiyası parçalanandan sonra ermənilərin bölgədə tutduğu mövqeni və göstərdiyi fəaliyyəti xatırladır. Cənubi Qafqaz ölkələrindən birinin (Azərbaycan) ərazisinin 20 faizini işğal etmiş və digər dövlətə (Gürcüstan) qarşı da qeyri-rəsmi formada ərazi iddiaları irəli sürən Ermənistan, regionda qeyri-sabitliyin əsas mənbəyinə çevrilib. Rusiya ilə hərbi-siyasi müttəfiqlikdən istifadə edən bu ölkə uzun illər yeritdiyi işğalçı siyasətə görə məsuliyyətdən kənarda qala bilmişdir. Lakin bu gün



regionda yaranmış yeni geosiyasi durum, terrorizm və ekstremizmlə mübarizənin bütün dünya üçün prioritetə çevrilməsi onun bölgədəki mövqeyinə də öz təsirini göstərməkdədir.

Ermənistanın regionda ikitərəfli münasibətlərin inkişafına xüsusi əhəmiyyət verdiyi ölkə Rusiya və İrandır. Hərbi və iqtisadi sahədə daha çox Rusiyaya sığınan Ermənistan üçün coğrafı baxımdan İranla əlaqələr də mühüm əhəmiyyət kəsb edir. Çünki Türkiyə və Azərbaycanla sərhədi bağlı saxlanılan və hərbi-siyasi müttəfiqi Rusiya ilə sərhədə malik olmayan Ermənistan İranı «həyat dəhlizi» adlandırır. Orta Asiya, Çin və Yaxın Şərqə məhz İran vasitəsilə yol tapan Ermənistan üçün Tehranla əlaqələrin zəifliyi tamamilə təcrid olunmaq deməkdir. Bundan başqa, Ermənistan Tehranın regiondakı mövqelərinin güclənməsini ABŞ-ın köməyi ilə bölgənin əsas tranzit dövlətinə çevrilən Azərbaycanın və Türkiyənin mövqelərinin möhkəmlənməsi yolunda əsas manealərdən biri hesab edir.

Rusiya ilə Ermənistanın əlaqələri daha çox təhlükəsizlik və hərbi strateji əməkdaşlıq xarakteri daşıdığı halda İranla münasibətlər əsasən iqtisadi, enerji, nəqliyyat, kənd təsərrüfatı, maşınqayırma, yüngül və yeyinti sənayesi sahələrini əhatə edir. Hər iki ölkə Ermənistanın əsas sərmayədarlarındandır. İndiyədək Ermənistan iqtisadiyyatına qoyulmuş sərmayənin 70 faizdən çoxu məhz bu iki ölkənin payına düşür. Bu ölkədə reallaşdırılan hərbi, strateji və digər layihələr Rusiyanın, digərləri, məsələn, qaz kəmərinin çəkilişi, Mehri-Qacaran tunelinin tikintisi və başqa layihələr isə yalnız Yerevanın deyil, həm də Tehranın maraqlarına xidmət edir. Cənubi Qafqaz regiondakı proseslər və qüvvələr nisbətinin dəyişməsi nəticəsində Rusiya, Ermənistan və İran, faktiki olaraq, əsas layihələrdən kənarda qalıblar. Ermənistanı bu proseslərdə Azərbaycan, Rusiyanı öz iddiaları, İranı isə Qərb və ilk növbədə, ABŞ təcrid edib. Belə olan halda, bu üç ölkənin birgə layihələri İranla Ermənistanı beynəlxalq təcridolmadan nisbətən xilas etməyə yönəldiyi halda, Rusiya üçün sadəcə Qafqaz siyasətində Ermənistanı dəstəkləmək siyasətindən başqa bir şey deyil. Bu gün rəsmi Yerevan Rusiya və İranla sıx əməkdaşlığı da əsasən bu kontekstlərdən əsaslandırmağa çalışır. Ermənistanın rəsmi siyasəti bundan ibarətdir ki, «Türkiyə və Azərbaycanın tətbiq etdiyi blokada» şəraitində, Yerevan Rusiya və İranla hərtərəfli strateji əməkdaşlığa məhkumdur. Qeyd etmək lazımdır ki, uzun illər Qərbdə Moskva-Yerəevan-Tehran əməkdaşlığını təqdir etməsələr də, bu problemə göz yumublar. Lakin son bir neçə ildə dünyada və

regionda yaranmış geosiyasi vəziyyət, problemə fərqli yanaşma meyili yaradıb. 11 sentyabr hadisələrindən sonra işğalçı imici qazanmış və qlobal layihələrdən təcrid olunmuş Ermənistan «ikili oyun» oynamaq imkanından qismən məhrum olub. Bir neçə il əvvəl ABŞ Dövlət Departamentinin İranla qeyri-leqal əməkdaşlıqda təqsirli bilinən Ermənistanın kimya şirkətlərindən birinə qarşı sanksiyalar tətbiq etməsi və Ağ Evin İran-Ermənistan qaz kəmərinin çəkilişinə olduqca sərt reaksiya verməsi də bunun göstəricisidir. Ermənistanın üzləşdiyi problemləri, qısa olaraq, belə xarakterizə etmək olar:

1. Dünya birliyi artıq əvvəlki tək Ermənistanın işğalçı siyasətinə göz yummur, bir çox beynəlxalq təşkilatlar artıq bu faktı etiraf edir. Bu isə Ermənistanın beynəlxalq arenadakı dayaqlarının getdikcə zəifləməsi, nüfuz və imicinin itirilməsidir;

2. Beynəlxalq terrorizmlə mübarizə çərçivəsində ABŞ-la əməkdaşlıqdan imtina edə bilməyən Ermənistan, bununla paralel olaraq İran və Rusiya ilə müttəfiqlik münasibətlərini qoruyub saxlamaqda çətinlik çəkir. Rəsmi Vaşinqtonun İran-Ermənistan qaz kəməri layihəsinə qarşı sərt bəyanatla çıxış etməsi də bundan xəbər verir;

3. Türkiyə və Azərbaycanla diplomatik münasibətlərin olmaması və bütün qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrindən kənarda qalması bu ölkənin iqtisadi inkişafını və inkişaf potensialını getdikcə çox çətin vəziyyətə salır;

4. Azərbaycanın iqtisadi qüdrəti artdıqca, regional proseslərə təsir göstərmək baxımından regional liderə çevrilir;

5. Bakı-Tbilisi-Ceyhan kəmərinin açılışından sonra Azərbaycan-Gürcüstan əməkdaşlığı artıq strateji müttəfiqlik səviyyəsinə qalxıb və bu, avtomatik olaraq, Yerevanın daha bir ölkə - Gürcüstanla da münasibətlərində sərinlik yaradacaq.

6. Nəhayət, özünün işğalçı siyasəti ilə bütün beynəlxalq və regional layihələrdən kənarda qalan Ermənistan bölgənin ən zəif, lakin militarist



dövlətinə çevrilir.

Bütün bu faktorlar Ermənistanın son 15 ildə regionda yeritdiyi siyasətin nə qədər effektsiz və perspektivsiz olduğunu nümayiş etdirir. Ermənistanla Azərbaycan arasında diplomatik əlaqələr yaradılmayıb, heç bir qarşılıqlı sənəd imzalanmayıb. İki ölkə başçılarının və digər rəsmi nümayəndələrin çoxsaylı görüşləri və təmasları, bir qayda olaraq, beynəlxalq qurumlar vasitəsilə həyata keçirilib.

Erməni analitiklərinin mülahizələrinə görə, Dağlıq Qarabağ məsələsi Gürcüstanın da mənafeyi baxımında diqqəti cəlb edir. Belə ki, Ermənistan - Azərbaycan münaqişəsi Gürcüstanın bölgədə mövqeyini gücləndirir, onun neytral, həm də bəzi hallarda arbitr siyasəti yürütməsinə imkanlar açır. Bu məntiqlə Gürcüstan bölgədə güclənmək üçün Dağlıq Qarabağda erməni milli maraqlarına qarşı dayanmamalıdır. " Səs" qəzeti 19 aprel 2013

Eyni zamanda müqavilənin mətni də dəyişdirildi. Belə ki, müqavilədə MDB ölkələrindən başqa digər ölkələrin Ermənistana hücum edəcəyi təqdirdə Rusiyanın müdafiəsini nəzərdə tutulurdu. Bunun nəticəsi olaraq əgər Azərbaycan öz torpaqlarını qaytarmaq üçün Ermənistana hücum etsə o zaman Moskva Ermənistanı müdafiə edəcəkdir. Rusiya ilə Ermənistan arasında hərbi sahədə əməkdaşlıq KTM çərçivəsində də həyata keçirilir. 1992-ci il 15 Mayda MDB üzv dövlətlərinin Daşkənddə imzaladığı Kollektiv Təhlükəsizlik Təşkilatına daxil olmuş və 7 Oktyabr 2002-ci ildə qəbul edilən nizamnamə Ermənistan parlamenti tərəfindən imzalanmışdır. Azərbaycan və Gürcüstan isə 1994-cü ildə daxil olmuş və 1999-cu ildə isə təşkilatdan çıxmışdır. Təşkilatın nizamnaməsinə əsasən üzv dövlətlərdən birinə hücum bütün üzv dövlətlərə hücum deməkdir və əgər Ermənistana hər hansı bir dövlətdən hücum olunarsa o zaman ona yüksək səviyyədə təhlükəsizlik zəmanəti verməkdədir. 29 Yanvarın 2013-cü ildə isə Yerevanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Nikolay Bordyuja ilə Ermənistan Milli Təhlükəsizlik Şurasının katibi Artur Baqdasaryan arasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Akademiyasının yaradılması haqda memorandum imzalanmışdır. Akademiya informasiya-analitik, elmi-metodik, həmçinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının fəaliyyəti ilə bağlı mütəxəssislərin və siyasətçilərin hazırlanması mərkəzi kimi nəzərdə tutulmuşdur. Onu da qeyd edək ki, keçən il BMT-nin Rusiya və Ermənistanın daxil

olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına sülhməramlı missiyalar həyata keçirməyə icazə verdiyini açıqlayıb və istisna olunmur ki, təşkilatın ilk missiyası Xocalı aeroportunun qorunması olacaq. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Nikolay Bordüja bəyan edərək bildirmişdir ki, təşkilatın Dağlıq Qarabağ münaqişəsinə müdaxilə etməsini məqsədəuyğun olmadığını və bu Akademiyanın yalnız Ermənistanda yaradılması müəyyən məqsədlər güdməkdədir. Bütün bunlarla birlikdə Rusiya Ermənistana silah-sursat satmaqdadır. Belə ki, Rusiyadan son bir neçə ayda Ermənistana külli miqdarda silah və sursat ötürülmüşdür. Siyahıya zirehli texnika, raket sistemləri, artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri və aviasiya texnikası daxildir. Qeyd edək ki, açıqlanan siyahı son 20 ildə Rusiyanın Ermənistana hədiyyə etdiyi 3-cü kütləvi silah partiyasıdır. Birinci partiya 1996-cı ildə Rusiya hökumətinin Ermənistana uzaqvuran raketlər də daxil olmaqla, 1 milyard dollar dəyərində silah və sursat hədiyyə etdiyi ortaya çıxmışdır. İkinci isə 2008-ci ildə Rusiyanın Ermənistanın Gümrü şəhərində yerləşən 102 saylı hərbi hissəsindən Ermənistan Silahlı Qüvvələrinə silah-sursatın ötürülməsini sübut edən sənədlər yayılmışdır və Azərbaycan XİN-nin vermiş olduğu bəyanatda Rusiyanın Ermənistana vermiş olduğu hərbi texnika və sursatın dəyəri 800 milyon dollar idi.Bütün bunlar bir daha onu sübut edir ki, Rusiya Ermənistanla hərbi sahədə əməkdaşlıq etməklə Cənubi Qafqazı əlində saxlamaq istəməkdədir.
www.azxeber.com – 03.02.2013

### İstifadə olunmuş ədəbiyyat:


1. Məmmədli A.A. Ermənilərin gerçək tarixi. Bakı, 2005.
2. Ömərov V. Azərbaycan -Ermənistan münasibətləri: müasir durum. " Səs" qəzeti 19 aprel 2013
3. Zülfüqarlı M.P. Dağlıq Qarabağda erməni terrorunun izləri. Qaradağlı faciəsi. 17 fevral 1992 – ci il. Bakı 2010; Armenian terrorin nagorno-karabakh tragedy of garadaghly february 17, 1992. Baku 2010
4. Вачнадзе М., Гурули В., Бахтадзе М. История Грузии (с древнейших времен до наших дней) Тбилисский государственный университет, 1993.




## XXII mövzu: SSRİ-nin dağılması və regionda müstəqil dövlətlərin yaranması

1. Milli-azadlıq hərəkatları və SSRİ-nin dağılması
2. Azərbaycan, Gürcüstan və Ermənistanın müstəqillik əldə etməsi
3. Abxaziya və cənubi Osetiya münaqişələri. 2008-ci il Rus - Gürcü müharibəsi və onun fəsadları
4. Xəzərin hüquqi statusu məsələsinin region üçün əhəmiyyəti

Qafqaz münaqişələri

SSRİ-dən Azərbaycana və Gürcüstana 3 milli münaqişə ocağı miras qalıb. Klassik alman fəlsəfəsinin banisi olan Emanuel Kant qonşu dövlətlər arasındakı münasibətlərdə müharibəni təbii hal adlandırıb. Bu fikri oxuduqca elə düşünmək olar ki, məşhur filosof sanki Qafqazın bugünkü durumunu hələ o zaman görüb. Belə ki, Soyuq müharibədən sonrakı dövrdə Avrasiyada ən mürəkkəb etnoərazi konfliktlər məhz Qafqazda baş verib. Hal-hazırda Yaxın Şərq və İraqdan sonra Qafqaz dünyanın ən mürəkkəb, ən gərgin regionlarındandır. Postsovet məkanında baş vermiş səkkiz münaqişədən beşi məhz Qafqazda baş verib, konfliktlər nəticəsində yüz minlərlə insan həlak olub, iki milyondan çox insan öz torpaqlarından didərgin düşüb. Bunları nəzərə alaraq demək olar ki, həqiqətən də Qafqazın etnosiyasi durumunun öyrənilməsi bu gün üçün öz aktuallığı ilə seçilməkdədir. Cənubi Qafqazdakı mövcud münaqişələr, etnosiyasi konfliktlər (Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya) bir daha sübut edir ki, Qafqazda regional təhlükəsizliyin təmin olunması nə qədər çətindir.

Abxaziya konflikti

Abxaziya konflikti Cənubi Qafqazda ən gərgin və mürəkkəb münaqişə ocaqlarından biridir. Hələ sovet dövründə belə Abxaziyanın siyasi elitası Gürcüstanın tərkibindəki statusdan narazı idi. Onlar belə hesab edirlər ki, mühüm siyasi və iqtisadi qərarlar Tiflisdən abxaz tərəfinin mövqeyi nəzərə alınmadan verilir. 80-ci illərin ortalarından etibarən fəallaşan abxaz separatizminin açıq şəkil almasına təkan verən ilk insident 1989-cu ildə Abxaziya Universiteti yerində Gürcüstan Dövlət Universitetinin Suxumi filialının açılması haqqında Tiflisin qərarı oldu. Belə bir şəraitdə Abxaziya Ali Şurasının sədri Vladislav Ardzinba

Abxaziyanın de-fakto müstəqilliyini elan etdi. Bu o demək idi ki, Abxaziya ərazisində Gürcüstanın qanunları öz qüvvəsini dayandırır. 1992-ci ilin iyulunda 1978-ci il konstitusiyası ləğv edildi və yeni konstitusiya qəbul edildi ki, bu da Abxaziyanın suverenliyini elan edirdi. 1992-ci ilin avqustun 14-də Gürcüstan Abxaziyaya qoşunlarını göndərməklə münaqişənin hərbi həllinə cəhd göstərdi. Rusiya yaranmış vəziyyətdən istifadə edərək Gürcüstanla MDB-yə daxil olmaq və rus qoşunlarının Gürcüstan ərazisində müvəqqəti saxlanılması haqqında razılıq əldə etdi. Moskva tərəfləri danışıqlar masası arxasına gətirməyi qərara aldı. Bu görüşdə hərbi əməliyyatların dayandırılması, hərbi əsirlərin mübadiləsi, əhalinin və ərzağın sərbəst daşınması üçün şəraitin yaradılması və təhlükəsizliyin yaradılması üçün üçtərəfli komissiyanın yaradılması haqqında razılıq əldə olundu. Lakin Rusiyanın Abxaz separatizmini müdafiə etməsi danışıqların iflasına səbəb oldu. Gürcüstan Abxaziyanın separatçı qüvvələrini şimala sıxışdırdı, Suxumini tutdu. Vəziyyət daha da gərginləşdiyindən Moskva yenidən mediator rolunu öz üzərinə götürdü. 1993-cü ilin iyulun 27- də Soçi müqaviləsi imzalandı. Müqavilə Gürcüstan-Abxaziya-Rusiya üçtərəfli komissiyanın yaradılmasını (atəşkəs və hərbi qüvvələr üzərində nəzarətin təminatı üçün), müşahidə zonasına beynəlxalq müşahidəçilərin göndərilməsini, Gürcüstan və Abxaziya hərbi qüvvələrinin münaqişə ocağından 10-15 günə çıxarılmasını nəzərdə tuturdu. Amma Gürcüstan məsələnin yeganə həlli yolunu Moskva ilə dil tapmaqda görürdü. Bunun üçün 1993-cü ilin dekabrında Gürcüstan MDB-yə daxil oldu, 1994-cü ilin fevralında isə BMT regionda olan rus qoşunlarına beynəlxalq sülh qoruyucu qüvvəsi statusu verdi. 1994-cü ilin noyabrın 26-da Abxaziya Ali Soveti ölkəni suveren respublika elan etdi. Atəşkəsə nail olundusa da, 9 il keçməsinə baxmayaraq, danışıqlarda irəliləyişə nail olunmayıb. Abxaziyada Rusiyanın sülhyaratma qüvvələrinin yerləşdirilməsi Gürcüstanla Rusiya arasında münasibətlərin kəskinləşməsində ciddi amil olaraq qalmaqdadır.

Cənubi Osetiya konflikti

Gürcüstanda bir tərəfdən hakimiyyət uğrunda mübarizə, digər tərəfdən, Abxaziya və Cənubi Osetiyanın müstəqillik mübarizəsi son dərəcə gərgin konfliktoloji vəziyyət yaratmışdı. Konfliktin birinci tərəfi artıq 1992-ci ildə Eduard Şevardnadzenin siyasi hakimiyyətə qayıtması ilə tənzimlənsə də, Abxaziya və



Cənubi Osetiya problemi bu günədək həll olunmamışdır.

SSRİ dağıldıqdan sonra Gürcüstanda xaos baş qaldırdı. Abxaziyadan başqa, Gürcüstanın tərkibində Sovetlər dövründə respublika statusuna malik olan Cənubi Osetiya da ən gərgin münaqişə ocaqlarından biridir. 1921-ci ildən Gürcüstanın Qırmızı Ordu tərəfindən işğal edilməsi nəticəsində konflikt bolşeviklər tərəfindən süni şəkildə boğuldu, Cənubi Osetiyaya Gürcüstanın tərkibində muxtar vilayət statusu verildi və əhalisinin əksəriyyətini gürcülər təşkil edən Tsixinvali vilayətin paytaxtı elan edildi.

Lakin 1989-cu ilin avqustundan başlanan münaqişə ziddiyyətləri daha da kəskinləşdirdi. Nəticədə osetinlər tələb etdilər ki, muxtar vilayət muxtar respublikaya çevrilsin. 1990-cı ilin sentyabrın 20-də Cənubi Osetiya özünü müstəqil Cənubi Osetiya Sovet Demokratik Respublikası elan etdi. 1992-ci ilin yazında gürcü-osetin cəbhəsində hərbi əməliyyatlar gərginləşdi. Eyni zamanda Cənubi Osetiya Abxaziya kimi 1923-cü il konstitusiyasını bərpa etdiyini bildirərək, 1992-ci ilin sentyabrın 25-də Gürcüstandan ayrılmaq haqqında qərar çıxartdı. Bundan sonra Gürcüstanın hər iki keçmiş muxtar qurumunda separatçılar möhkəmlənib Gürcüstanla birləşmənin əleyhinə siyasətlərini davam etdirirlər.

Cənubi Osetiya məsələsi üzrə atəşkəs haqqında razılığa əsasən Birgə Nəzarət Komissiyası yaradıldı. Atəşkəsə nəzarət etmək üçün Komissiyanın fəaliyyətini uğurlu saymaq olar. 1992-1995-ci illərdə vəziyyət tamamilə donduruldu. Məlumdur ki, Abxaziya konfliktində olduğu kimi, münaqişənin həlli yolları Moskvaya gedirdi. Amma Tiflis-Moskva ziddiyyətləri sülh danışıqlarını əngəlləyirdi. Lakin mühüm addım kimi 1996-cı ilin 16 mayında imzalanan gürcü-osetin tərəfləri arasında əməkdaşlığı və regionda təhlükəsizliyin təmin olunmasını nəzərdə tutan Moskva memorandumunun imzalanması oldu, 1996-cı ildə Cənubi Osetiyada keçirilən prezident seçkilərini Tiflis tanımadı, bu tərəflər arasındakı ziddiyyətləri gərginləşdirdi. Beynəlxalq vasitəçilər də bu konfliktin həllinə nail ola bilmədilər. Heç bir dövlət tərəfindən tanınmayan Cənubi Osetiya separatçı rejimi rəsmi Tiflisin nəzarətindən kənardadır və bu zona Cənubi Qafqazda potensial münaqişə ocağı olaraq qalmaqdadır.

SSRİ-nin süqutu bir tərəfdən regionda üç müstəqil dövlətin yaranması ilə nəticələnsə də, digər tərəfdən bu dövlətlərə hələ də öz həllini tapmamış 3 milli münaqişə ocağını – Abxaziya, Cənubi Osetiya və Dağlıq Qarabağı miras qoydu.

Gürcüstan ordusu ölkənin ərazi bütövlüyünü bərpa etmək üçün hərbi əməliyyata başlayarkən Rusiyanın hərbi qüvvələri buna imkan vermədi. Pekin Olimpiadası başlanan gün, 8 avqust 2008-ci ildə Rusiya Gürcüstana qarşı müharibəyə başlayıb qarşı tərəfə çoxlu itkilər versə də özü də on milyardlarla dollar iqtisadi itki ilə üzləşdi. Bundan başqa bu müharibə Rusiyanın beynəlxalq imcinə də böyük zərbə vurdu. Moskva, hətta Soçi Olimpiadasına 2008-ci il müharibəsinin itkilərilə getdi.

"Osetin faciəsi. Cənubi Osetiyaya qarşı cinayətlərin ağ kitabı" 2008-ci ildə Moskvada, "Yevropa" nəşriyyatında çap olunub. Kiril Tanayevin redaktorluğu və tərtibçiliyi ilə işıq üzü görən kitabın "tərtibçilərdən" bölümündə qeyd edilir: "Bu kitabın məqsədi Cənubi Osetiyada 7-12 avqust 2008-ci ildə baş verən hadisələr haqqında həqiqətləri sadəcə olaraq müəyyənləşdrmək deyil. Bu kitab gürcü hərbi birləşmələrinin Cənubi Osetiyada törətdikləri cinayətlərin sənədli sübutudur".

Kitabda yazılı sənədlər, hadisələrin iştirakçılarının və zərərçəkənlərin hekayətləri əksini tapıb. Rusiya Federasiyası Prokurorluğunun İstintaq Komissiyasının təhqiqat materialları əsasında tərtib olunan kitabda həmçinin, Gürcüstan, Rusiya, Cənubi Osetiya hökumət orqanlarının hüquqi aktları da yer alıb.

Münaqişənin tarixi əsası bölümündə müəllif Gürcüstanın qədim dövrlərdən XVIII əsrin sonlarınadək tarixi haqqında məlumat verir və bu zaman faktları təhrif etməkdən qətiyyən çəkinmir.

Cənubi Qafqazın Rusiya tərəfindən işğalını könüllü surətdə Rusiya ilə birləşmək kimi qəlmə verən tərtibçi, 1843-cü ildə Tiflis quberniyası tərkibində Osetin mahalının yaradıldığını, 1859-cu ildə isə onun Qori qəzasının tərkibinə verildiyini, 1921-ci ilin sentyabrında isə Cənubi Qafqaz Sovet Sosialist Respublikası kimi Gürcüstanla könüllük əsasında federativ ittifaqa girdiyini yazır.

Cənubi Osetayadakı separatizm də eynilə Dağlıq Qarabağ və Dnestryanıdakı ssenariyə uyğun gedib. 9 aprel 1991-ci ildə Gürcüstanın öz müstəqilliyini elan etməsini sovet qanunlarına uyğun olmadığını vurğulayan müəllif, 20 sentyabr 1990-cı ildə Cənubi Osetiya Sovet Demokratik Respublikasının milli suverenliyini elan etməsinə anlayışla yanaşır.

Münaqişə nəticəsində osetinlərin kütləvi surətdə Şimali Osetiyaya köçdüyünü yazan K.Tanayev, gürcü kəndlərinin sakinlərinin də Cənubi Ostiyanı



tərk etdiklərini bildirir. Maraqlıdır, əgər osetinlər Cənubi Osetiyanı kütləvi şəkildə tərk edirdilərsə, gürcülər nə üçün qaçmaq məcburiyyətində qalmışdılar?

Münaqişə dövründə həlak olan osetinlər haqqında müfəssəl məlumat verən müəllif, gürcülərin itkilərinə qətiyyən toxunmur. Ümumiyyətlə, hadisələrə birtərəfli yanaşma, hər səhifədə cənubi osetiyalıların və Rusiyanın haqlı, gürcülərin isə təcavüzkar olduğu kitabın ana xəttini təşkil edir. Hətta xarici mətbuatdan seçmələrdə də Rusiya tərəfinin mövqeyinə uyğun yazılır verilib. Prokurorluq təhqiqatında da şahidlərin adları verilmir, yalnız doğum tarixləri və yaşadıqları şəhər və kəndlərin adları sadalanır.

Gündüz Nəsibov
1905.az 19 fevral 2015

Xəzər dənizinin hüquqi statusu

Dünyada enerji ehtiyatlarına tələbatın artması Xəzər hövzəsi ölkələrini Xəzərin hüquqi statusu ilə bağlı Konvensiyanın razılaşdırılması istiqamətində danışıqlar prosesini sürətləndirməyə sövq edir. Xəzərin hüquqi statusu üzrə ümumi razılaşmanın əldə olunması yolunda bir sıra problemlər mövcuddur ki, onları araşdırmadan məsələnin həlli perspektivləri barədə bir şey söyləmək qeyri-mümkündür.

Xəzərin statusu məsələləri uzun illər Rusiya və İran arasında bağlanmış ikitərəfli müqavilələrlə tənzimlənirdi. İlk müqavilələrdə - Peterburq (1723), Rəşt (1731), Gülüstan (1813), Türkmənçay (1828) müqavilələrində Xəzərin statusu göstərilməsə də, bu sənədlərdə Rusiyaya verilən böyük imtiyazlar öz əksini tapırdı. 1921-ci il fevralın 26-da imzalanan Rusiya-İran müqaviləsində 1881-ci ildə sərhəd komissiyası tərəfindən müəyyən edilmiş sərhəd xəttinin İran və Rusiya arasında su sərhədi kimi qəbul olunması razılaşdırılır. 1935-ci ildə İran-SSRİ arasında imzalanmış "Ticarət, dənizçilik və məskunlaşma haqqında", 1940-cı ildə "Ticarət və dənizçilik haqqında" imzalanmış müqavilələrdə də Xəzərə Sovet-İran dənizi kimi baxılır.

Bütün bu müqavilələrin heç birində Xəzərin SSRİ və İranın birgə mülkiyyəti olması barədə müddəa yoxdur. Bu təcrübə müasir dövrdə kondominium prinsipinin (dənizin dibinin sahilyanı ölkələr arasında bərabər bölünməsi)

tətbiqinin mümkünsüzlüyünü göstərir. Birincisi ona görə ki, 1949-cu ildə SSRİ Xəzərdəki neft ehtiyatlarının işlənməsinə İranın iştirakı olmadan və onunla məsləhətləşmədən başlayır. O zaman İran hər hansı bir formada etirazını bildirmir. İkincisi isə hələ 1970-ci ildə SSRİ Neft Sənayesi Nazirliyi Xəzəri milli sektorlara bölür. Bölgüyə əsasən Xəzərin təqribən 70 min kv. km-i Azərbaycanın, 80-min kv. km-i Türkmənistanın, 60 min kv. km-i Rusiyanın, 105 min kv. km-i Qazaxıstanın payına düşür və 55 min kv. km-i İrana qalır. Həyata keçirilən bu bölgü ilə İran tanış edilir və bölgünün topoqrafik xəritəsi Tehrana da göndərilir. O zaman rəsmi Tehran bölgünün aparılmasına heç bir etiraz etməmişdi. Bununla yanaşı qeyd etmək lazımdır ki, tədqiq olunan məsələ ilə bağlı bütün Sovet-İran müqavilələri əsasən balıqçılıq, gəmiçilik və digər məsələləri tənzimləyirdi. Bu müqavilələrdə Xəzərin enerji resursları və onların işlənməsi barədə hüquqi vakuum var. Ona görə də Xəzərin hüquqi statusu müəyyən edilərkən sahilyanı dövlətlərin neft-qaz resurslarının istifadəsində yaranmış təcrübəsi və beynəlxalq-hüquqi təcrübənin müddəaları əsas götürülməlidir.

SSRİ-nin süqutundan sonra Xəzər dənizinin hüquqi statusuna yenidən baxılması zərurətə çevrildi. Xəzər dənizinin hüquqi statusunun təsbit edilməsinin zəruriliyini və sahilyanı dövlətlər üçün mühüm əhəmiyyətini nəzərə alaraq, Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin iclasında (Aşqabad, 11-12 noyabr 1996-cı il) Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın işlənməsi üzrə xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrup yaradıldı. Xəzəryanı dövlətlər arasında aparılan danışıqlar, məsləhətləşmələr və fikir mübadilələri onu göstərir ki, bu dövlətlərin mövqelərinin tam üst-üstə düşməməsinə baxmayaraq, bütün sahilyanı ölkələr, ümumiyyətlə, Xəzər dənizinin bölünməsi məsələsinə tərəfdardırlar.

Xəzərin dibinin bölünməsi məsələsində Azərbaycan, Rusiya və Qazaxıstan arasında qarşılıqlı iddialar yoxdur. Bu ölkələr arasında sözügedən məsələ üzrə həm ikitərəfli, həm də üçtərəfli müqavilələr mövcuddur. Tərəflər həmçinin ayırıcı xəttin koordinatının müəyyənləşdirilməsində də həmfikirdirlər. Məsələ yalnız Türkmənistan və İranla razılaşdırılmayıb. Bu səbəbdən indiyədək Xəzərin statusu hələ də müəyyənləşdirilməyib.

Xəzərin hüquqi statusunun müəyyən edilməsi prosesi ətrafında müzakirələr son aylar xüsusi aktuallığı ilə diqqəti cəlb etməkdədir. Xəzər hövzəsinə digər



dövlətlərin nüfuz etməsinə qarşı olan Rusiya tərəfi sahilyanı ölkələrə iqtisadi və hərbi əməkdaşlıqla bağlı təkliflər edir. Azərbaycan və Qazaxıstan ABŞ-ın Xəzər hövzəsi ölkələri üçün təşkil etdiyi "Xəzər keşikçisi" layihəsindən yararlandıqlarından Kremlin Xəzərdə hərbi əməkdaşlıq təklifinə "isti" yanaşmasalar da, iqtisadi əməkdaşlıqla bağlı layihələri müzakirə etməyə hazır olduqlarını bəyan edirlər. Rusiya Prezidenti Dmitri Medvedev bu yaxınlarda Xəzər İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılması təklifi ilə çıxış edib. Rəsmi Bakı Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi nəzərə alınmaqla, Xəzər İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılmasının tərəfdarıdır.

Qeyd olunduğu kimi, Xəzərin yekun hüquqi statusunu müəyyən edəcək Konvensiyanın razılaşdırılması məqsədi ilə işçi qrupların görüşü davam etdirilir. Xəzəryanı dövlət başçılarının növbəti zirvə toplantısının bu ilin sonunadək Bakıda keçirilməsi razılaşdırılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qazaxıstan, Türkmənistan, Rusiya və Azərbaycan prezidentlərinin sentyabrın 11-də Qazaxıstanın Aktau şəhərində keçirilən görüşündəki çıxışında bildirmişdir: "Əlbəttə, istərdik ki, Bakıda keçiriləcək sammitə konkret qərarlarla gedək, elə edək ki, bu sammit də Tehran sammiti kimi irəliyə doğru böyük bir addım olsun".

Xəzərin hüquqi statusunun müəyyən edilməsi məsələsini təhlil edən beynəlxalq araşdırma mərkəzləri son vaxtlar Türkmənistanın addımlarının status məsələsinin dalana dirənməsinə, tərəflər arasındakı anlaşılmazlıqların daha da dərinləşməsinə gətirib çıxara biləcəyini ehtimal edirlər. Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədovun Xəzərdəki mübahisəli yataqlarla bağlı Azərbaycanın iddialarını və xarici neft-qaz şirkətlərinin onların kəşfiyyatı və işlənməsində iştirakının qanuniliyini öyrənmək üçün nüfuzlu beynəlxalq ekspertlərə, yüksək səviyyəli hüquqşünaslara müraciət etməsini, sonra isə hazırlanmış sənədləri Beynəlxalq Arbitraj Məhkəməsinə göndərmək barədə tapşırıq verməsini, bir müddət öncə isə Dövlət Təhlükəsizlik Şurasının geniş iclasında ölkədə qısa müddət ərzində Xəzərdə Müdafiə Nazirliyi və Sərhəd Xidmətinin hərbi dəniz bazasının yaradılması barədə göstərişini beynəlxalq təhlilçilər bölgədə gərginliyin artması yolunda ciddi zəmin kimi dəyərləndirirlər.

Dövlət Təhlükəsizlik Şurasının iclasında Prezident Yanında Xəzər Məsələləri üzrə Dövlət Müəssisəsinin sədri Toylı Komekov iyulun 15-17-

də Bakıda Xəzərin dibinin bölünməsi ilə bağlı Türkmənistan-Azərbaycan danışıqlarında konsensusun əldə olunmaması barədə məlumat verib. İstisna deyil ki, Türkmənistan Prezidenti məhz "Nabucco"ya olan marağın artmasından sonra bu addımı atmaq qərarına gəlib. Berdıməhəmmədov başa düşür ki, tranzit ölkələr arasında "Nabucco"ya dair Ankarada imzalanan hökumətlərarası sazişdən sonra Qərbin qarşısında dayanan əsas məsələ Azərbaycan və Türkmənistan qazının bu kəmərlə nəqlinə dair müqavilələr bağlamaqdır. Ancaq indi Qərb "Nabucco" üçün iki əsas qaz təchizatçısının öz aralarında mübahisə etməsi ilə qarşılaşır. Görünür, Berdıməhəmmədov düşünür ki, Qərb "Nabucco"nu reallaşdırmaq üçün bu mübahisənin həllinə çalışacaq və təbii ki, tərəfləri kompromislərə getməyə çağıracaq. Rəsmi Aşqabad bu yolla Bakıdan hansısa güzəşt əldə etməyə çalışır. Azərbaycan mübahisəli məsələlərin danışıqlar yolu ilə həllinin tərəfdarıdır və Xəzər dənizində demilitarizasiyanın tərəfdarı kimi çıxış edir. Azərbaycan Türkmənistanla danışıqları davam etdirməyə hazırdır.

Bakı əmindir ki, Azərbaycanla birgə "Kəpəz" yatağının işlənməsi Türkmənistana sərfəlidir. Hər şeydən əvvəl bu, tikinti və hasil olunmuş karbohidrogenin daşınması üzrə güclü infrastrukturun mövcudluğu ilə izah olunur. Azərbaycanda bir neçə çox böyük dəniz neft-qaz layihələri reallaşdırılıb. Ölkədə belə obyektlərin inşası üçün lazımi avadanlıqlarla təchiz edilmiş, yüksək ixtisaslı heyətə və iş təcrübəsinə malik xüsusi müəssisələr var. Türkmənistanda belə infrastruktur yoxdur.

Türkmənistan tərəfi mübahisəli kimi yalnız "Kəpəz" (türkmən tərəfi onu "Sərdar" adlandırır) yatağını deyil, eləcə də "Azəri" və "Çıraq" ("Osman" və "Ömər") yataqlarını da göstərməyə çalışır. "Çıraq" və "Azəri" yataqlarının işlənməsinə gəlincə, bu yataqlar hazırda BP, Exxon Mobil, Statoil kimi iri xarici şirkətlərin konsorsiumu tərəfindən işlənilir. Azərbaycanda neft hasilatının əsas həcmi "Azəri-Çıraq-Günəşli" yatağının payına düşür. Bu yataqların blokuna nə şirkətlər, nə layihə iştirakçıları, nə də Azərbaycan mübahisə predmeti kimi baxmır. Ekspertlər hesab edir ki, Xəzərin statusu ilə bağlı beş sahilyanı ölkə arasında siyasi danışıqların davam etdiyi bir vaxtda Beynəlxalq Arbitraj Məhkəməsinin Türkmənistanın iddiasına konkret cavab verməsi çətin olacaq. Keçmiş SSRİ-nin normativ-hüquqi aktlarına görə "Azəri-Çıraq" yataqları Xəzərin Azərbaycan milli sektorunda yerləşir, mübahisəli "Kəpəz" yatağı isə vaxtilə Azərbaycan neftçiləri



tərəfindən kəşf edilib.

Türkmənistanın Xarici İşlər Nazirliyi də Xəzərin bölüşdürülməsi ilə bağlı Aşqabadın mövqeyini açıqlayıb. Aşqabad sahilyanı ölkələr arasında dənizin dibinin konkret hissələrində onların hüquqlarını müəyyənləşdirən razılaşma imzalanmadan birtərəfli şəkildə işlərin görülməsinə qarşıdır. Türkmənistan tərəfi iddia edir ki, Xəzər orta xətt prinsipi ilə bölünməlidir və bu dövlətlər arasında sərhəd rolunu oynamalıdır. Dünya təcrübəsində orta xəttin "xüsusi vəziyyətlər" nəzərə alınmaqla müəyyənləşdirilməsi təcrübəsi də var. Məhz bu "xüsusi vəziyyətlər" 1982-ci ildə qəbul olunmuş BMT-nin dəniz sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı Konvensiyasının tətbiqinə bəzi əngəllər yaradır. Bu amili nəzərə alan Aşqabad hesab edir ki, Xəzərin Türkmənistanla Azərbaycan arasında bölünməsi zamanı Abşeron yarımadası və Çilov adası nəzərə alınmamalıdır. Türkmənistan XİN-i bildirir ki, məhz Abşeron yarımadası və Çilov adası Xəzərdə "xüsusi vəziyyət" yaratdığından Azərbaycan orta xəttin müəyyənləşdirilməsində bu iddiasından əl çəkməlidir.

Son vaxtlar Türkmənistanla Azərbaycan arasında Xəzərlə bağlı artan mübahisələr Rusiyada da yaxından izlənir. Rusiya paytaxtındakı MDB Ölkələri İnstitutunun Mərkəzi Asiya şöbəsinin rəhbəri Andrey Qrozinə görə, hazırda Xəzərə Moskvanın sakit razılığı ilə müəyyən gərginlik gətirilir. Eyni zamanda, o, Türkmənistan rəhbərliyinin son bəyanatlarının daxili auditoriya üçün nəzərdə tutulmasını da istisna etmir.

Türkmənistanın hərbi dəniz qüvvələrini yaratmaq niyyətini Azərbaycana qarşı addım kimi (bəzi yerli və xarici KİV-lərin "şişirtdiyi kimi) qiymətləndirmək olmaz. Azərbaycanın, Rusiyanın və İranın Xəzərdə hərbi mövcudiyyətinin olduğu nəzərə alınarsa, Türkmənistanın da bu istiqamətdə maraqları diqqətə alınmalıdır.

Xəzər dənizinin statusuna dair Azərbaycan, Rusiya və Qazaxıstanın mövqeyi ilə razılaşmayan digər Xəzəryanı ölkə isə İrandır. İran Xəzərin statusu ilə bağlı Sovet İttifaqı ilə İran arasında imzalanmış müqavilələri bir kənara qoymağı təklif edir. İranın xarici işlər naziri M.Möttəki keçmişdə mövcud olmuş hüquqi sənədləri "keçmişin irsi" adlandırıb. Ancaq M.Möttəkinin rusiyalı həmkarı Lavrov hesab edir ki, bu irsi bir kənara qoymaq olmaz, hazırkı proses həmin irs üzərində davam etməlidir.

Müstəqil Dövlətlər Birliyinə daxil olan dörd Xəzəryanı dövlət başçılarının

sentyabrın 11-də Qazaxıstanın Aktau şəhərində bir araya gəlməsi ekspertlərdə tərəflərin Bakı sammiti öncəsi Xəzərin statusu ilə bağlı mübahisəli məqamlar üzrə kompromisə gələ biləcəkləri ehtimalını artırsa da, prezidentlər Xəzərlə bağlı məsələnin müzakirə edilməyəcəyini, Bakı sammitində nəzərəçarpacaq irəliləyişə nail olunacağı ümidini ifadə etməklə kifayətləndilər. Təhlilçilər Aktau görüşündə Xəzər məsələsi üzrə danışıqların aparılmamasının başlıca səbəbi kimi rəsmi Tehranın sərt mövqeyini göstərirlər. İran XİN-i İranın iştirakı olmadan belə bir görüşün keçirilməsini İranın milli maraqlarına zidd saydığını bəyan edərək, Azərbaycan, Qazaxıstan, Rusiya və Türkmənistanın səfirlərini XİN-ə çağıraraq onlara ölkəsinin yazılı etirazını çatdırdı. M.Möttəki etiraz məktubunda İranın iştirakı olmadan çağrılan sammitə qarşı olduqlarını bildirib və bir daha ifadə edib ki, Tehran Xəzərdəki maraqlarının təhlükə altında qalmasına imkan verməyəcək. Beləliklə, beş Xəzəryanı dövlətdən üçü Xəzər dənizinin orta xəttinin müəyyənləşdirilməsinin və onun sektorlara bölünməsinin bir metodunu, iki dövlət isə başqa metodunu təklif edir. Formal baxımdan yanaşdıqda, Azərbaycanın çoxluqda olan cinahda qərar tutmasının ona müəyyən üstünlüklər yaratdığını demək olar. Enerji daşıyıcılarının müxtəlif nəql marşrutlarının təklif olunması, mübahisəli yataqlar üzrə tərəflərdən bəzilərinin qeyri-konstruktiv mövqeyi Xəzərin statusu ilə bağlı müzakirələrin yaxın perspektivdə Konvensiyanın imzalanması ilə nəticələnəcəyini deməyi çətinləşdirir.

"Milli Məclis" jurnalı 15.10.2009.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan tarixi. Yeddi cilddə. Altıncı cild (məsul redaktor c.B.Quliyev). Bakı: 2000; Yeddinci cild (məsul redaktor T.B.Qaffarov). Bakı: 2003
2. Balayev A., Mirzə R. 20 yanvar hadisələri, sənədlər, mövqelər, şərhlər. (1990 - 2000) Bakı, 2000
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 1998, 488 s.
4. Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, Gənclik, 1992, 96 s.
5. Tahirzadə Ə. Meydan 4 il 4 ay. Bakı, Ay - ulduz, 1997, 1 ci cild 488 s.,





2 - si cild 414 s.
6. Zülfüqarlı M.P. Azərbaycan tarixi : II Respublika dövrünün tarixşünaslığı: 1920-1991-ci illər: monoqrafiya / - Bakı : Çaşıoğlu,2001, 312 s.
7. Zülfüqarlı M.P. Azərbaycanı kimlər idarə edib? ( may 1918-oktyabr 2003) Bakı, Qanun, 2006,136 s.
8. Воронов В.А., Флоренский П. В., Шутова Т. А. Белая книга Абхазии. Документы, материалы, свидетельства. 1992-1993. Москва, 1993
9. Абхазия и Южная Осетия после признания. Исторический и современный контекст. В. А. Захаров, А. Г. Арешев, Е. Г. Семерикова. Изд.: Русская панорама.М.2010.
10. Законы легстимной власти Республики Грузия 22 ноября 1990 г. - 3 декабря 1991 г.// Постановление Верховного Совета Республики Грузия об Указе Президента СССР от 7 января 1991 года.
11. The Caucasus: An Introduction.Thomas de waalbook september 17, 2010
12. Asmus R. A Little War that Shook the World. Georgia, Russia and the Future of the West. — New York: Palgrave Macmillian. 2010. — 254 p


**XXIII mövzu:** Dağlıq Qarabağ problemi və onun həlli yolları

1. Regionda müsəlman əhaliyə qarşı baş vermiş soyqırım siyasətinin əsas mahiyyəti
2. Dağlıq Qarabağ problemi və onun həlli yolları
3. ATƏT-in Minsk qrupunun problemin həllində rolu

## AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu.

Birinci Dünya Müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən

əks inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədi ilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Dağlıq Qarabağ münaqişəsi

Dağlıq Qarabağ münaqişəsi bir sıra əlamətlərinə görə, istər müasir dövrün beynəlxalq, istərsə də 1991-ci ildə rəsmən dağılan SSRİ məkanında milli etnik zəminində baş verən konfliktlər sırasında xüsusi yer tutur. Deməli, Dağlıq Qarabağ münaqişəsi özünün bütün səviyyələrində əhatə dairəsinə görə, həlak olanların və məcburi köçkünlərin sayına görə, tarixi köklərinə görə və bu gün həllinin mürəkkəbliyinə görə postsovet məkanında etnosiyasi konfliktlərin ən mürəkkəbidir. Bu münaqişə həm tarixi kökləri və inkişaf xüsusiyyətləri, o cümlədən konfliktoloji statusunun formalaşması, həm də həlli yollarının



axtarılması, onun vasitə və üsulları baxımından diqqəti cəlb edir. DQ münaqişəsi Cənubi Qafqaz regionu ilə yanaşı, bütövlükdə SSRİ-nin və onunla birlikdə dünya sosialist düşərgəsinin taleyinə təsiri baxımından da çox ciddi hadisədir. Formal olaraq bu münaqişə Azərbaycan Sovet Sosialist Respublikası tərkibində hələ 1921-ci ildən mövcud olan Dağlıq Qarabağ Muxtar Vilayətinin bu respublikanın tərkibindən çıxaraq, Ermənistan Sovet Sosialist Respublikasına daxil olmaq istəyi formasında meydana gəlib. Sovet respublikalarından biri olan, SSRİ dağıldıqdan sonra isə müstəqil dövlətə çevrilən Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, müasir sərhədlərin təftişi istər keçmiş SSRİ-nin, istərsə də müasir beynəlxalq münasibətlər sisteminin siyasi normalarına, o cümlədən fundamental qanunlarına zidd mahiyyət daşıyır. Əvvəlcə SSRİ daxilində 1988-ci ilin fevralından başlayan bu konflikt dörd ilə yaxın bir dövr ərzində, yəni 1991-ci ilin sonunadək ümumi dövlət daxilində siyasi konflikt kimi meydana gəlib cərəyan etdi. Yalnız konfliktin sonrakı inkişafını təhlil etməklə onun qəsdən törədildiyini dərk etmək mümkündür. 1991-ci ilin sonunda SSRİ-nin rəsmən süqutu və 15 müttəfiq respublikanın hər birinin müstəqil dövlətə çevrilməsi ilə DQ münaqişəsinin konfliktoloji statusu dəyişdi. Əgər ilk dörd ilə yaxın bir dövr ərzində onu SSRİ-nin daxili konflikti kimi səciyyələndirmək mümkün idisə, Azərbaycan və Ermənistanın müstəqil dövlətlərə çevrilməsi ilə bu münaqişə beynəlxalq konflikt əhəmiyyəti daşımağa başladı. Bəziləri münaqişədə dini amili qabardırlar. Ümumiyyətlə, ilk baxışdan da belə bir qənaətə gəlmək olar ki, münaqişə dini zəmində baş verib. Ermənilər xristian dünyasında özlərinin "xüsusi" yer tutduqlarını, daha doğrusu "ən qədim" xristianlar olduqlarını bildirirlər. Kilsə ermənilər üçün, digər xalqlardan fərqli olaraq, təkcə dini institut funksiyasını yerinə yetirməyib, kilsə eyni zamanda dövlət funksiyasını həyata keçirib. Tarixdə baş vermiş erməni-Azərbaycan toqquşmaları bəzən xalq arasında "erməni-müsəlman qırğını" kimi adlandırılıb. Göründüyü kimi, münaqişənin məzmununda dini amilin nə qədər güclü olduğu nəzərə çarpır. Lakin bu amillər Dağlıq Qarabağ münaqişəsinin dini formatda qiymətləndirilməsinə imkan verməyib. Ermənilər heç vaxt Azərbaycan ərazisində dini etiqadlarına görə təqiblərə məruz qalmayıblar və DQ münaqişəsi nadir "xristian-müsəlman" münaqişələrindəndir ki, müharibənin gedişində cihad elan olunmayıb. Deməli, münaqişənin məzmununda dini-konfessional məqam yoxdur. Dağlıq Qarabağ münaqişəsi "iki suveren dövlət arasında etnoərazi münaqişəsi"nin

nümunəsidir. Ermənistan tərəfi konfliktin birbaşa iştirakçısı olduğunu nə qədər inkar etsə də, Azərbaycan tərəfinin təkidi ilə bu münaqişənin məhz Ermənistan-Azərbaycan konflikti olduğu beynəlxalq miqyasda etiraf edildi. Belə ki, Dağlıq Qarabağ münaqişəsi postsovet məkanında baş verən digər 7 konfliktdən fərqli olaraq iki dövlət arasındadır, münaqişə ətrafında bütün danışıqlar Azərbaycan-Ermənistan formatında aparılır və beynəlxalq səviyyədə də konflikt məhz Azərbaycan-Ermənistan münaqişəsi kimi tanınır. Bundan əlavə, DQ münaqişəsi etnosiyasi konfliktlərin bir növü olan etnoərazi münaqişəsidir, yəni konfliktin məzmununda etnik məqam inkaredilməzdir. Nəhayət, DQ münaqişəsi sırf ərazi konfliktidir: bir dövlət digərinin ərazi bütövlüyünə təcavüz edərək onun ərazisinin 20%-ə qədərini işğal edib. Bu o deməkdir ki, DQ münaqişəsi iki dövlət arasında etnoərazi münaqişəsinin nümunəsidir. Deməli, DQ konflikti Ermənistan tərəfinin irəli sürdüyü kimi daxili etnik konflikt kimi də qiymətləndirilə bilməz. Çünki istər DQ ərazisində, istərsə də Azərbaycanın digər regionlarında ermənilər heç vaxt diskriminasiyaya məruz qalmayıblar, hətta hər zaman xüsusi imtiyazlardan faydalanıblar. Dağlıq Qarabağ münaqişəsinin inkişaf tarixini konfliktoloji baxımdan 4 əsas mərhələyə bölmək olar:

1. Konfliktin gizli mərhələsi. 1988- ci ilin fevralına qədərki dövrü əhatə edir.
2. 1988-ci ilin fevralından, 1992-ci ilə qədərki mərhələ: qarşıdurma və onun əsasən siyasi formalarda münaqişə şəklini almasıdır.
3. 1992-ci ilin əvvəllərindən, 1994-cü ilin mayına qədər Ermənistan və Azərbaycan arasında açıq müharibələr mərhələsidir.
4. 1994-cü ilin mayın 12-dən davam edir.

Beləliklə, 1994-cü ilə qədər davam etmiş hərbi əməliyyatlar nəticəsində torpaqlarımızın 20%-ə yaxını işğal edilmiş, 30 mindən çox insan həlak olmuş, 1 milyondan artıq soydaşımız isə evsiz-eşiksiz qalaraq məcburi köçkün və qaçqın statusu almışdır. DQ konfliktinin həlli yolları bütün digər konfliktlərdə olduğu kimi, onun öyrənilməsi, hansı inkişaf mərhələsində olduğunun müəyyənləşdirilməsindən sonra axtarılmalıdır. Bu məsələdə beynəlxalq hüquq da yardımçı ola bilmədi, əksinə, tərəflər Beynəlxalq hüququn 2 prinsipindən (millətlərin öz müqəddəratını



təyin etmək hüququ və dövlətin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı) birinə əsaslanması nəticəsində ziddiyətlər daha da kəskinləşdi.

Konfliktoloji baxımdan yanaşıldıqda, Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi iki mümkün yoldan biri ilə həyata keçirilə bilər:

1. 1994-cü ilin martından əsas götürülən sülh və ya dinc tənzimləmə yolu.
2. Dinc tənzimləmənin nəticəsiz qaldığı şəraitdə problemin məhz hərbi üsulla nizama salınması.

Yuxarıda deyilənlərdən aydın görünür ki, Azərbaycanın mövqeyi beynəlxalq hüququn prinsiplərinə tam söykənir, lakin Ermənistan tərəfi bununla razılaşmayaraq kontr arqumentlər gətirir. Demək, bu, bir daha sübut edir ki, münaqişənin həlli hüquqi deyil, sırf siyasi razılaşmadan asılıdır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Dağlıq Qarabağ münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi.- Bakı, 2005.
2. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti: Dərslik- B.: Azərbaycan, 2005.- 752 s.
3. Mahmudov Y. Şükürov K. Qarabağ tarixi. Bakı, 2001;
4. Musayev T. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr.Bakı, 1999.
5. Hacıyev Q. Qarabağda erməni terrorunun qədim izləri. Bakı, 2003;
6. İsgəndərov A. 1918 - ci il mart qırğının tarixşünaslığı. Bakı, Mütərcim, 1997, 184 s
7. Рустамова–Тогиди С. Март 1918 г. Баку. Азербайджанские погромы в документах
8. Zülfüqarlı M.P. Şamaxı soyqırımı – 1918. Shamakhi genoside 1918. Bakı 2011.

QEYD ÜÇÜN

QEYD ÜÇÜN

"MEKAN SERVES NN" MMC
Çapa imzalanmışdır: 16.12.2016
Fiziki çap vərəqi: 6
Tiraj: 100